19 iyun 2020-ci il
№17 (8881)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Ölkə Prezidenti: “Mövcud vəziyyətdə təhsil sahəsində müəyyən addımlar atıldı”** ⇨səh.2

**Nazir “Virtual əlaçı”larla videogörüş keçirib** ⇨səh.3

**İlklərə imza atan paytaxt məktəbləri** ⇨səh.7-8

**Çində “İlin ən yaxşı xarici müəllimi” seçilmiş azərbaycanlı** ⇨səh.10

# Təhsil naziri “Son zəng”i çaldı

## Ceyhun Bayramov məzunları təbrik etdi



İyunun 12-də Azərbaycanda məktəb məzunları üçün “Son zəng”səslənib. 2019-2020-ci tədris ilinin “Son zəng”i builki məzunların yaddaşına əbədi həkk olunacaq. Belə ki, Azərbaycanda ilk dəfə olaraq “Son zəng” mərasimi virtual keçirilib.

“Son zəng”də Təhsil naziri Ceyhun Bayramov da iştirak edib. Ceyhun Bayramov məzunları tədris ilinin başa çatması münasibətilə təbrik edib: “Əziz məzunlar, hər birinizi, müəllimlərinizi və valideynlərinizi sizin üçün əlamətdar olan “Son zəng” münasibətilə səmimi qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram. Bilirik ki, bu günü səbirsizliklə gözləyirdiniz. Etiraf edim ki, sizin üçün unudulmaz olan “Son zəng”i arzuladığımız kimi keçirə bilməməyimiz bizi də məyus edir. Lakin bunun səbəbi bütün dünyada baş verən pandemiyanın gətirdiyi yeni bir reallıqdır və sizin sağlamlığınız bizim üçün ən önəmli məsələdir”.

⇨Ardı səh.3

# Təhsilin bütün pillələrində artan dinamika

## 2019–2020-ci tədris ili rəqəmlərdə

### Məktəbəqədər və ümumi təhsil

#### Məktəbəhazırlığın əhatəliliyi genişləndirilib

Ümumi təhsil müəssisələrində dövlət büdcəsi hesabına 5 yaşlı uşaqların məktəbəhazırlıq təhsili 2013-cü ildəki 24 faizdən 2019-2020-ci tədris ilində 80 faizə çatdırılıb, 100 mindən çox uşaq təhsilə cəlb edilib.

#### İcma əsaslı məktəbəqədər təhsil qrupları

2019-2020-ci tədris ilində ölkə üzrə 33 rayon və şəhərin 308 icmasını əhatə edən 321 icma əsaslı məktəbəqədər təhsil qrupu təşkil edilib. 6212 nəfər 3 və 4 yaşlı uşaq bu qruplarda təhsilə cəlb edilib. Pandemiya dövründə “İcma əsaslı məktəbəqədər təhsilin inkişafı” layihəsi çərçivəsində UNICEF-in maliyyə dəstəyi ilə “Mədəniyyət” kanalında “Oynayırıq və öyrənirik” adlı teledərslər nümayiş olunub.

#### 165 minədək uşaq birinci sinfə gedib

2019-2020-ci tədris ili üzrə Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərləri, Abşeron, Samux, Yevlax rayonları üzrə ümumtəhsil məktəblərində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçirilib. Tədris ilində birinci siniflərə 165 minədək uşaq qəbul edilib.

⇨Ardı səh.4-5

# Tarixi ədalətin təntənəsi və ya Hacı Zeynalabdin Tağıyevin fenomenal maarifçilik fəaliyyəti

**(Əvvəli ötən sayımızda)**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ötən il martın 1-də ölkəmizin mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü zamanı Əməkdar artist Bəhram Bağırzadənin Bakıda böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevə abidə ucaldılması təklifi ilə çıxış etdiyini, sözsüz, hörmətli oxucularımız yaxşı xatırlayırlar. Qaldırılan məsələyə yüksək həssaslıq və qədirşünaslıqla yanaşan, milli dəyərlərə hər zaman olduğu kimi böyük diqqət və qayğı göstərən dövlət başçısı həmin təklifi dəstəklədiyini bəyan etdi. “Mən Bəhramın təklifini də bəyənirəm. Hacı Zeynalabdin Tağıyev böyük insan, böyük xeyriyyəçi olub. Azərbaycan xalqı qarşısında çox böyük əməyi olan bir şəxsiyyətdir”, - deyə vurğulayan Prezident İlham Əliyev böyük xeyriyyəçinin tarixi xidmətlərini yada salaraq onun on minlərlə insana köməyi dəydiyini, hətta Hacının xeyriyyəçilik əməllərindən onun ailəsinə də pay düşdüyünü məmnunluqla xatırlatdı, öz növbəsində bu böyük insana olan diqqət və qayğısının əlaməti olaraq öz şəxsi təşəbbüsü ilə Hacının əbədi uyuduğu Mərdəkandakı Pir Həsən Ziyarətgahının abadlaşdırıldığını, Hacının şəxsi mülkünün əsaslı şəkildə bərpa olunduğunu, nəhayət, hazırda AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi yerləşən həmin sarayda H.Z.Tağıyevin ev-muzeyinin də təşkil olunduğunu həssas duyğularla görüş iştirakçılarının diqqətinə çatdırdı, müvafiq dövlət qurumlarına məsələylə bağlı təkliflər hazırlanmasını tapşırdı. Qısa müddətdə abidənin ucaldılması ilə bağlı təşkilati işlərə start verildi.

Sevindirici haldır ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən “Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında” 11 mart 2020-ci il tarixli Sərəncam imzalanmış, Azərbaycanda neft sənayesinin təşəkkülündə mühüm xidmətləri olmuş böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim H.Z.Tağıyevin xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Bakı şəhərində onun abidəsinin ucaldılması ilə bağlı aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilmişdir.

Hesab edirik ki, milli mənəvi dəyərlərə dövlətin və dövlət başçısının daimi diqqət və qayğısının parlaq təzahürü olan bu tarixi sərəncamın böyük mesenat H.Z.Tağıyevin ölkəmizdə neft sənayesinin inkişafında, milli maarifçilik hərəkatının formalaşmasında, Vətənimizdə dünyəvi milli qadın təhsilinin təşəkkülündə, mətbuat və mədəniyyətimizin tərəqqisi yolunda, milli ziyalı elitasının yetişməsində təmənnasız xidmətlərinin çağdaş dövlətçilik təfəkkürü kontekstində yenidən dəyərləndirilməsində, onun çoxcəhətli fəaliyyətinin dərindən tədqiqi, təbliği və müasir gəncliyə gərəyincə və yetərincə çatdırılmasında müstəsna rolu vardır. Bu sərəncam tarixdə iz qoymuş böyük şəxsiyyət olan H.Z.Tağıyev fenomeni haqqında xalqımızın çoxdan arzuladığı tarixi ədalətin təntənəsi baxımından müasir tariximizə, milli yaddaşımıza əbədi həkk olunacaqdır.

⇨Ardı səh.9



# Asiyanın ən yaxşı universitetləri

## Böyük Britaniyanın təhsil xidmətləri sahəsində nüfuzlu şirkəti növbəti reytinqi açıqlayıb

Səh.16

# *Anke den Ouden:* “Azərbaycan təhsil sahəsində ən innovativ ölkələrdən biridir”



“Siz təhsil sahəsində ən innovativ ölkələrdən birisiniz. Biz bu işi davam etdirmək istərdik”.

Bu sözləri “Microsoft” şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə “Multicountry” klasterinin baş meneceri Anke den Ouden iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə keçirilən videokonfrans zamanı deyib.

Azərbaycanın müvafiq nazirlikləri ilə əməkdaşlıqdan danışan, təmsil etdiyi şirkət tərəfindən hazırlanan innovasiyalar barədə məlumat verən Anke den Ouden “Teams” proqramının təhsil işçiləri, eyni zamanda, müəllimlər üçün çox faydalı olduğunu vurğulayıb: “Biz nəinki Azərbaycan dilinin dəstəklənməsinə sadiqik, eyni zamanda, “Teams” proqramının məlumatlarının dəstəklənməsini də öz öhdəliyimiz kimi görürük”.

# *Filip Roq:* “Nazirlikdəki təhsil işçiləri ilə görülən işdən qürur duyuram”




“Təhsil mövzusuna gəlincə, zənnimcə, bu, güman ki, bizim əsas nailiyyətlərimizdən biri idi. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik”.

Bu sözləri “Microsoft” şirkətinin vitse-prezidenti Filip Roq iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə keçirilən videokonfrans zamanı deyib.

Şirkətin vitse-prezidenti Filip Roq Azərbaycanın Təhsil Nazirliyi ilə görülən işlərdən qürur duyduğunu diqqətə çatdırıb: “Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır. Komandalarımız və tərəfdaşlarımızın mümkün qədər tez müddətdə, bir neçə həftə ərzində hər kəsi əlaqələndirmək üçün sizin nazirlikdəki təhsil işçiləri ilə apardığı işdən qürur duyuram”.

Filip Roq çıxışında digər ölkələrdə rastlanan problemlərlə Azərbaycanda qarşılaşmadıqlarını da deyib: “Digər ölkələrdə üzləşdiyimiz problem ondan ibarətdir ki, evlərdəki qurğuların sayı məhduddur. Anlayıram ki, bu, sizdə problem deyil. Bu isə yaxşı xəbərdir. Çox ölkələr, əslində, yetəri qədər qurğular əldə etmək üçün çətinlik yaşayıblar. Ana, ata və uşaqlar evdədirlər və kompüterdən istifadə uğrunda mübarizə aparılır. Lakin görünür, sizdə bu problem yoxdur və bu, yaxşı xəbərdir”.

# Ölkə Prezidenti: "Mövcud vəziyyətdə təhsil sahəsində müəyyən addımlar atıldı"



"Pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq".

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və şirkətin digər nümayəndələri arasında keçirilən videokonfrans zamanı deyib.

Ölkə başçısı mövcud vəziyyətlə əlaqəli təhsil sahəsində müəyyən addımlar atıldığını da vurğulayıb: "Baxmayaraq ki, mövcud vəziyyətə özümüzü uyğunlaşdırmaq üçün bizim çox vaxtımız olmadı, lakin müəyyən addımlar atılmışdır. Çünki bizim məktəb və universitetlərimiz mart ayından bəri bağlanıb. Biz sentyabrın 15-dən başlayacaq yeni tədris ilinə hazırlaşmalıyıq. Həmin zaman pandemiya ilə bağlı vəziyyətin necə olacağını bilmirik, məktəb və universitetləri açıq biləcəyimizi bilmirik, ona görə də biz ən pis ssenariyə hazırlıqlı olmalıyıq. Əgər problem davam edirsə və getdikcə pisləşirsə, o zaman biz bu barədə düşünməli olacağıq".

## Azərbaycan Respublikası Prezidentinin "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" 2019-cu il 27 may tarixli 711 nömrəli və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" 2017-ci il 19 iyun tarixli 1471 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863) 2.1-ci və 2.2-ci bəndlərindən "18.1-ci," sözləri çıxarılsın.

**2.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700, № 10, maddə 2018) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddən "9.1-ci," və "və proqramları (kurikulumlar)" sözləri çıxarılsın;

2.2. 2.5-ci səndə "Qanunun" sözündən sonra "4.0.2-ci (məktəbəqədər təhsil proqramları (kurikulumlar) təsdiq etmək üzrə)," sözləri əlavə olunsun və həmin bənddə "və 4.0.18-ci" sözləri ", 4.0.18-ci və 9.1-ci" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında 2020-ci il aprelin 13-də Pekin şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

## "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" və "Təhsil haqqında" qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1675-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 442; 2008, № 7, maddə 602; 2011, № 2, maddə 71; 2015, № 2, maddə 83; 2017, № 7, maddə 1258; 2019, № 5, maddə 797) aşağıdakı məzmunda 5.0.2-1-ci və 13.3-1-ci maddələr əlavə edilsin:

"5.0.2-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;

13.3-1. Xüsusi təhsil müəssisələrində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil olunur və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirilir.".

**Maddə 2.** "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1012; 2019, № 6, maddə 986, № 12, maddə 1881) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11.12-ci maddəyə "təşkil olunur" sözlərindən sonra "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirilir" sözləri əlavə edilsin;

2.2. 17.2.4-cü maddədən ", çatışmazlıqların (nitq qüsurları, eşitmə və görmə qabiliyyətlərinin zəifliyi) korreksiya edilməsi üçün psixoloji-tibbi-pedaqoji yardım almaq" sözləri çıxarılsın;

2.3. aşağıdakı məzmunda 17.2.4-1-ci maddə əlavə edilsin:

"17.2.4-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**Maddə 3.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 18.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"18.1. Ümumi təhsil müəssisələrində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil olunur və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirilir.";

3.2. aşağıdakı məzmunda 22.2.6-1-ci maddə əlavə edilsin:

"22.2.6-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

## "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.0.55-ci maddədən "Azərbaycan Respublikasında hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmış, fəaliyyətinə lisenziya verilmiş" sözləri çıxarılsın;

1.2. 16.1-ci maddənin birinci cümləsindən "məktəbəqədər və ümumi" sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 20.2-3-cü maddə əlavə edilsin:

"20.2-3. Yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulur.";

1.4. 21.2-ci maddənin birinci cümləsində "subbakalavr ixtisas dərəcəsinin" sözləri "subbakalavr peşə-ixtisas dərəcəsinin" sözləri ilə əvəz edilsin;

1.5. 24-cü maddə üzrə:

1.5.1. 24.1-ci maddədə "peşə-ixtisas təhsilinin hər hansı pilləsini" sözləri "ali, orta ixtisas və peşə təhsili pillələrinin hər hansı birini" sözləri ilə əvəz edilsin;

1.5.2. 24.2.4-cü maddədə "ali təhsil və orta ixtisas" sözləri "ali, orta ixtisas və yüksək texniki peşə" sözləri ilə əvəz edilsin;

1.5.3. 24.4-cü maddədə "peşə-ixtisas təhsili" sözləri "təhsil" sözü ilə əvəz edilsin;

1.6. 27.1-ci maddədə "Azərbaycan Respublikasında təhsil fəaliyyəti üçün lisenziyası olan və dövlət akkreditasiyasından keçmiş təhsil" sözləri "Təhsil" sözü ilə əvəz edilsin.

**Maddə 2.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903) 1 nömrəli əlavə - "Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.3-cü maddəyə "peşə" sözündən əvvəl "dövlət peşə təhsili müəssisələri istisna olmaqla," sözləri əlavə edilsin;

2.2. 5.4-cü maddəyə "orta" sözündən əvvəl "dövlət orta ixtisas təhsili müəssisələri istisna olmaqla," sözləri əlavə edilsin;

2.3. 5.5-ci maddəyə "ali" sözündən əvvəl "dövlət ali təhsil müəssisələri istisna olmaqla," sözləri əlavə edilsin;

2.4. 5.6-cı maddəyə "əlavə" sözündən əvvəl "dövlət əlavə təhsil müəssisələri istisna olmaqla," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

# Prezident İlham Əliyevə minnətdarlıq edirlər

*Hörmətli cənab Prezident.*

İnsanlığa təhlükə olan koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə Sizin uzaqgörən siyasətiniz, vaxtında verdiyiniz qərarlar nəticəsində ölkəmiz bu gün pandemiyadan ən az zərər çəkən dövlətlərdən biridir.

Mən məktəbliyəm. Operativ Qərargahın tələblərinə riayət edir, bütün qaydaları dəstəkləyirəm.

Sizin müdrik idarəçiliyiniz sayənizdə ölkəmizdə bu bəlaya qarşı səmərəli tədbirlər görülür, xalqın rifahı naminə mühüm addımlar atılır.

Görülən işlərə görə bir daha Sizə təşəkkür edir, münasibətimin hüdudsuz olduğunu bildirirəm.

Hörmətlə,

**Mustafayev Sənan Bəhruz oğlu,**
*Bakı şəhəri, Sabunçu rayonu*

---

*Hörmətli cənab Prezident.*

Sizə öz minnətdarlığımı bildirirəm. Çünki, Sizin tələbələrə, gənclərə qayğınız nəticəsində əlaçı tələbə təqaüdü alıram və bir az əvvəl gələn məlumat mesajı ilə sosial baxımdan həssas ailə qrupuna aid olduğum üçün 2020-ci ilin yanvar ayından ilin sonunacan təhsil haqqımın dövlət tərəfindən ödənildiyini öyrəndim. Çox sağ olun. Sizə minnətdaram və Azərbaycan vətəndaşı olaraq Sizin qərarlarınızı dəstəklədiyimi və daim yanınızda olduğumu bildirmək istəyirəm. Sağ olun ki, bizləri unutmursunuz və mən də bu qayğınız sayəsində daha gözəl təhsil alıb Vətənimə layiqli vətəndaş olmağa çalışacağam.

Hörmətlə,

**Salmanova Şərqiyə Ədalət qızı,**
*Bakı şəhəri, Bakı İslam Universitetinin tələbəsi*

---

*Cənab Prezident.*

Həmişə olduğu kimi, Sizin iyunun 3-də Ağcabədiyə səfəriniz də biz sakinlərə böyük sevinc və fərəh hissi bəxş etdi. Biz - qarabağlılar xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı kimi Sizi ürəkdən sevir və Sizinlə qürur duyuruq.

Rayonumuzun davamlı sosial iqtisadi inkişafına daim diqqət yetirməyiniz bizi ürəkdən sevindirir. Bu baxımdan kəndarası yolların çəkilişi və Sarıcalı kəndində müasir məktəb binasının inşası məqsədilə ayırdığınız vəsait minlərlə insanın böyük sevincinə səbəb oldu.

Möhtərəm cənab Prezident, dünya ölkələrinin iqtisadi çətinliklə qarşılaşdığı indiki dövrdə xalqımıza göstərdiyiniz maddi və mənəvi dəstəyə görə bir ziyalı kimi Sizə dərin minnətdarlığımı bildirirəm. Xalqımızın və dövlətimizin daha xoş gələcəyi naminə Sizə uzun ömür, cansağlığı arzu edirik. Tanrı Sizi qorusun.

Hörmətlə,

**Bədəlov Əli Mehdi oğlu,**
*təqaüddə olan müəllim,*
*Ağcabədi rayonu, Salmanbəyli kəndi*

---

*Çox hörmətli möhtərəm Prezident.*

Sizin tərəfinizdən vaxtında həyata keçirilən uzaqgörən, qabaqlayıcı tədbirlər nəticəsində respublikamızda yeni növ koronavirus COVID-19 pandemiyası digər ölkələrlə müqayisədə daha az fəsadlarla keçməkdədir. Xalqımızın bu bəladan xilas olması üçün göstərdiyiniz səylər, verdiyiniz tapşırıqlar, vətəndaşlara infeksiyadan qorunmaqla bağlı etdiyiniz müraciətlər bizi çox sevindirdi. Virusun daha çox yaşlı nəsli öz cənginə aldığını nəzərə alaraq, bu qrup əhalinin xüsusi qayğı ilə əhatə olunması, bütün təhsil müəssisələrinin, uşaq bağçalarının vaxtında bağlanması, aztəminatlı ailələrin müavinətlə, ərzaq yardımı ilə təmin edilmələri, aztəminatlı ailələrdən olan tələbələrin təhsil haqqının dövlət büdcəsindən ödənilməsi, işləyən əhalinin ödənişli məzuniyyətə çıxarılması və gördüyünüz digər operativ, ardıcıl, vacib tədbirlər bizim ölkəmizi dünyada bu virusla mübarizədə fərqləndirdi. Təbii ki, bütün bu nailiyyətlər Sizin qətiyyətli və ciddi iradəniz, elmi və məntiqi cəhətdən əsaslandırılmış yanaşmanız, ən əsası da kökündə vətənpərvərlik, insansevərlik dayanan qərarlarınız sayəsində əldə edilib.

Hörmətli cənab Prezident, mən inanıram ki, Sizin müdrik qərarlarınızla biz bu bəladan minimum zərərlə qurtulacağıq. Dünyada yaşayan azərbaycanlılar Sizin "Biz birlikdə güclüyük!" çağırışınız ətrafında birləşdi. Ölkəmizi müxtəlif təhdidlərdən qoruyan, onun davamlı və böyük uğurlar əldə etməsinə imkan yaradan mühüm səbəblərdən biri məhz Liderlə xalq arasında olan bağlılıqdır. Bizim bugünkü qüdrətli, əzəmətli Azərbaycanımız da Lider-xalq birliyinin təcəssümü və təzahürüdür. Mən bir azərbaycanlı, müəllim olaraq öz adımdan, ailəmin adından gördüyünüz işlər, yürütdüyünüz daxili və xarici siyasət üçün Sizə minnətdarlığımı bildirirəm. Fəxr edirəm ki, Sizin kimi xalqını, millətini sevən, xalqının sağlamlığı üçün bütün gücünü səfərbər edən Prezidentimiz var. Biz dövlətçiliyimizin inkişafı, millətimizin xoşbəxtliyi, ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizədə daim Sizi dəstəkləyir və Sizinləyik.

Cənab Prezident, Sizin qətiyyətli addımlarınızın nəticəsi olaraq artıq ölkəmizdə yeni idarəetmə modeli formalaşır. Korrupsiya və rüşvətxorluğa qarşı tutduğunuz ciddi mübarizə siyasəti öz töhvəsini verməkdədir. Gördüyünüz bütün tədbirlərdə əsas məqsəd vətəndaş məmnunluğuna hesablanır. Bunlar xalq-Prezident həmrəyliyini artırır, Sizə olan inamı da gücləndirir. Müstəqil, güclü Azərbaycan naminə gördüyünüz işlərdə Sizə yeni uğurlar arzulayıram.

Hörmətlə,

**Musayeva Kəmalə Hüseyn qızı,**
*Bakı şəhəri, Şuşa şəhərindən məcburi köçkün,*
*Şuşa şəhər 1 nömrəli tam orta məktəbin müəllimi*

# Nazir "Virtual əlaçı"larla videogörüş keçirib



İyunun 12-də Təhsil naziri Ceyhun Bayramov "Virtual əlaçı" müsabiqəsinin qalibləri ilə videogörüş keçirib.

Nazir xatırladıb ki, ölkənin ən iri onlayn platforması və 1 milyondan artıq istifadəçisi olan "Virtual məktəb" portalında keçirilən "Virtual əlaçı" bilik yarışmasının əsas məqsədi şagirdlər arasında sağlam rəqabəti artırmaq və öyrənilən bilikləri yoxlamaq olub. Hər həftə keçirilən yarışmada şagirdlər portalda "Testlər" bölməsində verilən tapşırıqları həll edir, hər sinif üçün təqdim edilmiş bu tapşırıqlara ən tez düzgün cavab vermiş ilk 10 şagird qalib elan olunur. Bu günədək müsabiqədə yüz minlərlə şagird iştirak edib və onlar arasında 149 nəfər şagird həftələr üzrə qalib elan edilib. Bakı məktəblərindən 87 nəfər, rayon məktəblərindən isə 62 nəfər qalib olub.

Ceyhun Bayramov bildirib ki, "Virtual məktəb" portalında yay aylarında məktəbdənkənar fəaliyyət, abituriyentlər üçün video məzmun, müəllimlər üçün ixtisasartırma və şagirdlər üçün karyera seçimi üzrə onlayn tədbirlər keçiriləcək.

Təhsil naziri bütün məktəbliləri "Məzun günü" münasibətilə təbrik edib, onlara uğurlar arzu edib.

Sonra şagirdlər nazirlə "Virtual əlaçı" müsabiqəsində iştirakla bağlı təəssüratlarını bölüşüb, ona suallar veriblər.

---

# "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli Qərarının icrasının təmin edilməsi barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

"Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 fevral 2020-ci il tarixli 67 nömrəli Qərarının tətbiqi ilə əlaqədar "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2013-cü il 23 dekabr tarixli 927 nömrəli əmri ilə təsdiq edilmiş "Tədris vəsaitlərinə nəşr hüququ (qrif) verilməsi Qaydalarının 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:
"1.3.Ümumi təhsil müəssisələri üçün nəzərdə tutulmuş dərsliklərə qrif verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 fevral tarixli 67 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası" ilə tənzimlənir.".

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2004-cü il 1 noyabr tarixli 810 nömrəli və 2009-cu il 21 dekabr tarixli 1421 nömrəli əmrləri qüvvədən düşmüş hesab edilsin.

**3.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Tədris resursları şöbəsinə (E.Rüstəmov) tapşırılsın ki, bu əmrin icrasından irəli gələn məsələlərin həllini təmin etsin.

**4.** Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə (Vüsal Xanlarov) tapşırılsın ki, "Ümumi təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması Qaydası"nın 3.4-cü və 4.4-cü bəndlərinin icrasını təmin etmək məqsədilə müvafiq proqram təminatlarının 3 (üç) ay müddətində hazırlanmasını təmin etsin.

**5.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının İnformasiya şöbəsinə (E.Məmmədov) tapşırılsın ki, bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini və Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya tapşırılsın.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının Təhsil naziri**

*17 iyun 2020-ci il*

---

# Təhsil naziri "Son zəng"i çaldı

⇦ Əvvəli səh.1

**Oruc MUSTAFAYEV**

Təhsil naziri əlavə edib ki, bu tədris ilinin ikinci yarımilindən şagirdlərimiz doğma məktəblərindən, müəllimlərindən, müəllimlərimiz isə şagirdlərindən ayrı düşməli oldular. "Bilirik ki, məktəb hər bir şagird və müəllim üçün ikinci evi qədər doğmadır. Lakin bizim müəllimlərimizin yorulmaz fəaliyyəti nəticəsində bu ayrılıq bir o qədər də hiss olunmadı. Fürsətdən istifadə edərək pandemiya şəraitində təhsil prosesinin fasiləsizliyini təmin etmək üçün səylərini əsirgəmədən fədakar çalışan müəllimlərimizə öz dərin təşəkkürümü bildirmək istərdim. Onlar öz şəxsi qayğılarını unudaraq televiziya vasitəsilə evdən virtual dərslər keçməklə hər zaman şagirdlərin yanında oldular, onların təhsili naminə çalışdılar", - deyə Ceyhun Bayramov bildirib.

Təhsil naziri qeyd edib ki, bu dövr valideynlərimiz üçün də bir sınaq oldu: "Min bir əziyyətə qatlaşaraq evdə şagirdlərə müəllimlik etdiklərinə, onların hər bir qayğısına böyük səbirlə yanaşdıqlarına görə hörmətli valideynlərimizə xüsusi təşəkkürümü bildirmək istərdim".

Ceyhun Bayramov məzunlara üz tutaraq bir daha onları ürəkdən təbrik edib: "Sizə həyatınızın yeni mərhələsində uğurlar arzulamaq istərdim. Yolunuz açıq olsun!".

Daha sonra Təhsil naziri məzunlar üçün rəmzi "Son zəng"i öz oxuduğu məktəbdən səsləndirib.

Xatırladaq ki, bu il respublikanın ümumtəhsil məktəblərinin 11-ci siniflərini 80646 şagird bitirib.

Əziz məzunlar, hər birinizi təbrik edir və uğurlar arzulayırıq!

# Azərbaycan məktəblilərindən növbəti uğur

Bu günlərdə riyaziyyat və fizika fənləri üzrə onlayn keçirilən beynəlxalq olimpiadalarda Azərbaycan məktəbliləri növbəti uğura imza atıblar.

Belə ki, 38 ölkədən 337 şagirdin qatıldığı Asiya Pasifik Riyaziyyat Olimpiadasında (APMO) Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin şagirdi Abbas Məmmədov gümüş, eyni liseyin şagirdi Murad Ağazadə bürünc, Şuşa rayonu Malıbəyli kənd 1 nömrəli tam orta məktəbin şagirdi Vüqar Quliyev bürünc medal əldə ediblər.

Fizika fənni üzrə Rusiyanın təşkilatçılığı ilə keçirilən və 450-dən artıq şagirdin iştirak etdiyi onlayn olimpiadada isə (OPHO) Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdi Ayhan Süleymanzadə gümüş, Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin şagirdi Tamerlan Ağayev gümüş, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın şagirdləri Murad Bəşirov və Sirac Yəhyazdə isə bürünc medal qazanıblar.

# Təhsilin bütün pillələrində artan dinamika

## 2019-2020-ci tədris ili rəqəmlərdə







⇦ Əvvəli səh.1

### Teledərslərin yayımı həyata keçirilib

COVID-19 pandemiyası ilə əlaqədar ümumi təhsil müəssisələrinin şagirdləri üçün 11 mart 2020-ci il tarixindən etibarən şənbə və bazar günləri istisna olmaqla, hər gün 5-6 saat "Mədəniyyət" və "ARB Günəş" telekanalları üzərindən "Dərs vaxtı" verilişi yayımlanıb, ümumi təhsil müəssisələrində təhsil alan 1,6 milyon şagird tədrisə cəlb olunub. Tədris ilinin sonunadək təqdim olunan teledərslərin ümumi sayı 2124 təşkil edib.

Həmçinin cari ilin 25 aprel tarixindən hər həftənin şənbə günləri məktəbdənkənar fəaliyyət üzrə "Dərsdən sonra" verilişinin yayımına start verilib.

### 80646 nəfər məzun olub

2019-2020-ci tədris ilində XI sinfi bitirən şagirdlərin sayı 80646, IX sinfi bitirənlərin ümumi sayı isə 119852 nəfərdir.

2019-2020-ci tədris ilində respublika üzrə 3256 ümumtəhsil məktəbində fəaliyyət göstərən 5855 məktəbəhazırlıq qrupunu 107911 nəfər uşaq başa vurub.

2020-2021-ci tədris ilində I sinifdə təhsil alacaq uşaqların sayının 165511 nəfər olacağı proqnozlaşdırılır.

### İstedadlı uşaqlar üçün xüsusi siniflərin əhatə dairəsi genişləndirilib

2019-2020-ci tədris ilində istedadlı uşaqlar üçün 102 xüsusi sinif yaradılıb.

Hazırda Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri ilə yanaşı 47 rayon üzrə 82 məktəbdə ümumilikdə 162 xüsusi sinif fəaliyyət göstərir. 4000-ə yaxın şagird sözügedən siniflərdə təhsillərini davam etdirir.

### Gəncə, Şirvan, Şəki və Qubada lisey sinifləri

Gəncə şəhəri və Quba rayonunda Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin, Şirvan və Şəki şəhərlərində isə Kimya-biologiya təmayüllü Respublika liseyinin sinifləri yaradılıb.

Növbəti tədris ilindən Gəncə, Şirvan, Şəki şəhərləri, Quba və Şəmkir rayonlarında 5 yeni lisey fəaliyyət göstərəcək. Belə ki, Gəncə şəhəri və Quba rayonunda Fizika, riyaziyyat və informatika təmayüllü, Şirvan, Şəki şəhərləri və Şəmkir rayonunda isə Kimya-biologiya təmayüllü Respublika liseyi təşkil olunub. Yeni liseylər həmin regionlarda sözügedən lisey siniflərinin bazasında yaradılıb.

### Beynəlxalq fənn olimpiadalarında qazanılan uğur

2019-2020-ci tədris ilində Azərbaycan məktəbliləri ümumilikdə 29 müxtəlif beynəlxalq olimpiada və müsabiqələrdə iştirak ediblər. Məktəblilərimiz 15 gümüş, 15 bürünc medal və 4 qızıl medal əldə edib.

### 322 adda 7717764 nüsxə dərslik və metodik vəsait

2019-2020-ci tədris ilində 322 adda 7717764 nüsxə dərslik və metodik vəsait çap edilib.

Dövlət ümumi təhsil müəssisələrinin istifadəsində olan 116 adda dərslik və metodik vəsait məzmun və dizayn baxımından təkmilləşdirilərək yenilənib.

2020-2021-ci tədris ili üçün ölkənin dövlət ümumi təhsil müəssisələrinin I-XI siniflərinə ümumilikdə 339 adda 7233214 nüsxə dərslik və metodik vəsaitin çap edilməsi nəzərdə tutulub. Onlardan 260 adda 6912174 nüsxəni dərsliklər, 79 adda 321040 nüsxəni isə metodik vəsaitlər təşkil edir. Bu kağız dərsliklər əsasında 48 adda yeni elektron dərsliyin hazırlanması, 46 adda mövcud elektron dərsliyin isə təkmilləşdirilmiş kağız dərsliklərə uyğunlaşdırılması həyata keçiriləcək.

Bununla yanaşı, dövlət peşə təhsili müəssisələri üçün ümumilikdə 96 adda 185699 nüsxə dərsliyin çap edilməsi nəzərdə tutulub.

### Ehtiyat dərsliklərin tətbiqinə başlanılıb

2019-2020-ci tədris ilində dövlət ümumi təhsil müəssisələrinin I sinifləri üçün hazırlanan ehtiyat dərsliklər 150 məktəbin pilot siniflərində tətbiq olunub.

### "Virtual məktəb" platformasının 1 milyondan çox üzvü var

2 aprel 2020-ci il tarixindən "Virtual məktəb" layihəsi çərçivəsində ölkənin ən iri milli onlayn platforması şagirdlərin istifadəsinə verilib. Onlayn platformada qeydiyyatdan keçmiş müəllim və şagirdlərin sayı 1 milyonu ötüb. Həmin platforma üzərindən hər həftə şagirdlər arasında "Virtual əlaçı" müsabiqəsi keçirilib. 140-dan artıq şagird bu müsabiqənin qalibi olub.

### Azərbaycan təhsil platforması UNESCO-nun rəsmi siyahısında

Pandemiya dövründə Azərbaycanda tətbiq edilən təhsil platforması UNESCO-nun rəsmi saytında təqdim edilən siyahıda yer alıb. Belə ki, dünyada COVID-19 pandemiyasının yayılması ilə əlaqədar UNESCO-nun rəsmi saytında *(https://en.unesco.org/covid19/educationresponse/solutions)* şagirdlərin öyrənmə prosesini asanlaşdırmaq məqsədilə distant təhsil platformaları, elektron portallar və təlim tətbiqlərinin siyahısı təqdim edilib. Ölkəmizdə tətbiq edilən hesablama təfəkkürü və riyazi bacarıqların inkişafına xidmət edən "Polyup" platforması da bu siyahıya daxil edilib.

### Azərbaycan Təhsil Şəbəkəsi 3900-ə yaxın təhsil müəssisəsini əhatə edir

2019-2020-ci tədris ilində Azərbaycan Təhsil Şəbəkəsinə 1000-dən çox ümumi təhsil müəssisəsi qoşulub.

Ölkənin müxtəlif pillələr üzrə təhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları vahid şəbəkədə birləşdirən Azərbaycan Təhsil Şəbəkəsi hazırda 3900-ə yaxın təhsil müəssisəsini əhatə edir.

### 20 məktəbdə peşə təmayüllü sinif

2019-2020-ci tədris ili üçün pilot olaraq Bakı, Abşeron, Sumqayıt, Gəncə, Şirvan, Masallı, Cəlilabad, Xaçmaz, Salyan, Biləsuvar, Şəki, Qusar, Şəmkir və Sabirabadda yerləşən 20 ümumi təhsil müəssisəsində şagirdlərin peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması istiqamətində peşə təmayüllü siniflər təşkil edilib. Ölkə üzrə 20 ümumtəhsil məktəbində 20 peşə təmayüllü sinif yaradılıb. Bu siniflərdə ümumilikdə 420 şagird təhsil alır.

Həmçinin Nazirlər Kabineti tərəfindən "Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında qərar qəbul edilib. Peşə təmayüllü siniflərə qəbul və tədris qaydaları müəyyənləşdirilib.

### "Məktəblinin dostu"nun əhatə dairəsi genişləndirilib

"Məktəblinin dostu" layihəsinin əhatə etdiyi məktəblərin sayı 70-ə çatdırılıb. Layihə üzrə hazırda 300 əməkdaş çalışır. Layihə Bakı şəhəri üzrə 58 tam orta məktəb, 2 gimnaziya, 2 internat və 2 idman məktəbi olmaqla ümumilikdə 64 ümumi təhsil müəssisəsini əhatə edir. Eləcə də Sumqayıtda 4, Abşeronda 2 ümumi təhsil müəssisəsində "Məktəblinin dostu" fəaliyyət göstərir.

### STEAM layihəsinin tətbiqinə başlanılıb

Bakı şəhərində yerləşən 42 ümumi təhsil müəssisəsində 6 mindən çox şagirdin cəlb edildiyi STEAM layihəsinin tətbiqinə başlanılıb. Növbəti illərdə 20 mindən artıq şagirdin STEAM layihəsinə cəlb edilməsi, 10 bölgədə isə regional tədris mərkəzlərinin yaradılması nəzərdə tutulur.

Pandemiya dövründə layihə çərçivəsində COVID-19 infeksiyasından qorunmaq üçün "üz siperi", eləcə də bir çox tibbi cihaz və avadanlıqların müxtəlif detallarının sınaq istehsalına başlanılıb. Proses çərçivəsində 1500-dən çox "üz siperi" istehsal olunaraq tibb işçilərinə və 1400 "üz siperi" isə polis işçilərinə təqdim edilib.

### "Rəqəmsal bacarıqlar" layihəsinin əhatəsi genişləndirilib

"Rəqəmsal bacarıqlar" layihəsi 6 şəhər və rayonu, 123 məktəb, 700 müəllim və 70000 şagirdi əhatə edir.

Pandemiya dövründə "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində tədris olunan informatika fənni üzrə buraxılmış mövzulara əsasən, ümumilikdə 72 teledərs (Azərbaycan bölməsi üçün 32, rus bölməsi üçün isə 40 teledərs) ictimaiyyətə təqdim olunub. Bununla yanaşı olaraq, Təhsil Nazirliyi və beynəlxalq "Alqoritmika" şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə üzrə videodərslər hazırlanıb. Ümumilikdə III-VIII sinifləri əhatə edən 197 videodərs təqdim olunub. Onlardan 87-si Azərbaycan, 110-u isə rus bölməsi üzrədir.

### Məktəb tikintisi

2019-2020-ci tədris ilində Təhsil Nazirliyi tərəfindən 50-si modul tipli olmaqla, 87 məktəbin tikintisi və əsaslı təmiri başa çatdırılıb.

### 8 mindən çox müəllim işə qəbul olunub

2019-2020-ci tədris ili üzrə 8 mindən çox müəllim işə qəbul olunub. Onlardan 3260 nəfəri müddətsiz, 5614 nəfəri isə müddətli müqavilə əsasında işlə təmin olunub. Müddətsiz müqavilə əsasında işə qəbul olunan müəllimlərdən 973 nəfər həvəsləndirmə tədbirləri tətbiq olunmayan ümumi təhsil müəssisələrinə, 2287 nəfər isə həvəsləndirmə tədbirləri tətbiq edilən məktəblərə işə qəbul olunub.

### Müəllimlərin aylıq əməkhaqqı artırılıb

Ölkə Prezidentinin sərəncamına əsasən, müəllimlərin aylıq vəzifə maaşı 2019-cu il sentyabrın 1-dən orta hesabla daha 20 faiz artırılıb və orta aylıq əməkhaqqı 600 manata çatıb. Bu artımlardan sonra aylıq əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5 min nəfər təşkil edib.

Həmçinin diaqnostik qiymətləndirmədən keçən incəsənət və yaradıcılıq üzrə tədris aparan müəllimlərin əməkhaqqı 1 oktyabr 2019-cu il tarixindən etibarən Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq artırılıb.

### 1035 müəllim müddətsiz əmək müqaviləsi ilə təyin olunmaq hüququ qazanıb

Ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş müsabiqə əsasında müddətli müqavilə ilə işə qəbul olunmuş müəllimlərin daimi əsaslarla işə qəbul edilməsi üçün elektron müsabiqə və onlayn müsahibələr təşkil edilib. Müsahibələrdə iştirak etmiş 1228 namizəddən 1035 nəfəri uğur qazanaraq müddətli müqavilə əsasında çalışdıqları məktəbə 2020-2021-ci tədris ilindən etibarən müddətsiz əmək müqaviləsi ilə təyin olunmaq hüququ qazanıb.

### Təhsil müəssisələrində psixoloji xidmət

2019-2020-ci tədris ilində Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"ı təsdiqlənib. Qərara əsasən, bütün pillələr üzrə təhsil müəssisələrində psixoloji xidmət fəaliyyət göstərəcək. Şagird sayı 1000-dək olan məktəblərdə 1, 1000-dən 3000-dək olan məktəblərdə 2, 3000-dən çox olan məktəblərdə 3 psixoloq fəaliyyət göstərəcək.

### Müəllimlərin işə qəbulunda yenilik

Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsində iştirak edən namizədlərə ixtisas üzrə 40, təlim strategiyaları və metodika üzrə 20 test tapşırığı təqdim olunacaq. İmtahan proqramından məntiq tapşırıqları çıxarılıb.

Müddətli müqavilə əsasında elektron yerləşdirmələr başa çatdıqdan sonra tutulmayan və yeni yaranan vakant yerlər ilboyu ilk növbədə müvafiq rayon üzrə qeydiyyatda olan namizədlərə (bal ardıcıllığı nəzərə alınmaqla) təklif olunacaq.

Ötən il müəllimlərin işə qəbulu müsabiqəsinin test mərhələsinin nəticələri cari tədris ilinin sonunadək qüvvədə qalacaq.

### Müəllimlərin sertifikatlaşdırılması

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş əlavə və dəyişikliyə əsasən, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan müəllimlər 5 ildə bir dəfə sertifikatlaşdırmadan keçməlidir. Bununla yanaşı, müəllimlərin işə qəbulu müsabiqəsi ilə ilk dəfə işə qəbul olunanların 5 il müddətində sertifikatlaşdırılması aparılmayacaq.

### Müəllimlər üçün təlimlər

Pandemiya dövründə müəllimlərin ixtisasının artırılması, məzmunun uyğunlaşdırılması, təhsilalanların motivasiyasının artırılması istiqamətində 1000-dən çox müəllim distant təhsil mövzusunda onlayn təlimlərə cəlb olunub.

### Azərbaycan Gənc Müəllimlər Assosiasiyası yaradılıb

İstedadlı gənc müəllimləri aşkara çıxarmaq, onların gələcək inkişafı üçün əlverişli şərait yaratmaq məqsədilə Azərbaycan Gənc Müəllimlər Assosiasiyası yaradılıb.

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının I Forumu keçirilib.

### Elektron dərslik portalından istifadə sayı iki dəfə artıb

2019-2020-ci tədris ilində Təhsil Nazirliyinin *www.e-derslik.edu.az* portalından unikal istifadəçi sayı 1103257, portala ümumi daxilolma sayı 3102531, səhifələrə ümumi baxış sayı isə 22466350 olub. Müqayisə üçün deyək ki, ötən tədris ilində bu rəqəmlər müvafiq olaraq 704470, 1869193, 13599894 təşkil edib. *www.video.edu.az* portalında videolara baxış sayı 383948 dəfə olub.

# Təhsilin bütün pillələrində artan dinamika

## 2019-2020-ci tədris ili rəqəmlərdə

### Məktəbdənkənar fəaliyyət

Pandemiya dövründə Təhsil Nazirliyi tərəfindən məktəbdənkənar təhsil müəssisələrinin qrup və dərnəklərinə cəlb edilən məktəblilər üçün dərs cədvəlinə uyğun olaraq start verilən onlayn dərslərdə 27 idman növü və 103 dərnək üzrə 20 min nəfərə yaxın qrup və dərnək üzvü, 1200-dən çox müəllim iştirak edib.

Məktəbdənkənar fəaliyyət sahəsində onlayn platformalarda reallaşan ölkədaxili və beynəlxalq səviyyəli idman yarışları, yaradıcılıq müsabiqələri, sərgilər, "dəyirmi masa"lar və digər tədbirlərə ümumilikdə 15 minə yaxın məktəbli qoşulub.

### Teledərslər və ustad dərsləri yayımlanıb

"Mədəniyyət" kanalında yayımlanan "Dərsdən sonra" bloku, "Dərs vaxtı" proqramı layihələrində 37 fiziki tərbiyə müəllimi, məşqçi-müəllim, dərnək rəhbəri tərəfindən ümumilikdə 80 teledərsin çəkilişi təmin edilib.

Təhsil Nazirliyi və Azərbaycan Tələbə Futbol Federasiyasının birgə təşkilatçılığı ilə nazirlik sistemində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin futbol bölmələrinin üzvləri və ali və orta-ixtisas təhsili müəssisələrinin tələbələri üçün futbol və futzal idman növləri üzrə ustad dərslərin təşkilinə başlanılıb. Buna müvafiq olaraq 14 ustad dərsi çəkilib və hazırda "Mədəniyyət" kanalında yayımlanır.

### Ölkə və beynəlxalq miqyaslı yarışlardan 2847 medal

Məktəbdənkənar fəaliyyətin təşkili istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Təhsil Nazirliyinin idman və şahmat məktəblərinin yetirmələri 2019-cu il ərzində ölkə və beynəlxalq miqyaslı yarışlarda 2847 medal (respublika üzrə 1810, beynəlxalq 1037) qazanıblar.

## Peşə təhsili

### Yeni Peşə Təhsil Mərkəzi

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışı olub. Koreya təhsil standartları əsasında fəaliyyət göstərən mərkəzə 2019-2020-ci tədris ilində 8 istiqamət üzrə 231 tələbə qəbul edilib. Növbəti tədris ilindən qəbul planının artırılması və qısamüddətli kursların tətbiqi nəticəsində tələbə sayının 1000 nəfərə çatdırılması planlaşdırılır.

### Peşə təhsili müəssisələrinə qəbul

2019-2020-ci tədris ilində peşə təhsili müəssisələrinə 14 mindən çox şəxs qəbul olunub.

### Peşə ixtisası üzrə dərsliklər artıq elektron formatda

Peşə ixtisasları üzrə dərsliklər *e-derslik.edu.az* portalında elektron formatda yerləşdirilib. 39 ixtisas üzrə 193 dərsliyin yer aldığı platformada tədris vəsaitlərini onlayn oxumaq və yükləmək imkanı yaradılıb.

### Peşə sahəsi üzrə teledərslər

Pandemiya dövründə peşə təhsili və təlim sistemində təhsilalanların tədris prosesində iştirakını təmin etmək üçün "Mədəniyyət" telekanalında həftədə iki dəfə olmaqla teledərslər yayımlanıb. Bu təşəbbüslərlə yanaşı, Peşə Təhsili üzrə Dövlət Agentliyi öyrənmə nəticələrinin qiymətləndirilməsi vasitələrinin hazırlanmasına və seçilmiş peşələr üzrə tam onlayn mənbələrin (video dərslər və mətnlər daxil olmaqla) tərcüməsinə də başlayıb.

### Peşə sahəsində onlayn karyera təlimləri

Peşə təhsili müəssisələrinin tələbələri üçün karyera üzrə onlayn təlim sessiyaları təşkil edilib. Onlayn təlim sessiyalarında Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzinin və Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin 100-dən çox tələbəsi ilə yanaşı müəllimləri də iştirak edib. Karyera təlim proqramının davamlılığı nəzərdə tutulur.

### Azərbaycan "WorldSkills Asia" təşkilatına üzv qəbul edilib

Azərbaycan peşə təhsilli kadrların olimpiadası kimi tanınan "WorldSkills Asia" təşkilatına üzv seçilib.

### Peşə təhsil müəssisəsində tibbi maska istehsalı

Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi "Save Tekstil" MMC ilə birgə tibbi maska istehsalına başlayıb. İstehsal müəssisəsinə müvafiq ixtisaslar üzrə təhsil alan 20-yə yaxın Peşə Təhsil Mərkəzinin məzunu cəlb edilib.

## Ali təhsil və elm

### Bakı Dövlət Universitetinin 100 illiyi qeyd olunub

Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən tədbirdə ölkə Prezidenti cənab İlham Əliyev iştirak edib. Dövlət başçısı tədbirdə çıxış edərək tərbiyə işinin təkmilləşdirilməsi, təhsilalanların milli-mənəvi dəyərlər, azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı təhsil işçilərı qarşısında mühüm vəzifələr qoyub.

### Təqaüd alan tələbələrin sayı 45 faizə çatdırılıb

Təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq sərəncama əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16 min vahid artırılıb, təqaüd alan tələbələrin sayı cari tədris ilində 45 faizə çatdırılıb, 2020-2021-ci tədris ilində isə 50 faizə çatdırılması nəzərdə tutulub.

### 110 mindən artıq tələbənin təqaüdü artırılıb

Ölkə başçısının ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlara müvafiq olaraq 600-ə yaxın doktorantın və 110 mindən artıq tələbənin təqaüdü 2019-cu il martın 1-dən orta hesabla 20 faiz, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 30 faiz artırılıb.

### 17 mindən çox tələbənin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir

Hazırda ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan 17120 nəfər məcburi köçkün statusuna malik olan, valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş şəxslərin uşaqları, I və II dərəcə əlilliyi olan, habelə, sağlamlıq imkanları məhdud 18 yaşınadək tələbələrin təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

### Tələbələr üçün distant təhsil imkanı

Pandemiya dövründə təhsil proqramlarının mənimsənilməsinin təmin edilməsi məqsədilə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələrində müxtəlif onlayn platformalar üzərindən dərslərin təşkilinə başlanılıb. Həmin dərslərə 100 mindən artıq tələbə və professor-müəllim heyəti qoşulub.

### Həssas qruplardan olan tələbələrə dəstək

Pandemiya dövründə Nazirlər Kabinetinin "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" qərarı qəbul edilib. Qərar 20 mindən artıq tələbəni əhatə edir. Qərarın icrası üçün dövlət büdcəsindən 40 milyon manat maliyyə vəsaiti ayrılıb.

### Dövlət sifarişi yerləri 66 faiz artırılıb

Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi yerləri 66 faiz artaraq 12300-dən 20500-ə çatdırılıb. Son 5 il ərzində ali məktəblərə qəbul olunan tələbələrin sayında təxminən 21 faiz artım olub.

### 46 yeni ixtisas əlavə olunub

Nazirlər Kabinetinin qərarı ilə "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı" təsdiq olunub. Qərara əsasən, əvvəlki təsnifatda mövcud olan 175 ixtisasın sayı 148-ə qədər azaldılıb. O cümlədən, 18 ixtisasın adında dəyişiklik edilib, 70-ə yaxın ixtisas birləşdirilib və ya çıxarılıb, 46 yeni ixtisas əlavə olunub.

### Magistraturaya qəbulda dəyişiklik

Nazirlər Kabineti "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul Qaydaları"nda dəyişiklik edib. Dəyişikliyə əsasən, magistraturaya qəbul imtahanı yalnız bir mərhələli olacaq. İmtahan Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçiriləcək.

Jurnalistika üzrə magistraturaya və xüsusi qabiliyyət tələb edən ixtisasların ixtisas magistraturasına qəbul olmaq istəyənlər qəbul imtahanını verdikdən sonra əlavə olaraq qabiliyyət imtahanı verməlidirlər. Qabiliyyət imtahanlarının proqramları və keçirilmə vaxtı DİM tərəfindən elan olunacaq.

### 90-dan artıq ölkədən 6600 nəfərdən çox əcnəbi tələbə

2019-2020-ci tədris ilində Azərbaycanda ali və orta ixtisas təhsili müəssisələrində 90-dan artıq ölkədən 6600 nəfərdən çox əcnəbi tələbə təhsil alıb.

### 226 nəfər xaricdə təhsil alıb

2019-2020-ci tədris ilində Hökumətlərarası Təqaüd proqramları çərçivəsində Macarıstanda 177, Çində 30, Rumıniyada 2, Rusiya Federasiyasında 3, Latviyada 12, Qazaxıstanda 2, ümumilikdə isə 226 nəfər xaricdə təhsil alıb.

### Dövlət Proqramının icrası

"2019-2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın icrasına başlanılıb. Proqram çərçivəsində 5 beynəlxalq ikili diplom proqramının təsis olunması nəzərdə tutulub. Bunlardan 3-ü - Azərbaycan Dövlət Pedaqoji Universiteti və ADA Universiteti ilə Corc Vaşinqton Universiteti arasında müvafiq müqavilələr, Bakı Mühəndislik Universiteti və INHA Universiteti arasında niyyət protokolu imzalanıb və müqavilənin imzalanması üzrə son tamamlama işləri görülür.

Hər üç proqram üzrə dərslərin 2020-2021-ci tədris ilində həyata keçirilməsi planlaşdırılır. 2020-ci ildə xaricdə doktorantura təhsili üçün namizədlərin seçim prosesi artıq başa çatıb.








### Azərbaycanın 2 universiteti dünya reytinqində

Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2020-ci il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə (SDG) əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyən edən "THE University Impact Rankings 2020" reytinq cədvəlini açıqlayıb.

Dünya universitetlərinin fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının 17 Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə ölçən bu reytinqdə Azərbaycanın 2 ali təhsil müəssisəsi də yer alıb. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Xəzər Universiteti 601+ aralığında qərarlaşıblar.

***

### 13-cü Azərbaycan Beynəlxalq Təhsil sərgisi

10-12 oktyabr 2019-cu il tarixlərində Bakı Ekspo Mərkəzində 13-cü Azərbaycan Beynəlxalq Təhsil sərgisi keçirilib. Sərgiyə dünyanın 22 ölkəsindən 150-dək iştirakçı qatılıb.

### Təhsil Nazirliyi yanında İctimai Şura yaradılıb

Təhsil Nazirliyinin fəaliyyətində şəffaflığın daha da artırılması, təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyətin gücləndirilməsini təmin etmək məqsədilə İctimai Şura yaradılıb.

### Azərbaycan Könüllülərinin 2-ci Həmrəylik Forumu

3 minə yaxın gəncin iştirakı ilə Azərbaycan Könüllülərinin 2-ci Həmrəylik Forumu keçirilib.

### Ölkənin təhsil sisteminin göstəriciləri növbəti dəfə yaxşılaşıb

Dünya İqtisadi Forumu tərəfindən yayılmış "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatında Azərbaycan ötənilki göstərici ilə müqayisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub. Bu göstərici 12 indikator əsasında müəyyən edilib ki, bunlardan 8-i üzrə ölkəmiz MDB ölkələri arasında yüksək nəticələr əldə edib.

### Təhsildə Keyfiyyət Təminatı Agentliyi yaradılıb

Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Fərmana əsasən, Təhsil Nazirliyinin tabeliyində olan Akkreditasiya və Nostrifikasiya İdarəsi Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan "Təhsildə Keyfiyyət Təminatı Agentliyi"nə çevrilmə yolu ilə yenidən təşkil edilib.

Fərmanla "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi" təsdiqlənib.

# Milli Qurtuluş Gününə həsr olunmuş beynəlxalq “dəyirmi masa”

## Dünya ölkələrində yaşayan azərbaycanlı uşaq və gənclər bir arada





İyunun 16-da Təhsil Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunmuş dünya ölkələrində yaşayan azərbaycanlı uşaq və gənclər üçün onlayn beynəlxalq “dəyirmi masa” keçirilib.

“Dəyirmi masa”nın keçirilməsində əsas məqsəd ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə əldə olunan uğurlar-xalqın sosial rifahının yaxşılaşması, ölkəmizin dünyada rolunun möhkəmlənməsi, mədəniyyət, idman, incəsənət, elmin sürətli inkişafı, həmçinin onun tarixi qayıdışı ilə Azərbaycanın regionda ən güclü dövlətə çevrilməsi barədə məlumatları dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizin diqqətinə çatdırmaqdan ibarət olub.

COVID-19 pandemiyası ilə əlaqədar videokonfrans formatında keçirilən tədbirin açılışında Təhsil nazirinin müavini Firudin Qurbanov iştirakçılara videomüraciət ünvanlayıb. Firudin Qurbanov müraciətində “dəyirmi masa” iştirakçılarını 15 iyun-Milli Qurtuluş Günü münasibətilə təbrik edib, bu əlamətdar günün ölkəmiz üçün böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik olduğunu bildirib. Qeyd edilib ki, daim xalqına arxalanan, dayaq olan Heydər Əliyev ölkədə olduqca mürəkkəb ictimai-siyasi böhranı aradan qaldıraraq, öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini möhkəmləndirdi və inkişaf təməlini qoydu. Ulu öndərin “Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır” sözlərini xatırladan nazir müavini milli qurtuluş ideologiyası təntənəsinin müstəqil respublikamızın indiki davamlı inkişafında özünü büruzə verdiyini vurğulayıb.

Bildirilib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Həmçinin uşaqların hərtərəfli inkişafına, vətənpərvər vətəndaş kimi formalaşmasına, gələcəkdə cəmiyyətə çevik inteqrasiyası üçün müvafiq bilik və bacarıqlara yiyələnməsinə böyük önəm verildiyini, təhsil sisteminin sürətli inkişafı sayəsində uşaq və gənclərimizin beynəlxalq səviyyədə uğurlarının getdikcə artdığı vurğulanıb. Gənclərimizin elm, təhsil, incəsənət və idman sahələrində əldə etdikləri böyük nailiyyətlərin Azərbaycanın dünyaya tanıdılması, milli və mədəni irsimizin tərənnüm edilməsi istiqamətində atılan ciddi addımlar olduğunu bildirən nazir müavini ölkəmizdə elm, texnologiya, incəsənət, ekologiya və yaradıcılığın bütün sahələrini əks etdirən beynəlxalq və respublika səviyyəli forum, konfrans, müsabiqə, yaradıcılıq festivalları, sərgi, elmi-tədqiqatçılıq və maarifləndirmə layihələri həyata keçirildiyini “dəyirmi masa” iştirakçılarının diqqətinə çatdırıb.

Nazir müavini müstəqillik əldə etdikdən sonra xarici ölkələrdə yaşayan azərbaycanlıların birlik və həmrəyliyinin Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib, əsas məqsədin dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqələrini, eyni zamanda azərbaycanlı uşaqlar və gənclər arasında birlik, əməkdaşlıq və dostluq əlaqələrini inkişaf etdirmək, vətənimizin hüdudlarından kənarda xalqımızın milli dəyərlərini və ənənələrini qoruyub saxlamaqdan ibarət olduğunu bildirib.

Firudin Qurbanov “dəyirmi masa” iştirakçılarının ölkəmizdə aparılan genişmiqyaslı quruculuq işləri və həyata keçirilən tədbirlər haqqında məlumat alacaqlarını, öz həmyaşıdları ilə möhkəm dostluq əlaqələri yaradacaqlarını, eyni zamanda harada yaşamasından asılı olmayaraq azərbaycanlı uşaqlar və gənclərin ulu öndər Heydər Əliyevin əziz xatirəsini, milli dəyərlərimizi, milli-mədəni irsimizi və mədəniyyətimizi ləyaqətlə qoruyub saxlayacaqlarından əminliyini ifadə edib, “dəyirmi masa”nın işinə müvəffəqiyyətlər və uğurlar arzulayıb.

Tədbirdə Azərbaycan təhsili, idmanı, incəsənəti, intellektual inkişafı və mədəniyyətin müxtəlif sahələrində xüsusi töhfələr vermiş uşaq və gənclərin iştirakı ilə yanaşı Gürcüstan, Qazaxıstan, Rusiya, Moldova, Ukrayna, Almaniya, Macarıstan, Əlcəzair, İordaniya, Oman Sultanlığı, Pakistan, Şimalı Kipr Türk Respublikası, Tailand Krallığı, Türkiyə, İngiltərə, Kanada və Amerika Birləşmiş Ştatlarından 9-14 yaşlı ümumilikdə 100 məktəbli iştirak edib.

Onlayn tədbirdə iqtisadi və siyasi cəhətdən daim inkişaf edən Azərbaycanın dünyaya tanıdılması, uşaq və gənclərin vətənə, xalqa, millətə və ölkəmizə sədaqət və hörmət ruhunda tərbiyə edilməsi, milli irsimizin və müstəqilliyimizin ləyaqətlə qorunub saxlanılması haqqında sənədli film nümayiş etdirilib. Bundan əlavə, “dəyirmi masa”da yuxarıda qeyd olunan istiqamətlər üzrə nailiyyətləri olan uşaqlar çıxış edib, müzakirələr aparılıb.

# “Sən əbədi bir günəşsən, Azərbaycan!”

## Milli Qurtuluş Gününə həsr olunmuş onlayn tədbir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş “Sən əbədi bir günəşsən, Azərbaycan!” mövzusunda onlayn tədbir keçirilib.





Onlayn tədbirdə BŞTİ-nin müdiri Rəşad Tağıyev, İdarənin müvafiq struktur bölmə rəhbərləri və şagirdlər iştirak ediblər.

Tədbirin keçirilməsində əsas məqsəd məktəbliləri Milli Qurtuluş Gününün tarixi barədə məlumatlandırmaq, onlarda dövlətçilik tariximizə və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev irsinə məhəbbət, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərini aşılamaqdan ibarətdir.

BŞTİ-nin müdiri Rəşad Tağıyev tariximizə qızıl hərflərlə yazılmış 15 iyun - Milli Qurtuluş Gününün Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu vurğulayıb. Azərbaycan tarixində mühüm rol oynayan bu günün tarixi barədə ətraflı məlumat verən R.Tağıyev ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə ölkəmizdə vətəndaş müharibəsinin, dövlətçiliyin məhv olmasının və ölkənin parçalanmasının qarşısının alındığını bildirib.

İdarə müdiri ulu öndər Heydər Əliyevin digər sahələrdə olduğu kimi, təhsil sektorunda da misilsiz işlər gördüyünü, məktəb infrastrukturunun əsaslı şəkildə yeniləndiyini, dünya təhsilinə inteqrasiya yönündə əsaslı islahatlara yol açdığını, ən əsası bütün cəmiyyətdə sabaha inam, daha xoşbəxt gələcək üçün çalışmaq əzminin artmağa başladığını diqqətə çatdırıb. R.Tağıyev ulu öndərin ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu və əhəmiyyətini həmişə nəzərə aldığını, yüksək dəyərləndirdiyini də söyləyib.

Həmçinin R.Tağıyev bu tarixi günün, həm də ölkədə ənənəvi tədris ilinin başa çatması ərəfəsinə düşdüyünü vurğulayaraq məzunların hər birini  təbrik edib, onlara müstəqil Azərbaycanın layiqli vətəndaşları olmağı, bilik və zəhmətləri sayəsində nailiyyətlərini daha da artırmağı arzulayıb.

Onlayn tədbir paytaxt məktəblilərinin və Uşaq-Gənclər İnkişaf mərkəzlərinin dərnək üzvlərinin ifasında musiqi və idman nömrələri, ədəbi-bədii kompozisiyalar və rəqslərlə davam edib. Çıxış edən məktəblilər ulu öndərin həyat və fəaliyyətindən bəhs edib, ölkəmizin bugünkü uğurlarının onun adı ilə bağlı olduğunu söyləyiblər.

# “Heydər Əliyev və Azərbaycanda intellektual potensialın inkişaf dinamikası”

## ADPU-da Respublika elmi konfransı

Azərbaycan Respublikası Təhsil nazirinin müvafiq əmrinə əsasən Azərbaycan Dövlət Pedaqoji Universitetində videokonfrans formatında “Heydər Əliyev və Azərbaycanda intellektual potensialın inkişaf dinamikası” Respublika elmi konfransı keçirilib. Videokonfransda 100-dən çox mütəxəssis iştirak edib.

Konfransı giriş sözü ilə ADPU-nun rektoru, Təşkilat Komitəsinin sədri professor Cəfər Cəfərov açaraq konfransın əhəmiyyətini vurğulayıb. Ulu öndərin ölkənin müstəqilliyi, iqtisadi tərəqqisi və inkişafı istiqamətində gördüyü işlərdən bəhs edib. Qeyd olunub ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artırmış, hərtərəfli inkişafına nail olmuş, müstəqilliyini əbədi və dönməz etmişdir. Ulu öndərin balanslaşdırılmış uğurlu siyasəti sayəsində Azərbaycan dünyada tanınmış nüfuzlu bir dövlətə çevrilmişdir.

ADPU-nun  elm və innovasiyalar üzrə prorektoru, Təşkilat Komitəsinin sədr müavini professor Asəf Zamanov “Heydər Əliyev və Azərbaycan elmi” mövzusunda məruzə ilə çıxış edib. Ulu öndərin elmin inkişafı istiqamətində yorulmaz fəaliyyətindən bəhs edən A.Zamanov vurğulayıb ki, elmin strateji əhəmiyyətini düzgün qiymətləndirən Ümummilli Liderin elm və texnologiya sahəsinin inkişafına xüsusi diqqəti nəticəsində Azərbaycanda riyaziyyat, kibernetika, fizika, kosmik tədqiqatlar, kimya, biologiya, tibb, geologiya, həmçinin humanitar elmlər sahəsində bir sıra mühüm nailiyyətlərə imza atılmışdır. Ali təhsil müəssisələrində təhsil alan istedadlı gənclərin elmə, elmi və elmi-pedaqoji fəaliyyətə cəlb edilməsi üçün mühit, doktorantların (aspirantların) elmi tədqiqatlar aparması məqsədilə Azərbaycan Elmlər Akademiyası institutlarında, elm-sənaye birliklərində iş yerləri yaradıldı. Elmlər namizədləri və elmlər doktorlarının sayı 1982-ci ildə 1969-cu ilə nisbətən 1.7 dəfə artdı. Ən yeni elm sahələri üzrə elmlər doktorları hazırlandı ki, bu da həmin sahələrdə elmi məktəblərin formalaşmasının əsası oldu. SSRİ EA-nın prezidenti akademik M. Keldışın 1972-ci ildə Azərbaycana səfəri və respublika rəhbəri Heydər Əliyevlə görüşü Azərbaycan  EA-nın inkişafına əhəmiyyətli təsir göstərdi. Həmin illərdə Azərbaycanda yeni ali məktəblərin, həmçinin fakültələrin və elmi-tədqiqat institutlarının yaradılması, hər il 1000-dən çox gəncin təhsil almaq üçün SSRİ-nin aparıcı ali məktəblərinə göndərilməsi respublikamızda elmin sürətli inkişafı ilə nəticələndi.

Müstəqillik dövründə bu siyasət uğurla davam etdirildi. Ali məktəblərin şəbəkəsinin genişləndirilməsi, həmçinin özəl ali məktəblərin yaradılması ölkəmizdə intellektual potensialın inkişafına müsbət təsirini göstərdi. Azərbaycanın kosmik ölkələr sırasına daxil olması, regionda söz sahibi olan ölkəyə çevrilməsi, istedadlı gənclərin dövlət proqramları əsasında dünyanın aparıcı elm və təhsil mərkəzlərində təhsil alması, elmi-tədqiqat işləri aparması həmin siyasətin bu gün də ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin göstəricisidir.

Konfransda professor Mahirə Hüseynova “Azərbaycan dilçiliyinin inkişafında Heydər Əliyevin rolu”,  professor Fərrux Rüstəmov “Heydər Əliyev və pedaqoji kadr hazırlığı”, dosent Yasin Qaraməmmədli “Heydər Əliyev və Azərbaycançılıq ideologiyası” mövzularında məruzə ilə çıxış ediblər.

Rektor, professor Cəfər Cəfərov konfransın yüksək səviyyədə təşkilinə görə Təşkilat Komitəsinə, həmçinin məruzəçilərə təşəkkür edib, iştirakçılara uğurlar arzulayıb.

Ümumi təhsil sahəsində artıq bir neçə ildir ki, müasir dövrün çağırışlarına əsaslanan inkişafı şərtləndirən dəyişikliklər gedir. Dəyişikliyin başında isə Bakı məktəbləridir. Ona görə "başında Bakı məktəbləridir"- deyirik ki, hər bir ilki məhz Bakı məktəblərində axtarmağa alışmışıq. Başa çatan 2019-2020-ci tədris ilində də Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki təhsil müəssisələrində ilk olan, dəyişən, yenilənən və ya sadəcə inkişaf edən çox iş var. Təhsilin keyfiyyətinin yüksəldilməsi, təhsil müəssisələrinin fəaliyyətinin müasir tələblər səviyyəsinə çatdırılması və tədris ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işləri özündə əks etdirən rəqəmlər növbəti tədris ili üçün böyük ümidlər vəd edir.



# İlklərə imza atan paytaxt məktəbləri

## Bakı təhsili 2019-2020-ci tədris ilində

Ruhiyyə DAŞSALAHLI

### Elektron xidmətlərin sayı artır

Pandemiyanın insanlar arasına məsafə qoyması elektron xidmətlərin əhəmiyyətini qat-qat artırıb. Təhsil sistemində tətbiq edilən bir çox elektron xidmətlərin ilk icraçısı Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) və onun tabeliyində fəaliyyət göstərən təhsil müəssisələri olduğunu nəzərə alsaq, bu dövrdə Bakı məktəblilərinin ciddi çətinliklə qarşılaşmamasının səbəbi aydın olur. Məsələn, Bakı şəhərində tətbiq olunan məktəbəhazırlıq qruplarına elektron qeydiyyat təcrübəsi genişləndirilərək, 2019-2020-ci dərs ilindən bütün ölkəni əhatə edib. Bu tədris ilində məhz bu yolla məktəbini, müəllimini, bir sözlə, oxumağı seçən 25832 azyaşlı məktəbli BŞTİ-nin tabeliyindəki 268 ümumi təhsil müəssisəsində 983 məktəbəhazırlıq qrupunda həftədə 4 gün məşğələlərə cəlb olunub.

2019-cu ildən etibarən ümumi təhsil müəssisələrində şagird yerdəyişməsi prosesi də elektron sistem vasitəsilə həyata keçirilib. Təhsil Nazirliyinin vətəndaşlar üçün təmin etdiyi bu imkandan 2019-2020-ci tədris ili ərzində 23589 şagird yararlanıb.

Elektron xidmət təcrübəsinin ilk tətbiq edildiyi I sinfə qəbul prosesi isə hər il həyata keçirilən müxtəlif yeniliklərlə təkmilləşdirilir. BŞTİ-nin tabeliyində olan ümumi təhsil müəssisələrinə və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki lisey və gimnaziyaların I siniflərinə qəbul olmaq üçün elektron sistem vasitəsilə 43395 müraciət edilib. Bu il ilk dəfə olaraq 2020-2021-ci tədris ili üçün ümumi təhsil məktəblərinin I siniflərinə şagird qəbulu zamanı əvvəlcə elektron sistemdə qeydiyyat, daha sonra isə məktəb seçimi prosesi aktivləşdirilib. Bu yolla müəyyən səbəblərdən elektron sistemdən istifadə etməkdə çətinlik çəkən valideynlərin qeydiyyat prosesini bitirmək üçün əlavə vaxt qazanması və digər valideynlərlə eyni anda məktəb seçimi mərhələsində iştirak edə bilməsi təmin olunub.

Daha bir ilk. Ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə məktəbəhazırlıq qruplarına cəlb edilən uşaqlar da I sinfə qəbul zamanı şifahi nitq bacarıqlarının qiymətləndirilməsi müsahibələrində iştirak ediblər. Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar valideynlərə müsahibənin formasını seçmək imkanı yaradılıb. Məhz valideynin istəyindən asılı olaraq onlayn və ya ənənəvi (canlı) formada müsahibələr təşkil olunub. Müsahibə nəticəsi məqbul hesab edilən uşaqlar üçün növbəti tədris ili üzrə I sinfə elektron sistemdə avtomatik sorğu yerləşdirilib. Müsahibə nəticəsi məqbul hesab edilməyən uşaqlar üçün isə Azərbaycan bölməsi üzrə məktəb seçimi imkanı yaradılıb.

Ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə I sinfə müraciət edən və məktəbəhazırlıq qruplarına cəlb edilməmiş uşaqların da I sinfə qəbulu məqsədilə şifahi nitq bacarıqlarını qiymətləndirən müsahibələr təşkil edilib. Valideynlərə ənənəvi (canlı) və ya onlayn müsahibə formalarını seçmək imkanı verilib. Ancaq mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar valideynlərə daha çox onlayn müsahibələrə üstünlük verilməsi tövsiyə edilib.

Xatırladaq ki, onlayn müsahibə prosesi "Microsoft Teams *http://teams.microsoft.com/-downloads* platforması vasitəsilə valideynlə videobağlantı yaratmaqla, Komissiya üzvlərinin uşaqla ünsiyyəti şəklində həyata keçirilib.

### Alternativ qeydiyyat mərkəzlərində yeni iş prinsipi

Hazırda da davam edən tibbi-profilaktik vəziyyət sadəcə müsahibələrin təşkilində deyil, elə ümumi təhsil müəssisələrinin I siniflərinə elektron qeydiyyat prosesində də nəzərə alınıb. Belə ki, valideynlərin əlavə vaxt itkisinin qarşısını almağa, növbəliliyi aradan qaldırmağa, mövcud vəziyyətlə əlaqədar müvafiq normaları qorumağa xidmət edən yeniliyə əl atılıb. Valideynlərə kömək məqsədilə fəaliyyət göstərən Alternativ qeydiyyat mərkəzlərinin iş prinsipi dəyişdirilib. Bu dəyişiklikdən sonra özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan valideyn və ya qanuni nümayəndələrin Alternativ qeydiyyat mərkəzlərinə gəlməsinə ehtiyac qalmır. Elektron qeydiyyatdan keçə bilməyən valideynlər "Whatsapp" nömrələr (+994 55 892-27-51, +994 55 892-95-89, +994 55 892-63-90) vasitəsilə müvafiq məlumatları iş günləri ərzində saat 10:00-dan 16:00-dək işçi qrupa təqdim edə bilərlər. İşçi qrup tərəfindən müvafiq məlumatlar əsasında özü elektron qeydiyyatdan keçə bilməyən valideynlərə bu yolla zəruri köməklik göstərilir.

### Təhsildə keyfiyyət

Heç kimə sirr deyil ki, təhsil sistemində atılan hər addım keyfiyyətin artırılmasına xidmət edir. Belə addımlardan biri də ümumi təhsilin tam orta təhsil səviyyəsində təmayülləşməsidir. Ötən tədris ilində BŞTİ-nin tabeliyindəki 163 məktəbdə 358 təmayül sinif təşkil olunaraq bu istiqamətdə aparılan işin miqyası genişləndirilib.

Təmayülləşmə Təhsil Nazirliyi ilə BP şirkətinin əməkdaşlığı çərçivəsində də reallaşdırılır. Belə ki, "İnformatika fənninin tədrisinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində paytaxtın 26 ümumi təhsil məktəbində informatika təmayüllü siniflər fəaliyyət göstərir.

Peşə təhsilinə cəmiyyətdə ildən-ilə artan tələbat təmayülləşmədə də nəzərə alınıb. BŞTİ-nin tabeliyindəki 5 ümumi təhsil müəssisəsində peşə təmayüllü siniflər yaradılıb. 117, 120, 234, 274, 293 nömrəli tam orta məktəblərdə fəaliyyət göstərən peşə təmayüllü siniflər ümumi təhsil bazasında təhsilalanların müxtəlif peşələr üzrə ilkin bilik və bacarıqlara yiyələnməsini təmin, peşə ixtisasları barədə məlumatlandırılmaqla şagirdlərin əmək bazarına, eləcə də peşə təhsilinə hazırlanmasına xidmət edəcək.

### Paytaxt təhsilinin keyfiyyət göstəriciləri: şagirdlər kimi müəllimlər də qiymətləndirilir

Təhsildə keyfiyyətin artmasına xidmət edən addımların nəticələrinin ölçülməsi onların özü qədər önəmlidir. Ona görə də, bu istiqamətdə mütəmadi təhlillər aparılır. Üstəlik, sadəcə buraxılış sinifləri deyil, ibtidai siniflərdə də qiymətləndirmələrin nəticələri təhlil predmetinə çevrilib. Belə ki, BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin 2019-2020-ci tədris ili üzrə IX sinif şagirdlərinin buraxılış imtahanının I mərhələsi və I Böyük Summativ Qiymətləndirmənin, eləcə də paytaxt məktəblərinin IV siniflərində təhsil alan şagirdlərin 2019-2020-ci tədris ili üçün I Böyük Summativ Qiymətləndirmə nəticələri də təhlil edilib. Şagirdlərin göstərdikləri nəticələr əsasında hesabatlar hazırlanaraq ümumi təhsil məktəblərinə göndərilib. BŞTİ-də hesab edirlər ki, tədrisin keyfiyyətinin yaxşılaşdırılması və davamlı inkişafın təmin edilməsinə xidmət edən bu nəticələr baza qiymətləri kimi götürülərək, növbəti illərdə şagirdlərin fərdi inkişaf dinamikasını izləməyə imkan verəcək.

Belə qiymətləndirmələr və onların nəticələrinin təhlili Təhsil Nazirliyi tərəfindən də aparılıb. Paytaxt məktəblərində təhsil alan 58674 nəfər V və IX sinif şagirdi üçün Diaqnostik Qiymətləndirmə keçirilib. Bu qiymətləndirmədə V siniflər üzrə 28830, IX siniflər üzrə 29844 məktəbli iştirak edib. Hər imtahan fənni üzrə şagirdlərin göstərdikləri nəticələr təhlil edilib, hesabatlar hazırlanaraq ümumi təhsil məktəblərinə göndərilib.

Daha bir qiymətləndirmə isə ibtidai sinif müəllimlərinin işinin nəticəsini ölçmək üçün aparılıb. Özü də sadəcə müəllimlərin işinin qiymətləndirilməsi deyil, eləcə də zəif göstəricilərə malik şagirdlərin təlim nailiyyətlərinin yaxşılaşdırılması üçün davamlı tədbirlərin görülməsinə xidmət edən monitorinq keçirilib. Bakı şəhəri üzrə 218 məktəbdən 28830 şagirdin cəlb olunduğu həmin monitorinqlərin nəticələri elə ümumi təhsil müəssisələrinin rəhbərləri ilə birlikdə təhlil edilib.

Söz müəllimdən düşmüşkən qeyd edək ki, BŞTİ-nin tabeliyindəki bütün məktəblərdə təhsil alan 440426 şagirdin təlim-tərbiyəsi ilə 27786 müəllim məşğul olub. Həmin müəllimlərin orta aylıq əmək haqqı 2019-2020-ci tədris ili üçün 688 manat təşkil edib. Bakı məktəblərində yüksək əmək haqqı və stimullaşdırıcı tədbirlərin nəticəsidir ki, hər il minlərlə namizəd məhz həmin təhsil müəssisələrində çalışmaq üçün müəllimlərin işə qəbulu üzrə müsabiqəyə baş vurur. Təkcə ötən il Təhsil Nazirliyi tərəfindən keçirilən müsabiqə və müsahibələr nəticəsində 993 nəfər daimi əsaslarla, 1273 nəfər müddətli müqavilə ilə işə qəbul edilib. Müddətli müqavilə 1004 nəfər çalışmanın yaş həddinə çatmış müəllimlə də bağlanılıb. Amma belə görünür ki, Bakı məktəblərində mindən artıq müəllimə hələ də ehtiyac duyulur. Belə ki, Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsinə BŞTİ tərəfindən 2019-2020-ci dərs ili üçün 1442 vakansiya təqdim olunub.

Stimullaşdırıcı tədbirlərə gəlincə, 2019-2020-ci tədris ilində Bakıda 288 təhsil işçisi təltif edilib. Ölkə Prezidentinin sərəncamlarına əsasən, paytaxtdakı ümumi təhsil müəssisələrində çalışan 8 müəllim "Tərəqqi" medalı ilə təltif edilib, 14 müəllimə "Əməkdar müəllim" fəxri adı verilib. Gənc nəslin təlim-tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiklərinə görə Bakı məktəblərində fəaliyyət göstərən 16 müəllim "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, 20 müəllim "Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanı" ilə təltif olunub. İl ərzində 364 nəfərin müxtəlif vəzifələrə işə qəbulu həyata keçirilib.

2019-2020-ci tədris ili ərzində BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinə 18 nəfər direktor vəzifəsinə işə qəbul edilib. Vəzifəyə çəkilənlər arasında etimadı doğruldanlar da olub, əksinə doğrultmayanlar da. Özünü doğrultmayan 4 direktorla bağlanmış əmək müqaviləsi ləğv edilib. 2 xüsusi təhsil məktəbinin fəaliyyəti dayandırılıb.

Müəllimlərin və məktəbin fəaliyyəti, sadəcə tədris prosesinin təşkili ilə ölçülmür. Onların müxtəlif mövzuları əhatə edən fikir və ideyaları Təhsil Nazirliyi tərəfindən dəstəklənir. Məsələn, paytaxt üzrə 36 layihə Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsində qalib olub. BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrindən 39, 58, 84, 129, 145, 150, 155, 177, 212, 214, 216, 232 nömrəli tam orta məktəblərə və 147 nömrəli Texniki-Humanitar Liseyə məxsus layihələr ümumi təhsil müəssisələri kateqoriyası üzrə qaliblər sırasında yer alıb. BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan müəllimlər tərəfindən 23 layihə isə fərdi kateqoriya üzrə qalib gəlib. Bakı məktəbləri və bu tədris ocaqlarında çalışan müəllimlər hazırda qeydiyyatı yekunlaşan IV qrant müsabiqəsinə də qoşulub.

"Təhsildə keyfiyyət müəllimdən başlayır" prinsipinə sadiq qalan BŞTİ müəllimlərin mütəmadi olaraq təkmilləşmə tədbirlərinə cəlb olunmasını təmin edir. Məsələn, ümumi təhsil müəssisələrinin müəllimləri üçün innovasiyalar və yeni texnologiyaların tədrisdə tətbiqi üzrə stajkeçmə xidməti keçirilib. Stajkeçmə xidmətinə BŞTİ-nin tabeliyindəki 36 ümumi təhsil müəssisəsindən 536 müəllim qatılıb.

Başqa bir nümunə. İctimaiyyətə də məlum olduğu kimi, BŞTİ və Britaniya Şurasının (British Council) birgə əməkdaşlığı çərçivəsində 4 ümumi təhsil məktəbində İngilis dili resurs mərkəzləri fəaliyyət göstərir. Mərkəzlərin fəaliyyəti çərçivəsində Britaniya Şurası (British Council) təlimçilərinin moderatorluğu ilə 4 günlük Müəllimlərin Fəaliyyət Qrupları ("Teacher Activity Groups") və 2 günlük Debat, Əlaqə, Dialoq ("Debate, Negotitation, Dialogue") mövzularında təkmilləşdirmə təlimləri keçirilib.

Ümumiyyətlə, Britaniya Şurası (British Council) ilə birgə uğurlu layihələr mütəmadi olaraq keçirilir. Təhsil Nazirliyi ilə birgə həyata keçirilən "Uğur üçün tədris" layihəsinə 2019-2020-ci tədris ilində Bakı şəhəri üzrə 74 ümumi təhsil məktəbi cəlb olunub. Layihə çərçivəsində 370 ingilis dili müəllimi üçün "Dil təkmilləşdirmə" təlimləri keçirilib.

### Bakı məktəblərindən başlayan layihələr

Təhsil Nazirliyinin uğurlu layihələri bir neçə istiqamət ilə məhdudlaşmır. İcrasından qısa müddət sonra nüfuz qazanan və ildən-ilə əhatə dairəsini genişləndirən maraqlı layihələr çoxdur. Elə götürək Bakı şəhərində əhatə etdiyi məktəblərin sayı artıq 64-ə çatan "Məktəblinin dostu" layihəsini. 58-i BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisəsi, 2 gimnaziya, 2 internat, 2 idman məktəbində 300 əməkdaşla fəaliyyət göstərən "Məktəblinin dostu" həm də şagirdlərin asudə vaxtının səmərəli təşkili məqsədi ilə həyata keçirdikləri maraqlı tədbirləri ilə də məşhurdur. "Məktəblinin dostu" hazırkı vəziyyətlə əlaqədar bir sıra məktəblilərarası yarışların onlayn təşkilinə nail olmaqla bu missiyasını fəal şəkildə davam etdirir.

Paytaxtın 75 ümumi təhsil məktəbi isə Təhsil Nazirliyi ilə Alqoritmika MMC-nin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən "Rəqəmsal bacarıqlar" layihəsinə qoşulub. Layihə çərçivəsində 205 informatika müəlliminin iştirakı ilə "İnformatika müəllimlərinin metodiki biliklərinin və texniki bacarıqlarının təkmilləşdirilməsi" mövzusunda 36 akademik saatlıq ixtisasartırma təlimi keçirilib.

Məktəbin məqsədi, sadəcə mənəvi cəhətdən sağlam insanlar yetişdirmək deyil, gələcək nəslin fiziki sağlamlığını da qorumaqdır. Odur ki, paytaxtdakı ümumi təhsil müəssisələrində bu məqsədə xidmət edən "Sağlam təhsil-sağlam millət" layihəsinin tətbiqi genişləndirilib. Təhsil Nazirliyi tərəfindən həyata keçirilən layihə çərçivəsində paytaxtdakı 39 ümumi təhsil müəssisəsində "Sağlam təhsil" siniflərinin sayı 170-ə çatdırılıb. Ötən tədris ilində 20 məktəbdə 26 "Sağlam təhsil" məktəbəhazırlıq qrupu fəaliyyət göstərib.

Təhsilin keyfiyyəti qədər əlçatanlığı da önəmlidir. Məktəb yaşlı şəxsin təhsil almasına heç bir səbəb, o cümlədən sağlamlığının yaratdığı hər hansı məhdudiyyət mane ola bilməz. Bu məqsədlə ilk addımlar da məhz Bakı məktəblərində atılıb. Bakı şəhəri üzrə 4 ümumi təhsil müəssisəsində 60 şagird inklüziv təhsilə cəlb edilib. Həmçinin "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"na əsasən, məqsədyönlü işlər görülüb, bu sahədə müəllimlərin üzərinə düşən vəzifələr müəyyənləşdirilib.

Ötən dərs ilinin ən uğurlu, ən çox səs gətirən layihəsi isə STEAM olub. Təhsil Nazirliyinin "Ümumtəhsil məktəblərində STEAM layihəsinin tətbiq edilməsi" barədə əmrinə əsasən, 32 ümumi təhsil məktəbində layihənin tətbiqinə başlanılıb. Həmçinin layihə çərçivəsində müəllimlər üçün təkmilləşdirmə təlimləri keçirilib.

Şagirdlərdə ətraf mühitə doğru yanaşma formalaşdıran, onlarda təbiətə sevgi aşılayan daha bir layihə "Eko-təqdimatlar" olub. Bu layihə çərçivəsində BŞTİ-nin tabeliyindəki 20 ümumi təhsil məktəbində şagirdlər müxtəlif ekoloji mövzularda təqdimatlar hazırlayıblar.

Paytaxtın ümumi təhsil müəssisələrində "Valideynin məktəbdə bir günü" layihəsi valideyn-məktəb əlaqələrinin möhkəmlənməsində müstəsna əhəmiyyətə malikdir. Ötən il ərzində bu layihə sayəsində valideynlər məktəb mühiti ilə daha yaxından tanış olublar.

Ötən dərs ilində BŞTİ tərəfindən "Könüllülər ili" ilə bağlı yeni layihə elan olunub. "Könüllülükdən peşəkarlığa" adlanan layihə tələbə və məzun gənclərə bilik və bacarıqlarını artırmaq, təhsil sahəsində təcrübə toplamaq imkanı verir. Layihənin gənclərdə kollektivlə işləmək bacarıqlarını inkişaf etdirəcəyi, öz ixtisaslarına uyğun kadr kimi formalaşmaq istəyən şəxslərə uğurlu karyera qurmaq imkanı yaradacağı, onların elmi fəaliyyət və keyfiyyət göstəricilərini yüksəldəcəyi, peşəkar kimi formalaşmasına dəstək verəcəyi düşünülür.

### Müsabiqələr və olimpiadalar

Müsabiqələr şagirdlərin ayrı-ayrı bacarıqlarını inkişaf etdirir, onlarda mübarizə əzmi, rəqabət qabiliyyəti formalaşdırır. Odur ki, Bakı məktəbliləri tez-tez müxtəlif müsabiqələrə, olimpiadalara, bilik yarışlarına cəlb edilir.

Ölkəmizin ən nüfuzlu bilik yarışlarından olan Respublika Fənn Olimpiadalarında da ən çox mükafatlandırılanlar onlardır. IX, X və XI sinif şagirdlərinin iştirakı ilə keçirilən Respublika Fənn Olimpiadalarının şəhər mərhələsində 7000-ə yaxın, yarımfinal turunda isə 1810 Bakı məktəblisi iştirak edib. Olimpiadanın final mərhələsinin nəticələri ən qısa zamanda elan ediləcək.

Şagirdlərin tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək, gələcəkdə "Kiçik Akademiya"larda, intellektual klublarda təmsil olunmalarını təmin etmək, məruzə ilə çıxış etmək vərdişlərinin formalaşdırılmasına əlverişli şərait yaratmaq məqsədi ilə "Kiçik tədqiqatçılar" müsabiqəsi paytaxt məktəblərinin II-IV sinif şagirdləri arasında keçirilir.

⇨Ardı səh.8

## İkili diplom proqramı - “Təhsil” ixtisası üzrə magistraturada oxumaq üçün növbəti sənəd qəbulu

Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universitetinin birgə ikili diplom proqramına əsasən, “Təhsil” ixtisası üzrə magistraturada oxumaq üçün növbəti sənəd qəbulu elan edilir. “2019—2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində həyata keçirilən Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) və Corc Vaşinqton Universitetinin magistratura səviyyəsi üzrə birgə ikili diplom proqramına müraciət etmək üçün Dövlət İmtahan Mərkəzi tərəfindən ayrıca imtahan keçiriləcək.

2020-ci ilin ayı ərzində keçirilməsi nəzərdə tutulan imtahanda bakalavriat səviyyəsinin “Təhsil”, “Humanitar və sosial”, “İqtisadiyyat və idarəetmə” və “Təbiət” ixtisasları qruplarında yer alan ixtisaslardan birini bitirən və 2020-ci il fevralın 23-də keçirilən magistraturaya qəbul imtahanında iştirak etməyən cari və əvvəlki illərin məzunları iştirak edə bilərlər. Qeyd olunan ixtisas qrupları üzrə müsabiqə şərtləri ilə buradan *(www.dim.gov.az/upload/iblock/722/722427deb079a797a09f002d9ae32175.pdf)* tanış ola bilərsiniz.

2020-ci il fevralın 23-də keçirilən magistraturaya qəbul imtahanında iştirak edərək müsabiqə şərtlərini ödəyən, lakin daha əvvəl sözügedən proqrama ADPU tərəfindən aparılan sənəd qəbulunda iştirak etməyənlər də proqrama müraciət edə bilərlər.

İkili diplom proqramında təhsil almaq istəyən namizədlərin müraciətlərinin qəbulu ADPU tərəfindən 20 iyul 2020-ci il tarixinədək davam etdiriləcək.

Müvafiq elanla keçiddən tanış ola bilərsiniz *(www.dp.edu.az/uploads/fileuploads/2020/06/f4cea62d07664109a4ec43d66774aec6.pdf)*.

## Vətəndaşların qəbulu iyulun 1-dək dayandırılıb

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə müvafiq qərara uyğun olaraq, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il iyulun 1-dək fəaliyyətini dayandırıb.

Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq. Vətəndaşlar həmçinin Nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına müraciət edə və elektron resurslarında *(www.edu.gov.az; www.ict.edu-.az)* təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.

Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı *(www.edu.gov.az)* və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.

## Peşə təhsili üzrə əməkdaşlıq çərçivəsində videokonfrans

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi və Türkiyənin Milli Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində onlayn görüş təşkil edilib.

Təhsil Nazirliyi, Türkiyə Respublikası Xarici İşlər Nazirliyi, Texniki və Peşə Təhsili İdarəsi, bir sıra peşə təhsili müəssisələrinin nümayəndələri videokonfrans formatında təşkil edilən görüşə qatılıblar.

Görüş zamanı peşə təhsili sahəsində iki ölkə arasında hazırkı əməkdaşlıq vəziyyəti, qarşılıqlı yüksək səviyyəli səfərlərin əməkdaşlığa töhfəsi, ötən ilin oktyabr ayında Türkiyə Respublikası Milli Təhsil nazirinin ölkəmizə səfəri zamanı ölkə rəhbərliyi tərəfindən qəbul edilməsi məsələlərinə toxunulub. Görüşün əsas mövzusu iki ölkənin təhsil nazirlikləri arasında peşə təhsili sahəsində əməkdaşlığa dair anlaşma memorandumunun imzalanmasından ibarət olub. Tərəflər peşə təhsilinin inkişafı ilə bağlı birgə layihələrin reallaşdırılması imkanlarını vurğulayıb və perspektivlərini müzakirə ediblər.

## Tvinninq layihəsinin İdarəetmə Komitəsinin 8-ci iclası

“Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək” adlı Tvinninq layihəsi çərçivəsində İdarəetmə Komitəsinin 8-cı iclası keçirilib.

Onlayn keçirilən iclasa Avropa İttifaqı tərəfindən layihəni icra edən təşkilatları təmsil edən layihə rəhbərləri ilə yanaşı, Təhsil Nazirliyi və İqtisadiyyat Nazirliyinin nümayəndələri, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, eləcə də Avropa İttifaqının Bakı Nümayəndəliyinin əməkdaşı qoşulub.

Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev çıxış edərək Fransa, Litva və Latviyadan olan layihə rəhbərlərini, həmçinin digər iclas iştirakçılarını salamladıqdan sonra layihənin 8-ci rübü ərzində görülmüş işlər barədə qısa məlumat verib. Yaqub Piriyev layihənin başlıca nailiyyətlərindən birinin kompetensiya əsaslı təhsil proqramlarının çərçivə sənədinin işlənib hazırlanması olduğunu nəzərə çatdırıb və faydalılığı barədə danışıb.

Daha sonra Azərbaycan üzrə layihə rəhbəri, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov çıxış edərək bildirib ki, karantin rejiminin elan olunmasına baxmayaraq, Tvinninq layihəsi fəaliyyətini davam etdirib, bir sıra sənədlər üzərində iş aparılıb.

Sonra layihənin Rezident Tvinninq Müşaviri Liza Bıdanova 8-ci rüb üzrə layihənin icrası istiqamətində aparılan işləri iştirakçıların diqqətinə çatdırıb.

Yekunda layihənin komponent rəhbərləri son rüb ərzində öz komponentləri çərçivəsində görülən işlər barədə qısa məlumat veriblər.

# İlklərə imza atan paytaxt məktəbləri





⇦ Əvvəli səh.7

Həmçinin paytaxt məktəblərinin “Kiçik Akademiya” üzvü olan VIII-X sinif şagirdləri arasında tədqiqatçılıq müsabiqəsi təşkil olunub.

Haşiyə çıxaraq qeyd edək ki, hazırda BŞTİ-nin tabeliyindəki 285 ümumi təhsil məktəbində “Kiçik Akademiya” fəaliyyət göstərir. 22 məktəbdə isə “Kiçik Akademiya” yaradılması üçün hazırlıq işlərinə başlanılıb.

Qeyd edək ki, ulu öndərin həyatı, fəaliyyəti Bakı məktəbliləri üçün maraqlı mövzulardandır. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə “Ən yaxşı təqdimat” müsabiqəsinin ölkə məktəbliləri arasında böyük nüfuzu var. BŞTİ-nin təşkilatçılığı ilə paytaxtdakı ümumi təhsil məktəblərində “Heydər Əliyev irsinin öyrənilməsi” mövzusunda dərslər keçirilib, məktəblilərin əl işlərindən ibarət virtual sərgi təşkil edilib.

Bakı məktəbliləri arasında “Ədəbiyyat biliciləri” də az deyil. Müsabiqənin ölkə mərhələsində BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərini təmsil edən 7 şagird iştirak edəcək.

Ədəbiyyatı sevən məktəblilər üçün böyük şair İmadəddin Nəsimi də ən çox müraciət edilən mövzu olub. BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrində “Nəsimi ili” çərçivəsində keçirilən silsilə tədbirlər, ədəbi-bədii gecələr, müsabiqələr, disput, “dəyirmi masa” və konfranslar məktəblilərin Nəsimi ilə bağlı nəinki biliyini artırıb, yaradıcı qabiliyyətlərini də inkişaf etdirib. Paytaxtın ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında “Azərbaycan ədəbiyyatında İmadəddin Nəsimi irsi” adlı təqdimat müsabiqəsində 247 məktəbdən 741 şagird 10 tədqiqat mövzusu üzrə təqdimatlarını nümayiş etdirib.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin 17 şagirdi isə “Sabahın alimləri” IX Respublika müsabiqəsinin qalibi olub. Müsabiqədə ümumilikdə 54 layihə qalib seçilib. Qalib layihələrdən 38-i Bakını əhatə edib. Paytaxt məktəblilərindən 2-si I yerə, 7-si II yerə, 8-i isə III yerə layiq görülüb. “Sabahın alimləri” IX Respublika müsabiqəsinin nəticələrinə əsasən, BŞTİ-nin tabeliyindəki 7 nömrəli tam orta məktəbin şagirdləri Emil Rüstəmli və Ağabagir Əliyev, 175 nömrəli tam orta məktəbin şagirdi Nigar Alşanova ABŞ-ın Finiks şəhərində keçiriləcək Intel ISEF-Beynəlxalq Elm və Mühəndislik Sərgisində Azərbaycanı təmsil etmək hüququ qazanıblar.

Bakı məktəblilərinin beynəlxalq arenada artıq qazanılmış uğurları da çoxdur. Virtual şəkildə təşkil olunan IX Beynəlxalq Avropa Qızlar Riyaziyyat Olimpiadasında (EGMO) qazandığımız 3 medalın sahibi məhz Bakı məktəbliləridir. Sözügedən elm yarışında ölkəmizi təmsil edən Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin XI sinif şagirdi Zəhra Bayramlı, Humanitar fənlər təmayüllü məktəb-liseyin X sinif şagirdi Aysun Bayramlı və Bakı şəhəri 257 nömrəli tam orta məktəbin VIII sinif şagirdi Fidan Qarayeva uğurla çıxış edərək bürünc medal əldə ediblər.

Paytaxt məktəblisi Aydın Süleymanlı isə beynəlxalq şahmat festivalının qalibi olub. Belə ki, 249 nömrəli tam orta məktəbin şagirdi olan şahmatçımız Moskvada keçirilən “Aeroflot open” şahmat festivalının güclü A turnirində 9 turdan 6.5 xal toplayaraq növbəti parlaq qələbəyə imza atıb.

177 nömrəli tam orta məktəbin şagirdi Leyla Məmmədzadə və 16 nömrəli Texniki-Humanitar Liseyin şagirdi Əli Bağırov Sankt-Peterburq şəhərində keçirilən “Özündə alimi kəşf et” VI Ümumrusiya elmi-innovasiya konfransında uğurla iştirak edərək III dərəcəli diploma layiq görülüblər.

Paytaxtın ümumi təhsil müəssisələrinin şagirdləri arasında keçirilən “Gəlin tanış olaq!” müsabiqəsi VIII-X sinif şagirdlərini əhatə edib. Müsabiqə çərçivəsində məktəblilər yaşadıqları ərazinin maddi-mənəvi irsi, dəyərləri, etnoqrafiyası, tarixi, mədəniyyət abidələri, elm xadimləri, görkəmli şəxsləri barədə araşdırma aparıb və videoçarxlar hazırlayıblar.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələri arasında “Ən yaxşı məktəb saytı” müsabiqəsi də uğurlu olub. Paytaxtın hər bir inzibati rayonu üzrə qalib gələn məktəblər İdarə tərəfindən diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Paytaxt məktəblərinin tərbiyə işləri üzrə direktor müavinləri (təşkilatçı) və ümumi təhsil məktəblərinin saytlarını idarə edən şəxslərə təlimlər keçirilib.

### Eksternat imtahanlarının qazananları

Ümumi təhsilin hər hansı səviyyəsini vaxtından əvvəl bitirmək istəyən istedadlı şagirdlər az deyil. Bu il onlar üçün keçirilən eksternat qaydasında imtahanlarda şagirdlərin hazırda təhsil aldıqları sinfin II, növbəti sinfin I yarımili üzrə fənn proqramlarını mənimsəmə səviyyələri, psixoloji dayanıqlıqları, yaradıcı potensialları, ümumi dünyagörüşü səviyyələri yoxlanılıb və ibtidai təhsil səviyyəsi üzrə üç şagird müvəffəqiyyət qazanıb.

Eksternat imtahanları həm də əvvəlki illərdə təhsilini başa vura bilməyənlər üçün təşkil edilib. Müxtəlif səbəblərdən əvvəlki illərdə ümumi orta (IX) və tam orta (XI) təhsil səviyyələrini başa vura bilməyən şəxslər üçün 2019-2020-ci tədris ilində təşkil edilən eksternat imtahanlarında ümumilikdə 752 nəfər iştirak edib. Onlardan 457 nəfəri imtahanın nəticələrinə görə müvəffəq olub.

### İdmançı, yaradıcı Bakı məktəbliləri

Bakı məktəbləri məktəbdənkənar fəaliyyətdə də adına böyük uğurlar yazdırıb. Məsələn, paytaxt məktəbliləri idmanın müxtəlif növləri üzrə beynəlxalq və respublika yarışlarında 365 qızıl, 308 gümüş, 320 bürünc olmaqla ümumilikdə, 993 medal əldə edib, “Olimpiya Hərəkatı” layihəsi çərçivəsində Bakı şəhər birinciliyində badminton, velosiped, həndbol idman növləri üzrə yarışaraq I, II, III yerlərə layiq görülüblər.

Paytaxt məktəblərinin müəllimləri də biləyinin gücünə görə şagirdlərindən geri qalmayıb. Bakı şəhəri 306 nömrəli tam orta məktəbin idman müəllimi Sübhan Hümbətov İtaliyada Hapkido döyüş növü üzrə keçirilən dünya çempionatında 75 kiloqram çəki dərəcəsində I yerə çıxaraq dünya çempionu olub.

20-dən çox ölkənin qatıldığı “Nevada nağıllar” adlı xoreoqrafik festivalda 5 nömrəli UGİM-in “Uşaq xalq rəqsləri” dərnəyinin üzvləri uğurlu çıxışlarına görə I, II, III yerlərə layiq görülüblər.

Bir sözlə, paytaxt məktəbləri dərsdə də, dərsdənkənar fəaliyyətdə də ön cərgələrdədir.

### Məktəb binaları təhsildə keyfiyyətə nail olmağa imkan verir

2019-2020-ci tədris ilində BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 5 məktəbdə əsaslı təmir işləri aparılıb. 2 məktəbin köhnə binasının sökülərək tikintisi, 1 məktəbin isə bütövlükdə sökülərək yenidən tikintisi tamamlanıb. Zəruri olan ərazidə 1 yeni məktəbin tikintisi tamamlanaraq istifadəyə verilib.

2 məktəbin bütövlükdə, 2 məktəbin isə köhnə korpuslarının sökülərək yenidən tikintisi davam edir. 1 məktəb üçün əlavə korpusun tikintisi aparılır. Həmçinin ehtiyac olan ərazilərdə 7 yeni məktəbin tikintisinə başlanılıb. İl ərzində 109 təhsil müəssisəsində təmir və mühəndis-kommunikasiya işləri aparılıb.

### Pandemiya şəraitində məktəb

2019-2020-ci tədris ilinə bütün ölkə olduğu kimi, Bakı məktəbləri də yeni növ koronavirus infeksiyasının səbəb olduğu pandemiya şəraitində yekun vurub. Ancaq bu vəziyyət Bakı məktəblərini nəinki axsatmayıb, əksinə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 309 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, 317 məktəb və 5 Uşaq-Gənclər İnkişaf Mərkəzinin hər biri vəziyyətdən özünəməxsus yollarla çıxaraq inkişafın yeni mərhələsinə qədəm qoyub.

Beləliklə, tədris ilini 45573 I sinif, 30 888 nəfər IX sinif, 19612 nəfər XI sinif, 124 nəfər isə XII sinif (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) şagirdi olaraq bitirib. Koronavirus pandemiyası dövründə məktəblərdə fasilə yaransa da, müəllim-şagird ünsiyyəti davam edib və müəllimlər tərəfindən onlayn dərslər keçirilib. “Virtual məktəb” layihəsi üzrə paytaxtda 340000-dən çox istifadəçi qeydiyyatdan keçib.

Təhsil Nazirliyi tərəfindən şagird, valideyn və ümumilikdə bütün vətəndaşlara psixoloji xidmət üçün yaradılmış 146-3 “Qaynar xətt” xidmətində BŞTİ-nin nəzdindəki Təlimə Dəstək Mərkəzinin və ümumi təhsil məktəblərinin psixoloqları səmərəli fəaliyyət göstəriblər.

BŞTİ “Aprel döyüşləri”ndə şəhid olmuş qəhrəman əsgərlərin xatirəsinə həsr edilən “Böyük zəfərin başlanğıcı!” mövzusunda rəsm, 28 may - Respublika Gününə həsr edilən VII-XI sinif şagirdləri arasında videotəqdimat, “Sevimli nəğmələr” uşaq mahnı və “Oxu və əylən!” müsabiqələrini onlayn təşkil edib. 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş “Uşaqlar gələcəyimizdir” adlı onlayn tədbirə isə məktəbli uşaqlarla yanaşı, Təhsil naziri Ceyhun Bayramov və BŞTİ-nin müdiri Rəşad Tağıyev də qoşulub.

Xüsusi karantin rejimi dövründə paytaxtdakı ümumi təhsil müəssisələrinin kollektivləri sosial yardımlaşma təşəbbüslərinə qoşularaq çoxsaylı xeyriyyə aksiyaları keçirib, məktəbliləri isə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə əlaqədar #evdəqal aksiyasında fəallıq göstərib, fərqli təşəbbüslərlə çıxış ediblər.

# Tarixi ədalətin təntənəsi

## və ya Hacı Zeynalabdin Tağıyevin fenomenal maarifçilik fəaliyyəti





⇦ Əvvəli səh.1

**Əsgər QULİYEV,**

*Azərbaycan Respublikası Təhsil Nazirliyi Tədris resursları şöbəsinin müdir müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Məktəbin açılışında təbrik nitqi söyləyən Bakı quberniyasının baş keşişi, görün, nə demişdi: " Cənab Hacı! Siz ömrünüzdə çox yaxşı işlər və xeyir əməllər görübsünüz. Siz o xeyir əməllər ilə öz başınız üçün çoxdan gözəl tac əmələ gətirib hazır edibsiniz. Lakin, Sizin bu əməli-xeyriniz ki, Bakıda rus-müsəlman ünasiyyə (qadın) məktəbini təsis edibsiniz, o tacın üzərində çox qiymətli almaz tək şölə edəcəkdir...".

Bəli, Qız Məktəbi Hacının maarifçilik fəaliyyətinin simvolu olan qızıl tacın almaz qaşı kimi milli təhsil tariximizə daxil oldu. Bu məktəb əvvəllər dördillik idi, 2 ildən sonra beşillik, sonra altı illik oldu. 1913-cü ildə məktəb ibtidaidən Marinski məktəbləri tipli orta tədris müəssisəsinə çevrildi və 1915-ci ildən isə məktəbin nəzdində ikiillik müəllim hazırlayan müsəlman qadın pedaqoji kursları açıldı. 1916-ci ildə onun statusu ali ibtidai məktəbə bərabərləşdirildi. 1918-ci il Bakıda mart qırğınları zamanı məktəb bağlandı. Cümhuriyyət dövründə də onu bərpa etmək mümkün olmadı. Nə yaxşı ki, həmin binada Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti fəaliyyət göstərmişdi. Sovet dönəmində də həmin bina uzun illər Parlament binası kimi fəaliyyət göstərmişdi. Lakin bir həqiqət var ki, ötən əsrin əvvəllərində yetişən Azərbaycan ziyalı qadınlarının böyük əksəriyyətini bu məktəbin məzunları təşkil etmişdi...

1903-cü ildə nəşr edilmiş ilkin mənbəyə görə, bu maarif ocağına mərhəmətli Hacı "əvvəl ibtidasından ta itmamınacan (tamamlanmasına kimi) beş yüz min rubl xərc edibdir" ("Sərvət və səxavətlə məşhur cənab Hacı Zeynalabdin Tağıyevin tərcümeyi-halı", s. 16).

Bu təhsil ocağını yaratmaqla H.Z. Tağıyev öz şərəfli adını milli tariximizə, Azərbaycan xalqına savadlı ana bəxş edən, ilk milli ziyalı qadın kadrlarını formalaşdıran, Vətənimizdə dünyəvi müsəlman qadın təhsilinin təməlini qoyan böyük maarifçi kimi əbədi həkk etdirdi...

Müasirləri bu maarif ocağını milli qadın təhsili üzrə "ana məktəb" adlandırır, onun "müsəlman dünyasına işıq saçacağına inanırdılar". Həqiqətən də, belə oldu. Onun ardınca İrəvanda, Gəncədə, Şəkidə, Ağdaşda, Bakıda, Qubada, Naxçıvanda, Qazaxda, Şuşada, Şamaxıda eyni tipli rus-Azərbaycan qız məktəbləri açıldı. 1906-cı ildə Tiflisdə açılan müsəlman qız məktəbinin açılışına dəvət alsa da, xəstəlik səbəbindən tədbirə qatıla bilməyən Hacı həmin məktəbin xeyrinə 25 min manat toxunulmaz vəsait köçürmüşdü ki, ondan gələn gəlir məktəbin ehtiyaclarına sərf olunsun...

Yeri gəlmişkən, burada bir tarixi məqama toxunmaq istərdik. Gələn il həmin məktəbin fəaliyyətə başlamasının 120 illiyi tamam olacaq. Çox istərdik ki, Azərbaycanda ilk dünyəvi qadın təhsili müəssisəsi kimi məktəb və təhsil tarixinə şanlı səhifələr yazmış, Vətənimizdə qadın ziyalıların, qadın müəllimlərin yetişməsinə böyük töhfələr vermiş bu məktəbin yubileyinin keçirilməsi təşkil olunaydı.

Mərhəmətli Hacının maarifçilik fəaliyyətinin mühüm istiqamətlərindən biri də milli kadrların yetişdirilməsi məqsədilə tələbələrin təqaüdlə təmin olunması idi. 1903-cü ildə çap olunmuş bir mənbədə deyilirdi ki, "Hacı dəxi öz millətinin tərəqqisi yolunda köməklik qədəmlərini səxavət meydanına qoyub hər ildə 20 nəfərəcən mütəllimlər (tələbələr) ümumi-dünyəviyyə (dünyəvi elmlər) və sənayeyi-elmiyyəni (sənaye elmləri) təhsil etmək üçün darülfünun (universitet) mərkəzlərinə göndərirdi və ildə onlara yeddi min beş yüz rubl qədərində xərc verirdi...".

Digər bir mənbədə 1890-1917-ci illər ərzində səxavətli Hacı tərəfindən təhsil alan tələbələr üçün 143,3 min rubl vəsait xərcləndiyi göstərilirdi.

Əlbəttə, bu rəqəmlər Hacının millət yolunda, milli kadrlar yetişdirilməsi sahəsində xərclədiyi vəsaitlərin cüzi bir hissəsidir. Onun fərdi təqaüdü ilə ali və ya orta təhsil alanlar içərisində XX əsr Azərbaycan tarixinin çox önəmli tarixi şəxsiyyətləri vardır. Belələrindən Əlimərdan bəy Topçubaşov, Səməd bəy Mehmandarov, Nəsib bəy Usubbəyli, Həsən bəy Ağayev, Qarabəy Qarabəyov, Behbud xan Cavanşir, Lütvəli bəy Behbudov, Mustafa ağa Vəkilov, Fətulla bəy Rüstəmbəyov, Fərrux bəy Vəzirov, Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Mirhəsən Vəzirov, Ruhulla Axundov, Ağa Axundov, Şövkət Məmmədova, Ayna Sultanova, Mirzə Davud Hüseynov, Xudadat bəy Məlikaslanov, Xəlilbəy Xasməmmədov, Aslan bəy Səfikürdski, İsmayıl bəy Ziyadxanov, Həbib bəy Mahmudbəyov, Soltan Məcid Qənizadə və onlarla başqalarını göstərmək olar.

Burada bir tarixi faktı yada salmaq yerinə düşərdi. 1860-cı illərdə ilk ali təhsilli azərbaycanlı Həsən bəy Zərdabi idisə, XX əsrin əvvəllərində ali təhsilli azərbaycanlıların sayı yüzlərlə, bütövlükdə ziyalıların sayı minlərlə idi. Bu milli kadrların yetişdirilməsində, onların təqaüdlə təmin edilməsində Hacının müstəsna xidmətləri olmuşdu.

Hesab edirik ki, mətləb aydınlığı üçün bir neçə tarixi məqamı burada yada salmaq yerinə düşərdi:

Böyük mesenat ali təhsil almaq arzusunda olan və ona müraciət edən hər kəsə yardım əlini uzatmışdı. Tiflisdən mehmanxanadan Hacıya teleqram vuraraq Beyrutdakı Amerika Məktəbində təhsil almaq arzusunda olduğunu, bu məqsədlə ona yol xərcinə və təhsil haqqına yardımçı olmağı xahiş edən təbrizli Seyid Həsən Tağızadəyə böyük maarifpərvər dərhal pul göndərmişdi.

Yaxud İrəvan şəhər gimnaziyasını əla qiymətlərlə bitirib Peterburqda ali təhsil almaq üçün ona kömək etməyi xahiş edən Əziz Əliyevin ünvanına Hacı tərəfindən təcili 300 rubl yol xərci göndərilmişdi (Maraqlıdır ki, bu fakt dövlət başçısının mədəniyyət işçilərinin bir qrupu ilə görüşündə də xatırlandı). Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil olmuş və sonralar Azərbaycanın ictimai-siyasi və mədəni həyatında böyük xidmətlər göstərmiş tarixi şəxsiyyət kimi yetişmişdi.

Və yaxud Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə 2 nəfər azərbaycanlı şagirdin qəbulu üçün vəsaitlə yardım etməyi xahiş edən Soltan Məcid Qənizadənin arzusu dərhal, həm də daha geniş ölçüdə yerinə yetirilmişdi. Belə ki, Hacı 4 azərbaycanlı, 2 gürcü, 2 erməni uşağının da təhsil haqqını ödəməyi öhdəsinə götürmüşdü...

Belə faktlar bir deyil, beş deyil, yüzlərlə, minlərlədir...

H.Z.Tağıyevin maarifçilik fəaliyyətinin istiqamətlərindən biri də müxtəlif xeyriyyə cəmiyyətləri vasitəsilə yeni açılan məktəblərə yardımların edilməsi idi. 1906-cı ildə Bakıda yaradılan "Müsəlmanlar arasında savad yayan cəmiyyət-Nəşri maarif" xeyriyyə cəmiyyətinin sədri olan H.Z.Tağıyev uzun illər cəmiyyətin məktəblərinə qəyyumluq etmiş, mədəni-maarif cəmiyyətlərdən olan "Nicat" (1906), "Səadət" (1907) və başqalarının maarifçilik fəaliyyətində də yaxından iştirak və kömək etmişdi.

H.Z.Tağıyev yaşlıların təhsili üçün də müəyyən işlər görmüş, 1898-ci ildən başlayaraq yaşlılar üçün savad kursları açmağa vəsait ayırmış, özünün toxuculuq fabriki nəzdində məktəb və savad kursları təşkil etmişdi. Bundan əlavə, 30 min rubl vəsait ayıraraq Bakı II Realnı Məktəbin nəzdində müsəlman uşaqları üçün pulsuz "Əlifba" öyrədən kurslar açdırmışdı...

Böyük mesenatın maarifçilik fəaliyyətində qəzet və jurnalların, eləcə də elmi-bədii və dini kitabların nəşri məsələləri də mühüm yer tuturdu. Bu məqsədlə mərhəmətli Hacı 1895-ci ildə 57 min rubl verib "Kaspi" qəzetini mətbəəsi ilə birlikdə alaraq onun sahibi olmuş, görkəmli fikir adamlarından olan Həsən bəy Zərdabini, Əlimərdan bəy Topçubaşovu, Əhməd bəy Ağayevi, Əlibəy Hüseynzadəni qəzetdə işləməyə cəlb etmiş, tezliklə qəzet azərbaycanlıların ideoloji fikir tribunasına - "Müsəlman Kaspisi"nə çevrilmişdi...

Hacının təşəbbüsü ilə "Qurani-Kərim" Azərbaycan türkcəsinə çevrilərək təfsiri ilə birlikdə üç cilddə çap olunmuş, həmin nəşrdən Osmanlı İmperatoru Sultan II Əbdülhəmidə də hədiyyə göndərilmişdi.



Hacı Zeynalabdin Tağıyev ilk müsəlman qız məktəbinin şagirdləri və müəllimləri ilə birlikdə. Dənizçi köynəyində olan uşaqlar Hacının qızları - Leyla və Saradır.

Sonralar Hacının maliyyə dəstəyi ilə "Həyat" (1905-1906) qəzeti, "Füyuzat" (1906-1907) jurnalı Əlibəy Hüseynzadənin, "İrşad" qəzeti Əhməd bəy Ağayevin redaktorluğu ilə nəşr edilmişdi. Ümumiyyətlə, Hacı bu illərdə Azərbaycan ziyalılarının mətbuat vasitəsilə bir yerə cəm olmasını, xalqın milli ideya ətrafında səfərbər olması üçün fikir adamlarını maddi və mənəvi cəhətdən hər zaman dəstəkləmişdi...

Hacı qəzet və jurnallara böyük önəm verərək mətbuata "məktəbdarlara vacibatdandır" deyərdi. Hacı yazı-pozu bilməzdi. İmza atmağı güclə öyrənmişdi. Rusca "Q", "Z", "A", "T" hərflərini (adının və soyadının baş hərflərini) birtəhər yazıb, doqquz dənə düz xətt çəkərdi. Lakin buna baxmayaraq, fars, türk, ərəb, fransız və rus dillərində çıxan qəzet və jurnallarla gündəlik tanış olardı. Şərq dillərində olan qəzetləri Mirzə Sadıq oxuyar, Avropa dillərində olan qəzet və jurnalları isə müsyö Kadusli tərcümə edib Hacıya çatdırardı...

H. Z.Tağıyevin maarifçilik fəaliyyətinin istiqamətlərindən biri də ölkəmizdə teatr sənətinin təşəkkülü və inkişafı ilə bağlıdır. Belə ki, xalqın maariflənməsində, mədəni səviyyəsinin və doğma dilinin inkişafında teatrın böyük rolunu yüksək qiymətləndirən Hacı 1883-cü ildə öz vəsaiti hesabına Azərbaycanda ilk teatr binası tikdirdi. Teatrın açılışı milli mədəniyyət tarixində mühüm hadisə oldu. "Tağıyev teatrı" adı ilə tarixə düşən bu bina 1918-ci ildə Bakıda baş verən azərbaycanlıların soyqırımı zamanı erməni vandalları tərəfindən yandırılmışdı. 1922-ci ildə sovet dönəmində bərpa olunan teatr binasının açılışına hökumət başçısı Nəriman Nərimanovun təşəbbüsü ilə dəvət alan H.Z.Tağıyev orada söylədiyi nitqində teatrda həmin gün keçirdiyi hissləri həyatında bir dəfə də Məkkədə müqəddəs daşa toxunan zaman yaşadığını söyləmiş, bununla da mədəniyyət ocağına sonsuz məhəbbətini bir daha təsdiq etmişdi... Təsadüfi deyil ki, Hacı bütün teatr tamaşalarına ailə üzvləri ilə birlikdə həmişə tamaşa edərdi.

Göründüyü kimi, böyük mesenat və maarifpərvər H.Z.Tağıyevin maarifçilik sahəsindəki xidmətlərinin coğrafiyası çox əhatəli və geniş idi. O, təkcə Azərbaycanda deyil, türk-müsəlman xalqlarının yaşadığı Rusiya imperiyasında, eləcə də İran, Türkiyə və Misirdə məktəblərin açılması işinə hər zaman yardımlar etmişdi. Hətta Misir məktəblərində H.Z. Tağıyevin mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə dair dərslər də keçilirdi....

XIX əsrin 90-cı illərində Hindistandan Vətəninə dönən Con Daltner adlı bir ingilis zadəgan Bakıda Hacının qonağı olarkən onun mesenatlıq, xeyriyyəçilik və maarifçilik fəaliyyətinə o qədər heyran olmuşdu ki, vətəninə qayıtdıqdan sonra İngiltərənin Edinburq şəhərində öz vəsaiti hesabına mərhəmətli Hacının büstünü ucaltdırmışdı.

H.Z.Tağıyev Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qurulmasını sevinclə qarşılamış, məsləhət və yardımlarını əsirgəməmiş, hökumətin bütün xarici qonaqlarının öz malikanəsində qarşılanmasına və görüşünə şərait yaratmışdı. Bakı Dövlət Universitetinin təşkili məqsədilə tədris binalarının təmiri və avadanlıqların alınmasına maliyyə yardımı göstərmişdi...

Bir neçə kəlmə də bu böyük maarifpərvərin ailəsi və ailə həyatı haqqında demək istərdik.

Hacı iki dəfə evlənmişdi. İlk həyat yoldaşı Zeynəb xanımdan 3 övladı (İsmayıl, Sadıq və Xanım) olmuşdu. Böyük oğlu İsmayıl Rusiya II Dövlət Dumasına Bakı quberniyasından deputat seçilmişdi. Birinci arvadı dünyasını tez dəyişmişdi.

1896-cı ildə Hacı əslən Zaqataladan olan general Balakişi Ərəblinskinin qızı Sona xanımla evlənmiş, bu izdivacdan 5 övladı (Leyla, Sara, Süreyya, Məhəmmədtağı, Məmmədkazım) dünyaya gəlmişdi, Sona xanım Bakı "Müqəddəs Nina" məktəbini bitirmiş, kübar hərbiçi ailəsindən çıxmış ziyalı qadın idi. Azərbaycanda qadın xeyriyyəçiliyinin əsasını qoyanlardan biri idi. Mesenatlıq, xeyriyyəçilik sahəsində Hacının əsl silahdaşı idi. Ötən əsrin əvvəllərində Bakıda keçirilən bütün xeyriyyə gecələrinin təşkilində hər zaman fəallığı ilə seçilmişdi. Çox təəssüf ki, sovet rejiminin təqibləri nəticəsində ruhi sarsıntılara məruz qalan Sona xanım 30-cu illərdə faciəli şəkildə həlak olmuşdu...

Hacının qızları - Leyla və Sara Peterburqda Smolnı Qızlar İnstitutunda yüksək təhsil almışdılar. Sovet dövrünün repressiyalarına tuş gələn Tağıyevlər ailəsinin üzvləri pərən-pərən salınmışdılar. Ən çox müsibətlərə düçar olan Sara xanım sovet dövründə bütün faciəli həyatını atasının həqiqi, təmiz adının bərpası uğrunda mübarizəyə həsr etmiş, H.Z.Tağıyevin maarifçilik fəaliyyətinə dair araşdırma aparsa da, istədiyinə nail olmamışdı. Sara xanım ömrünün son vaxtlarında Hacı haqqında həqiqətlərin yenicə meydana çıxdığı 1991-ci ildə 92 yaşında dünyasını dəyişdi. Taleyin işinə bax: Sara xanım anadan olduğu, 70 il həndəvərinə buraxılmadığı ata evindən - indiki Milli Azərbaycan Tarixi Muzeyi yerləşən binadan son mənzilə yola salındı, Mərdəkanda atasının yanında da dəfn edildi...

Atalar doğru deyib: "Haqq nazilər, ancaq üzülməz". Həqiqətən də, səxavətli və maarifpərvər H.Z.Tağıyevin böyük adı və əməlləri kommunist rejimi tərəfindən nə qədər inkar edilsə də, saxtalaşdırılsa da, axırda yenə də haqq-ədalət zəfər çaldı, onun təmiz adı özünə qaytarıldı. Adının əbədiləşdirilməsi istiqamətində dövlət tərəfindən mühüm addımlar atıldı. Bu məqsədlə ölkənin bir sıra qəsəbə, küçə, məktəb və digər müəssisələrinə onun adı verildi, ümumtəhsil məktəb dərsliklərinə onun haqqında oçerklər daxil edildi.

> "Tağıyev bütün Qafqaz müsəlmanlarının fəxri idi. Onun adı hörmət və məhəbbətlə əhatə olunmuşdu. O, müsəlmanların məxfi hökmranı idi. ...Tağıyev - nəhəng, parlaq, orijinal simadır. Böyük zəka, böyük enerji sahibidir!..".
>
> *("Baku" qəzeti, 18 mart 1912-ci il)*
>
> *Elmə yollar açdın, ey millətpərvər,*
> *Hacı Zeynal Abdin, ey taci zər.*
> *Vətənin qızların elmə bağladın,*
> *Vətənə, ümmətə, millətə pərvər...*
>
> **(M.Ə.Sabir)**

Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə yuxarıda deyildiyi kimi, son illərdə Mərdəkanda böyük mesenatın uyuduğu görkəmli din xadimi Axund Əbu Turabın məqbərəsi, bütövlükdə Pir Həsən Ziyarətgahı əsaslı şəkildə yenidən quruldu. Hacının büstü, qəbirüstü abidəsi, vaxtilə təsisçisi və banisi olduğu bağçılıq məktəbinin (indiki 123 nömrəli orta məktəbin) ərazisi abadlaşdırıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə əsaslı şəkildə təmir edilmiş və vaxtilə Hacının şəxsi malikanəsi olmuş Milli Azərbaycan Tarixi Muzeyinin tərkibində "Hacı Zeynalabdin Tağıyevin Ev Muzeyi" də yaradıldı.

Bir tarixi həqiqəti də yada salmaq lazımdır ki, böyük neft sənayeçisi H.Z.Tağıyev tərəfindən vaxtilə neft gəlirlərindən xalqın maarifləndirilməsi və milli kadrların yetişdirilməsi yolunda XIX əsrin sonu - XX əsrin əvvəllərində ilk addımlar atılmışdı. Şükürlər olsun ki, bu mütərəqqi ənənə müstəqil Azərbaycanda müəllifi Ümummilli lider Heydər Əliyev olan neft strategiyasında yenidən özünün parlaq ifadəsini tapdı.

Bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən həmin strategiyanın əsas prioritet istiqamətlərindən biri "Qara qızıldan əldə edilən kapitalın ölkədə insan kapitalının inkişafına yönəldilməsi" sayılır. Bu istiqamətdə atılan uğurlu addımlar böyük mesenatın yüz il bundan əvvəlki arzularının çin olduğunu, nurlu ideyalarının reallaşdığını göstərir.

Vaxtilə H.Z.Tağıyev Vətənimizdə ilk dünyəvi milli qız məktəbinin açılması, eyni zamanda həmin məktəbdə ana dilinin tədrisi yolunda böyük maneələri, keçilməz sədləri dəf etmək zorunda qalmışdı. Nə xoşbəxtik ki, Hacının arzuladığı ana dilli dünyəvi məktəb, təhsil şəbəkəsi bu gün müstəqil Azərbaycanda tam reallığa çevrilib. Sevindirici haldır ki, bu gün sürətlə dünya təhsil məkanına inteqrasiya olunan Azərbaycanın təhsil sistemində ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq 5 prioritet istiqamətdə müasir təhsil sisteminin qurulması yönündə əsaslı islahatlar aparılır. Bütün bunlar böyük maarifpərvər H.Z.Tağıyevin vaxtilə arzuladığı ideyaların parlaq təntənəsidir. Hacı indi rahat uyuya bilər ki, millətlər arasında onun millətinin də imzası var və hər zaman da var olacaqdır...

Hesab edirik ki, Hacının böyük adı və maarifçilik sahəsində misilsiz əməlləri bu gün də yaşayır, onun təşəbbüsü və ya şəxsi vəsaiti hesabına Bakıda tikilən möhtəşəm binalar Azərbaycan təhsilinə, elminə və mədəniyyətinə ləyaqətlə xidmət edir.

Qürurvericidir ki, tezliklə ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı tarixi Sərəncama uyğun olaraq müstəqil Azərbaycanın paytaxtı Bakıda böyük xeyriyyəçi, mesenat, maarifpərvər və ictimai xadim Hacı Zeynalabdin Tağıyevin xalqımızın bir əsrə yaxın müddətdə gözlədiyi möhtəşəm abidəsi ucaldılacaq, tarixi ədalət zəfər çalacaq, bu məkan gənclərin ziyarətgahına çevriləcəkdir.

# Çində “İlin ən yaxşı xarici müəllimi” seçilmiş azərbaycanlı



*Aqşin Əliyev:* “Hazırda məni düşündürən ən vacib məsələ Pekin Xarici Dillər Universitetində Azərbaycan Mərkəzinin yaradılmasıdır”

**Oruc MUSTAFAYEV**

Hər dəfə azərbaycanlı gənclərin dünyanın ayrı-ayrı ölkələrindən xoş sorağını aldıqca ürəyimizi fəxarət hissi bürüyür. Onların nailiyyətlərinə sevinir, onlarla qürurlanır, uğurlarını oxucularımızla bölüşməyə çalışırıq. Onlardan biri də Çin Xalq Respublikasında “İlin ən yaxşı xarici müəllimi” adına layiq görülən Pekin Xarici Dillər Universitetinin gənc müəllimi, adıçəkilən ali təhsil müəssisəsinin Azərbaycan Dili kafedrasına başçılıq edən filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevdir. Aqşin müəllimlə söhbətimizə də elə onun ən yaxşı əcnəbi müəllim adına layiq görülməsi ilə körpü salırıq.



*– Çində ilin ən yaxşı xarici müəllimi seçilməyiniz münasibətilə sizi təbirk edirik. Bu barədə məlumat verməyinizi xahiş edirik. Seçim necə aparılır və kimlər bu ada layiq görüldü?*

– İlk növbədə, diqqətinizə görə təşəkkür edirəm. İnkişaf etmiş ölkələrə xas xüsusiyyətlərdən biri də odur ki, bu ölkələrdə insan kapitalı inkişafın əsas hərəkətverici qüvvəsi rolunu oynayır. Bu baxımdan, daxili insan kapitalı tələblərə tam cavab vermədiyi halda dövlət xaricdən mütəxəssislər cəlb edir. Xarici mütəxəssislərin cəlb olunması üçün Çinin xüsusi proqramları var. Çində pedaqoji və elmi sahədə minlərlə xarici mütəxəssis, alim və pedaqoqlar çalışır, onlar ölkədə elmə, təhsilə və sosial-iqtisadi inkişafa mühüm töhfələr verməkdədir. Çin kimi dünyanın ikinci ən böyük iqtisadiyyatına malik ölkə üçün bu, olduqca zəruridir. Müxtəlif sahələrdə, eləcə də elmi-pedaqoji istiqamətdə fəaliyyət göstərən mütəxəssislər üçün mükafatlar müəyyən edilib. 2011-ci ildə təsis edilən mükafatın məqsədi xaricdən daha güclü kadrların cəlb olunması, Çinlə müvafiq ölkələr arasında daha güclü elmi, təhsil, mədəni əlaqələrin qurulması, eləcə də Çində elmi-pedaqoji fəaliyyət göstərən gənc alimlərin fəaliyyətinə stimul verməkdir. Mükafat müsabiqə formatında, Çin Elm və Texnologiya Nazirliyinin, Çin Qlobal İstedadlar Mübadiləsi Assosiasiyasının və “Beynəlxalq istedadlar” jurnalının birgə dəyərləndirməsi əsasında həyata keçirilir. Ən yaxşı xarici müəllim üçün əsas kriteriyalar elm və təhsilə verilən töhfələr, Çin və müəllimin təmsil etdiyi ölkə arasında təhsil, elm və mədəniyyət sahəsində əlaqələrin inkişafındakı xidmətləridir.

*– Pekin Xarici Dillər Universitetində Azərbaycan Dili kafedrası yaratdınız. Belə bir kafedranın yaradılması hansı zərurətdən irəli gəldi və hansı töhfələrini qeyd edə bilərsiniz?*

– Bildiyiniz kimi, 2013-cü ildə Çin tərəfindən “Bir kəmər, bir yol” təşəbbüsü irəli sürülüb. Özündə həm iqtisadi, həm də humanitar islahatları cəmləşdirən bu təşəbbüs Çində xarici dillərin tədrisinin inkişafına güclü təkan verib. Xarici dillərin tədrisi ilə bağlı Çinin öz qarşısına qoyduğu hədəfləri iki qrupa ayırmaq olar: birincisi, Çinin diplomatik münasibətdə olduğu bütün ölkələrin rəsmi dilləri Çinin ali təhsil ocaqlarında tədris olunmalı və öyrənilməlidir. İkincisi, “Bir kəmər, bir yol” üzərində yerləşən ölkələrin dövlət dilləri Çinin ali təhsil ocaqlarında tədris və tədqiq olunmalıdır. Bu gün, demək olar ki, Çin bu hədəfə nail ola bilib. Xarici dil və mədəniyyətin tədrisi, tədqiqi yükünün əsas hissəsini Pekin Xarici Dillər Universiteti daşıyır. Hazırda bu universitetdə 101 dil tədris olunur ki, bu Çində birinci, dünya xarici dillər universitetləri arasında nadir hadisələrdəndir. Beləliklə “Bir kəmər, bir yol” təşəbbüsü və ya Qədim İpək Yolunun bərpası Azərbaycan dilinin Çinə səyahətinə yol açdı. 2016-cı ildə Azərbaycan dili kafedrası yaradıldı və 2017-ci il fevralın 28-də Çində ilk dəfə olaraq Azərbaycan dili üçüncü dil kimi tədris olunmağa başladı. 2018-ci ildə Azərbaycan dili ixtisasına qəbul elan edildi və ümumrespublika qəbul imtahanı vasitəsi ilə 10 tələbə bu ixtisasa qəbul olundu. Onlar hazırda ikinci kursda təhsil alırlar. Yuxarıdakı layihələri həyata keçirmək üçün Pekin Xarici Dillər Universiteti məni dəvət edərkən bunu özüm üçün şərəfli bir iş hesab etdim və dəvəti qəbul etdim. Hazırda biz Azərbaycan dilinin tədrisi ilə kifayətlənmirik. Qeyd edim ki, bir ixtisası yaratmaq üçün, ilk növbədə, onun maddi-texniki bazasını yaratmaq lazımdır. Tələbə qəbulunadək bir çox işləri həyata keçirdik, standartlara cavab verdiyimizi nəzərə alaraq qəbula icazə verildi. Hazırda kafedrada gördüyümüz təxirəsalınmaz işlər müvafiq dərsliklərin və lüğətlərin tamamlanması, tez bir müddətdə çinli müəllim-kadrların yetişdirilməsidir. Hazırda pandemiya şəraitində olmağımıza baxmayaraq, bu proses sürətlə davam edir. Bundan başqa, Azərbaycanın Çindəki səfirliyi, Heydər Əliyev Fondu, AMEA Ədəbiyyat İnstitutu, Xəzər Universiteti və digər təhsil və elm ocaqları, eləcə də dövlət qurumlarının dəstəyi ilə azərbaycanşünaslığın elmi yolla tanıdılması yönündə elmi məruzələr, sərgilər və digər tədbirlər təşkil etməkdəyik. Buna misal olaraq 2019-cu ildə Pekin Xarici Dillər Universitetində Nəsiminin 650 illik yubileyi münasibəti ilə təşkil olunan Azərbaycan dili və ədəbiyyatı sərgisini qeyd etmək istərdim. Azərbaycanın Çindəki Səfirliyi, Heydər Əliyev Fondu və Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının birgə təşkilatçılığı ilə keçirilən sərgi 15 gün davam etdi. Hazırda məni düşündürən ən vacib məsələ Pekin Xarici Dillər Universitetində Azərbaycan Mərkəzinin yaradılmasıdır. Ümid edirəm ki, yaxın vaxtlarda bunun şahidi olacağıq.

*– Kafedrada görülən işlər və çinli tələbələrin fəallığı, dilimizə olan maraqları barədə nə deyə bilərsiniz?*

– Azərbaycan dili üçüncü dil kimi tədris olunarkən 40-dan çox həvəskar tələbə iki semestr ərzində Azərbaycan dilini öyrəndi. 2018-ci ildə yaradılan Azərbaycan dili ixtisası Çində ilk hadisə idi, bu ixtisasa qəbul olan tələbələr Çinin ilk azərbaycanşünaslarıdır. Məhz bu amil onları gələcəyə daha da ruhlandırır, mövcud olan kadr boşluğunun aradan qaldırılmasında fəal rol oynayacaqlarına inanırlar. Onların məqsədləri müxtəlifdir, kimi diplomat, azərbaycanşünas-tarixçi, mədəniyyətşünas, ədəbiyyatçı, müəllim, kimi tərcüməçi olmaq istəyir. Hansı sahədə yer alacaqlarını gələcək göstərəcək. Mənim üçün bu fərq etmir. Fərq edən odur ki, gələcəkdə onların harada olmalarından asılı olmayaraq ürəklərində Azərbaycan sevgisiylə Azərbaycanın mövqeyini təmsil olunduqları yerdə müdafiə edə bilsinlər, Çinin kamil azərbaycanşünasları olsunlar. Son məqsəd məhz budur. Dünyada Azərbaycan dili hər yerdə tədris oluna bilər, daha çox xarici vətəndaş dilimizi bu və ya digər səviyyədə mənimsəyə bilər. Amma onların içindən neçə nəfər azərbaycanşünas çıxıb?! Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisası üçün dörd illik bakalavr-tədris planı məhz bu məqsədə nail olmaq konsepsiyası üzərində qurulub. Dörd il ərzində Azərbaycan dilinin müxtəlif aspektlərdən (əsaslar, qrammatika, fonetika, oxu, tərcümə, yazı, dinləmə, danışma və s.) tədris olunması ilə bərabər Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı, dilçiliyi, etnoqrafiyası, müasir cəmiyyət fənləri də ayrı-ayrılıqda tədris olunur.

Epidemiya dövründə də Azərbaycan dili kafedrası öz fəaliyyətini davam etdirdi. Qısa müddət ərzində Çincə-Azərbaycanca koronavirus epidemiyasına aid qısa sözlük, pandemiyadan qorunmaq haqqında qaydalar və video materiallar hazırlayıb cəmiyyətə təqdim etdim.

*– Çində azərbaycanlı tələbələrlə əlaqələriniz necədir, onların diaspora sahəsində fəaliyyətlərdə iştirakını necə qiymətləndirirsiniz?*

– Bir zamanlar mən özüm də Çində tələbə olmuşam, 20 il Çində yaşayıb təhsil almışam, tələbələrin qayğı və problemlərinə yaxından bələdəm. Əksəriyyəti ilə daimi ünsiyyətdəyik. Sevindirici hal odur ki, təxminən 15-20 il öncə məhdud sayda tələbə Çinə dar çərçivədə ixtisasa yiyələnmək üçün gəlirdisə, hazırda tələbələrin sayı və yiyələnmək istədikləri ixtisasların əhatə dairəsi dəfələrlə genişlənib. Artıq Çində demək olar ki, hər sahəyə uyğun azərbaycanlı mütəxəssis yetişir. Çində açıq-aşkar diaspor fəaliyyəti göstərməklə bağlı məhdudiyyətlər var. Amma bu o demək deyil ki, mümkün deyil. Müxtəlif formatlar var ki, bunların arasında elmi təşkilat formasında fəaliyyət göstərməyi mən daha məqsədəuyğun və Çin qanunlarına cavab verən hesab edirəm. Hazırda elmi təşkilatlanma prosesi gedir. Amma Çində yaşayan azərbaycanlı gənclər mövcud qanunlar çərçivəsində və yaradılan şəraitə uyğun olaraq aktiv şəkildə fəaliyyət göstərirlər. Gənclərimizin Pekindəki səfirliyimizlə, eləcə də Diaspor üzrə Dövlət Komitəsi ilə sıx təmasları var. Bir faktı qeyd edim ki, Çində koronavirus pandemiyasının alovlandığı bir dövrdə Pekindəki səfirlik Çində yaşayan azərbaycanlılarla sıx təmas qurdu. Xüsusilə çətin şəraitdə olan tələbələrə hərtərəfli yardım göstərildi, hamıya məlumdur ki, onlar sağ-salamat vətənə çatdırıldılar. Hazırda tələbələri narahat edən məqam epidemiya dövründə buraxılmış dərslər, imtahanlar və yarımçıq qalan araşdırmaları ilə bağlı olan problemlərdir. Bu problemləri müzakirə etmək üçün bir neçə gün öncə videokonfrans keçirildi. Səfir tərəfindən Çində mövcud vəziyyət barədə tələbələrə məlumat, tələbələri maraqlandıran çoxsaylı suallara cavab verildi. Hazırda təhsildə epidemiyadan doğan müvafiq problemlərin həlli ilə bağlı müzakirələr davam edir.

*– Siz “Bir kəmər, bir yol” təşəbbüsünü ölkəmiz və təhsil sistemimiz üçün necə qiymətləndirirsiniz?*

– Qeyd edim ki, “Bir kəmər,bir yol” təşəbbüsü Çini öyrənmək baxımından əvəzedilməz bir imkan yaradıb. Mən bu imkanlara iki aspektdən yanaşmaq istərdim. Birinci aspekt, Çində yaşayan azərbaycanlı alimlər, doktorantlar, tələbələr, qısamüddətli araşdırmaçılar üçün elm və təhsil əlaqələrinin qarşılıqlı inkişaf etdirilməsi üçün tarix boyu görünməmiş bir şərait yaradılıb. Mən bu kateqoriyaya Azərbaycanla bağlı tədqiqatlar aparan çinli alimləri də daxil edərdim. Təsadüfi deyil ki, son illər Çində Azərbaycanla bağlı nəşr olunan kitablar, məqalələr, elmi məruzələr, konfranslar, sərgilər və digər səciyyəvi tədbirlər geniş vüsət alıb. Bayaq qeyd etdiyim kimi Pekin Xarici Dillər Universitetində Azərbaycan dili kafedrası və ixtisası da məhz bu təşəbbüsün nəticəsi olaraq yaradılıb. İkinci aspekt, Azərbaycanın elm adamları üçün Çini daha yaxından tanımaq, birgə tədqiqatlar aparmaq, elmi araşdırmalar dərc etdirmək, təcrübə mübadiləsi həyata keçirmək, alimlərin mübadiləsini və digər daha yüksək səviyyəli tədbirləri həyata keçirmək üçün əvəzsiz fürsət yaranıb. Məhz bunun nəticəsidir ki, alimlərimizin qarşılıqlı səfərləri, elmi konfransların təşkili ilbəil daha geniş vüsət alır, Çində dövlət təqaüdü ilə təhsil alan azərbaycanlı tələbələrin kvota sayı əgər 2000-ci ildə cəmi 4 nəfər idisə indi 100 nəfərdir. Son olaraq bu təşəbbüsü olduqca yüksək qiymətəndirirəm, hesab edirəm ki, məhz bu təşəbbüsün timsalında təhsil əlaqələrinin inkişafı üçün böyük potensial mövcuddur. Bu potensialı lazımınca dəyərləndirmək lazımdır.

- Hazırda məni düşündürən ən vacib məsələ Pekin Xarici Dillər Universitetində Azərbaycan Mərkəzinin yaradılmasıdır. Ümid edirəm ki, yaxın vaxtlarda bunun şahidi olacağıq.
- 2018-ci ildə yaradılan Azərbaycan dili ixtisası Çində ilk hadisə idi, bu ixtisasa qəbul olan tələbələr Çinin ilk azərbaycanşünaslarıdır.
- Pekin Xarici Dillər Universitetində Azərbaycan dili ixtisası üçün dörd illik bakalavr-tədris planı məhz bu məqsədə nail olmaq konsepsiyası üzərində qurulub.
- Artıq Çində demək olar ki, hər sahəyə uyğun azərbaycanlı mütəxəssis yetişir.
- Çində yaşayan azərbaycanlı alimlər, doktorantlar, tələbələr, qısamüddətli araşdırmaçılar üçün elm və təhsil əlaqələrinin qarşılıqlı inkişaf etdirilməsi üçün tarix boyu görünməmiş bir şərait yaradılıb.
- Bir elm adamı kimi Çində azərbaycanşünaslıq elminin yaradılması və inkişaf etdirilməsi əsas məqsədimdir.

*– COVID-19 bəlasının Çin təhsil sisteminə təsiri barədə nə deyə bilərsiniz? Ölkə necə çıxır bu problemdən?*

– Çində bu cür epidemiyalar bir neçə dəfə baş verib, bunlardan 2003-cü ildə SARS epidemiyasını qeyd etmək olar. Həmin vaxt Şanxayda təhsil alırdım, sosial təcrid və epidemiya zamanı maska taxmaq mədəniyyətini ilk dəfə o zaman öyrəndim. Çin bir növ belə vəziyyətlərə maddi-texniki cəhətdən hazırdır. Amma necə ola bilər ki, dünyanın sayca ən böyük xalqına malik Çin bu epidemiyadan qısa müddətdə minimum zərərlə çıxdı, amma daha inkişaf etmiş ölkələr epidemiyanın məngənəsində qalmaqdadır. Çində 20 il yaşamış biri kimi tam əminliklə deyə bilərəm ki, bunun yeganə səbəbi milyard yarımlıq Çin xalqının epidemiya ilə bağlı qoyulan qaydalara bir nəfər kimi riayət etməsidir. Sosial təcrid, maska taxmaq, ictimai və fərdi dezinfeksiya kimi qaydalara olduqca ciddi yanaşan Çin xalqı müvafiq dövlət komissiyasının irəli sürdüyü bütün tələblərə əməl etdi və nəticə göz qabağındadır. Yanvarın sonlarında 30 milyonluq Pekin şəhərində cəmi 17 nəfər koronavirusa yoluxmuşdu. amma bununla belə küçədə bir nəfər də maskasız adam görmək olmazdı. Daha sonra mən Pekini tərk etdim və bütün ölkədə sosial təcrid elan olundu, epidemiyanın daha çox alovlandığı şəhərlər tamamilə bağlandı. İndi keçək təhsildəki vəziyyətə. Epidemiya alovlandığı vaxt Çində tətil idi. Yeni semestr hər il olduğu kimi fevralın sonu martın əvvəli başlayır. Amma epidemiya səbəbilə Çin hökumətinin qərarı ilə yeni semestrin açılışı təxirə salındı. “Məktəbdən qal, dərsdən qalma” şüarı ilə bütün ali və orta məktəblər təhsili virtual olaraq davam etdirdi. Virtual dərslərin həyata keçirilməsi üçün bütün məktəblərin maddi-texniki bazası mövcuddur, odur ki, bu işi həyata keçirmək üçün problem yaşanmadı. Məsələn, Pekin Xarici Dillər Universiteti onlayn dərsləri daha mükəmməl həyata keçirmək üçün beş pulsuz platforma təqdim etdi. Müəllim özünə uyğun platformadan yararlanaraq tədrisini davam etdirir. Bundan başqa MOOC (Açıq kütləvi onlayn dərs) platformaları, onlayn kitabxanalar, elmi informasiya bazaları, təhsil portalları xidmətlərini təqdim edir. Bununla həm təhsil və elm işçiləri, həm də tələbə şagirdlər üçün təhsil resurslarından yararlanmaq daha əlçatan oldu. Dərslərimiz lazımı tempdə davam edir, artıq imtahanların vaxtı müəyyən edilib, semestr bitmək üzrədir. Bununla belə hər bir tələbə öz kuratoruna səhhəti ilə bağlı gündəlik məlumat verir, biz də öz növbəmizdə hər gün hər bir tələbənin səhhəti ilə bağlı universitetə hesabat veririk. Bununla həm davamiyyəti, həm də virusun inkişafı bir növ nəzarət altında saxlanılır. Artıq bir çox şəhərlərdə təhsil bərpa olunub. Epidemiya dövründə təhsilin keyfiyyətinin maksimum yüksək səviyyədə saxlamaq bacarığı Çin təhsilinin yüksək inkişafından xəbər verir.

*– Çin və Azərbaycan arasında təhsil əlaqələrinin hazırkı səviyyəsi barədə nə deyə bilərsiniz?*

– Təhsil münasibətləri deyərkən ilk ağıla gələn tələbə mübadiləsi olur, amma müasir dünyada təhsilin, elmin, texnologiyanın misilsiz nailiyyətləri fonunda belə bir yanaşmanı məqbul hesab etmirəm. Arzu edirəm ki, Çinlə təhsil əlaqələrindən istifadə edərək Çin təcrübəsi öyrənilib ölkəmizdə tətbiq olunsun. Çinin son illərdə hərtərəfli sürətli inkişafı danılmaz faktdır. Hesab edirəm ki, bu inkişafın kökündə təhsilin və elmin yanaşı addımlaması hər ikisinin davamlı inkişafına təkan verdi. Belə bir təcrübədən yararlanmaq, sözün əsl mənasında, faydalı olardı. Arzu edərdim ki, təkcə ali məktəblər deyil, orta məktəblər də tədqiqata cəlb olunsun. Misal üçün Çinin elə orta məktəbləri var ki, onların dərsliklər tərtib edən mütəxəssislər komandası və hətta nəşriyyatları belə var. İnanıram ki, cənab Prezidentin bir neçə gün öncə imzaladığı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə fərmanı iki ölkənin təhsil təmaslarının inkişafına təkan verəcəkdir.

*– Gələcəklə bağlı hansı planlarınız var?*

– Bir elm adamı kimi Çində azərbaycanşünaslıq elminin yaradılması və inkişaf etdirilməsi əsas məqsədimdir. Bu uzunmüddətli bir prosesdir, addım-addım həyata keçirilməlidir. Hazırda Azərbaycan dilinin əsaslarını əks etdirən müvafiq dərsliklərim artıq hazırdır, yeni Çincə-Azərbaycanca, Azərbaycanca-Çincə orta ölçülü lüğətim tamamlanmaq üzrədir.Bundan əvvəl artıq 4 müxtəlif məqsədli lüğət kitabım nəşr olunmuşdur. Artıq nüfuzlu jurnallarda bir çox elmi məqalələrim dərc olunub, bu proses davamlı olacaq. Eyni zamanda Azərbaycan mədəniyyəti, təhsili, ədəbiyyatı, etnoqrafiyası ilə bağlı monoqrafiyalar yazılmaq prosesindədir. Bu monoqrafiyaları bir neçə mütəxəssislə birlikdə hazırlayırıq. Epidemiyadan dərhal sonra, həyat normal vəziyyətə dönən kimi Çində ilk Azərbaycanşünaslıq Beynəlxalq Elmi Konfransının keçirilməsi plandadır. Pekin Xarici Dillər Universitetində Azərbaycan Mərkəzinin yaradılması, Azərbaycan ədəbiyyatından seçmə əsərlərin Çin dilinə tərcüməsi və nəşri, Azərbaycan alimlərinin daha müntəzəm şəkildə Çinə dəvət olunması, mədəniyyət və tariximizi, o cümlədən müasir cəmiyyət quruculuğumuzu əks etdirən sərgilərin, Çində təhsil alan tələbələrimiz üçün tərcümə seminarlarının keçirilməsi, Çində anadan olub yaşayan azərbaycanlı uşaqlar üçün Pekindəki səfirliyimizlə birlikdə həftəsonları məktəbinin təşkili və digər məsələlər qarşıda duran əsas vəzifələrdir. Bir məsələni xüsusi qeyd etmək istəyirəm. Baxmayaraq ki, son illər Çin və Azərbaycan arasındakı münasibətlər tarixdə ən yüksək sürətlə inkişaf edir, amma Çində Azərbaycan haqqında məlumat kasadlığı hələ də mövcuddur. Elmi məlumat bazalarında üçüncü mənbələrdən əldə edilmiş məlumatlar yer alıb, bunlar da təəssüflər olsun ki, çox zaman həqiqəti əks etdirmir. Azərbaycan dili kafedrası olaraq, ən əsası bir Azərbaycan ziyalısı kimi bu elmi məlumat kasadlığını aradan qaldırmaq, Azərbaycan həqiqətlərini öz tərəfimizdən təqdim etmək fəaliyyətimin əsas istiqamətidir. Yuxarıda sadaladığım layihələr də məhz buna hesablanıb. Digər bir məsələ qədim Çin mənbələrində Azərbaycan haqqında tarixi məxəzlərin araşdırılmasıdır. Hər zaman qeyd olunur ki, Azərbaycan Qədim İpək Yolu vasitəsi ilə Çinlə tarixən münasibətdə olub, amma bu barədə dərindən heç bir araşdırma aparılmayıb, Çin mənbələrinə heç vaxt istinad olunmayıb. Mən bütün tarixçi alimlərimizi Çin mənbələrini araşdırmağa çağırıram. Bu məsələ ilə bağlı mən Çinin müvafiq elm və təhsil ocaqları ilə əməkdaşlıq edirəm. Arzu edirəm ki, daha çox alimlərimiz bu işə cəlb olunsun. Mən ixtisasca dilçi-çinşünasam. Bu sahədə də aktiv fəaliyyətdəyəm. Təkcə onu qeyd edim ki, 2019-cu ilin yay aylarında Heydər Əliyev Fondu tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetində Çin dilinin onlayn qaydada tədrisi təşəbbüsü irəli sürüldü, nəticədə mütəxəssis kimi dəvət olundum, artıq bir ilə yaxındır ki, Azərbaycan Dillər Universiteti nəzdində Konfutsi İnstitutunun çinli mütəxəssisi ilə birlikdə virtual olaraq Çin dilini tədris edirik. Bununla bərabər Çin ədəbiyyatından klassik əsərlərin Azərbaycan dilinə tərcüməsini, Çin dili və mədəniyyəti ilə bağlı araşdırma işləri həyata keçirirəm.

# "Virtual əlaçı"lar

## Sağlam rəqabət nəticəsində şagirdlər biliklərini sınağa çəkdilər

Niyazi RƏHİMOV

Aprel ayının 15-dən etibarən "Virtual məktəb" portalında keçirilən "Virtual əlaçı" bilik yarışması şagirdlərin böyük marağına səbəb oldu. Yarışmanın keçirilməsində əsas məqsəd məktəblilər arasında sağlam rəqabəti artırmaq və öyrənilən bilikləri yoxlamaq idi. Hər həftə keçirilən yarışmada şagirdlər portalda "Testlər" bölməsində verilən tapşırıqları həll edir və siniflər üçün təqdim edilmiş bu tapşırıqlara ən tez düzgün cavab verən ilk 10 şagird qalib elan olunurdu. Diqqətə çatdıraq ki, portala hər həftə həm Azərbaycan, həm də rus bölməsi üzrə yeni testlər əlavə edilirdi.


Rüstəm Mədətzadə


İlqarə Şahbazzadə


Leyla Rəsul


Tərlan Hüseynov

### "Elə bölgələr var ki, həmin bölgələrdən olan şagirdlər yarışmada daha aktiv iştirak edib"

Qeyd edək ki, VIII həftə keçirilən yarışmada ümumilikdə 160 şagird həftələr üzrə qalib elan olunub. Ölkə üzrə müxtəlif bölgələrdən şagirdlər yarışmada daha aktiv iştirak ediblər. Məsələn, qaliblər arasında 6 nəfər Gəncə şəhəri, 5 nəfər Mingəçevir şəhəri, 5 nəfər Lənkəran rayonu, 4 nəfər Qusar rayonu, 4 nəfər Masallı rayonu, 4 nəfər Ağstafa rayonu və 3 nəfər Şuşa rayonundan yarışmaya qoşulmuş və uğur qazanımışlar. Bununla yanaşı, yarışmada Ağdam, Cəlilabad, Laçın, Sumqayıt, Astara, Neftçala, Şəki, Qax, Kürdəmir, Bərdə, Cəlilabad, Göyçay, Şabran, Oğuz, Quba, Qubadlı, Şabran, Tovuz, Siyəzən, Ucar, Xaçmaz kimi bölgələrdən də qaliblər vardır.

### "Yarışmada 3-4 dəfə qalib olan şagirdlər də var"

Qusar rayonu 2 nömrəli orta məktəbin 11-ci sinif şagirdi - Səidə Verdiyeva yarışmada 4 dəfə qalib olub. Bundan başqa, Mingəçevir məktəblisi Rüstəm Mədətzadə 3 dəfə, Neftçala məktəblisi Fidan Zeynallı 2 dəfə, Bakı məktəblisi Validə Ağayeva 2 dəfə, Masallı məktəblisi İlqarə Şahbazzadə də 2 dəfə yarışmada qalib olanlardandır.

"Virtual əlaçı" yarışmasında evdə təhsil alan şagirdlər də iştirak edib. Portalda onlar üçün də test nümunələri hazırlanıb. Yarışmanın nəticələrinə görə Bakı şəhəri 219 nömrəli məktəbdə təhsil alan 6-cı sinif şagirdi Aslan Rəhimov I yarışmada virtual əlaçı seçilib.

"Virtual əlaçı" yarışmasında iştirak edən şagirdlərin yarışma ilə bağlı təəssüratlarını öyrənmək məqsədilə onlarla əlaqə saxladıq.

### "Əlaçı olmağı qarşıma məqsəd qoydum və buna nail oldum"

Yarışmada iki dəfə qalib olmuş Mingəçevir şəhər 13 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Rüstəm Mədətzadə bizimlə söhbətində bildirdi ki, yarışma onda xüsusi bir maraq oyadıb. O, Təhsil Nazirliyi tərəfindən yaradılan "Virtual məktəb" layihəsinin bu çətin dövrdə onların təhsildən geri qalmamasına böyük yardımçı olduğunu da sözlərinə əlavə edib: "Koronavirus pandemiyasının dünyanı bürüdüyü bir vaxtda Təhsil Nazirliyi biz şagirdlərin təhsildən geri qalmaması üçün məsafədən tədris imkanlarını genişləndirmək məqsədi ilə "Virtual məktəb" layihəsini təqdim etdi. Bununla da biz şagirdlər bu layihəyə qoşularaq təhsilimizi davam etdirdik. Öz müəllimlərimlə yanaşı, bu layihədəki digər müəllimlərin də dərslərini dinlədim, verilən test tapşırıqlarını işlədim. "Virtual əlaçı" yarışmasına qoşuldum. Məktəbdə də əlaçıyam. Burada da əlaçı olmağı qarşıma məqsəd qoydum və buna nail oldum. 3 dəfə "Virtual əlaçı" yarışmasının qalibi oldum. Buna görə mən Təhsil Nazirliyinə, əməyi keçən bütün müəllimlərimə təşəkkür edirəm. Onların sayəsində biz təhsildən geri qalmadıq, virtual təhsilin sayəsində tədris ilini müvəffəqiyyətlə başa vurduq".

### "İki dəfə qalib olmağım məndə hədsiz sevinc hissi yaratdı"

Masallı rayonu Bədəlan kənd tam orta məktəbinin 9-cu sinif şagirdi İlqarə Şahbazzadə də "Virtual əlaçı" yarışmasının əhəmiyyətindən söz açıb. O, pandemiya dövründə dərslərinə məsuliyyətlə yanaşdığını, bunun nəticəsində də iki dəfə yarışmanın qalibi olduğunu diqqətə çatdırıb: "Bütün fənlərə maraq göstərirəm. Məqsədim layiqli vətəndaş kimi yetişərək xalqıma, vətənimə xidmət göstərməkdir. Bildiyimiz kimi bütün bəşəriyyət ağır bir sınaq qarşısındadır. COVID-19 pandemiyası bizi doğma məktəbimizdən müvəqqəti ayırdı. Lakin təhsildən ayıra bilmədi. Virtual məktəbi bizim üçün əlçatan etdiyi üçün Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm. "Virtual əlaçı" bilik yarışmasında 2 dəfə qalib olmağım məndə hədsiz sevinc və inanılmaz qürur hissi yaratdı. Təhsil naziri Ceyhun Bayramovun virtual əlaçılarla videogörüşdə çıxış etməyim məsuliyyətimi daha da artırdı. Qalibiyyətim üçün müəllimlərimə, valideynlərimə təşəkkürümü bildirirəm. Karantində də əlaçı olmağın sevinci bir ayrıdır".

### "Dərslərimə məsuliyyətlə yanaşdığım üçün yarışmada qalib oldum"

Bakıdakı Humanitar fənlər təmayüllü məktəb-liseyin 5-ci sinif şagirdi Leyla Rəsul da yarışmada uğur qazananlardandır. O, "Virtual əlaçı" yarışmasında qalib olduğu üçün sevinc hissi keçirdiyini deyir: "Bildiyimiz kimi bütün dünyanı cənginə alan virusa görə məktəblərimiz bağlanmışdır. Şagirdlərin təhsildən geri qalmaması üçün yaradılan "Virtual məktəb" layihəsi bizə dərslərimizi öyrənməyə şərait yaratdı. Müəllimlərimiz bizə bu layihə çərçivəsində keçirilən "Virtual əlaçı" yarışması haqqında məlumat verdi. Mən də özümü bu yarışmada sınamaq qərarına gəldim. Dərslərimə məsuliyyətlə yanaşdığım üçün yarışmada qalib oldum. Mənimlə bərabər bizim məktəbimizdən iştirak edən 6-cı sinif şagirdi Fərid Baloğlanov da qalib oldu. Bütün bunlar göstərir ki, oxuyanda, yaxşı çalışanda hər şeyə nail olmaq olar. Bu çətin günlərdə bizə dəstək olan müəllimlərimizə, valideynlərimizə öz təşəkkürümü bildirmək istəyirəm. Arzu edirəm ki, sentyabrdan biz yenə əvvəlki kimi doğma məktəbimizdə, sinif yoldaşlarımızla birgə dərslərimizə davam edək".

### "Bu yarışma şagirdlər qarşısında rəqabəti gücləndirdi"

Astara rayonu Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin 11-ci sinif şagirdi Tərlan Hüseynov da pandemiya dövrünün təhsili ilə bağlı fikirlərini bizimlə bölüşüb: "Koronavirus pandemiyası ilə əlaqədar olaraq respublikamızın ərazisində karantin rejimi elan edildikdən qısa müddət sonra biz şagirdlərin təhsildən geri qalmaması üçün teledərslərə və "Virtual məktəb" layihəsinə start verildi. Mən də həm teledərslərdən, həm də "Virtual məktəb" layihəsindən yararlandım və "Virtual əlaçı" bilik yarışmasının birinci həftəsinin 11-ci sinif üzrə qalibi oldum. Düşünürəm ki, bu yarışma şagirdlər arasında rəqabəti gücləndirdi. Mən hər həftə yarışmanın cavablarını səbirsizliklə gözləyirdim. Eşidəndə ki, qaliblər arasında mənim də adım var, çox sevindim. Ümumiyyətlə, bir şagird kimi həmişə ölkəmizdə keçirilən müsabiqə və yarışlarda aktiv iştirak edirəm. Bu günlərdə uğurlarımın sırasına daha bir yenisini-bəlkə də ən vacibini əlavə etdim. Belə ki, kimya üzrə respublika fənn olimpiadasının qaliblərindən biri oldum. Şagirdlər üçün yaradılan bu şəraitlərə görə Təhsil Nazirliyinə, dəyərli müəllimlərimizə təşəkkürümü bildirirəm".

Yəqin mənimlə razılaşarsınız ki, bugünkü gəncliyimiz cəmiyyətin bütün sahələrində uğurlu fəaliyyəti ilə sözün yaxşı mənasında özünü təsdiq etməkdədir. Və xüsusilə yaradıcı gənclərin xoş sorağının dünyanın müxtəlif festivallarından, nüfuzlu tədbirlərindən gəlməsi olduqca qürurvericidir. Bəli, Azərbaycan gəncliyi istər yüksək təhsili və intellekti, istərsə də yaradıcılığı, kreativ düşüncəsi, bacarığı ilə digər ölkələrin gənclərindən heç də geri qalmır,bəlkə də artıq onları üstələməkdədir desək, məncə yanılmarıq. Qazanılan uğurların, əldə olunan nailiyyətlərin sayı isə çoxalmaqdadır. Çəkdiyi filmi ilə ABŞ-da təşkil olunan festivalda uğur qazanan İsmayıl Məlikov da son günlər adından söz etdirən belə istedadlı gənclərimizdən biridir.

Belə ki, Amerika Birləşmiş Ştatlarının Florida ştatında keçirilmiş 3-cü Cənub-Şərq Regional Film Festivalında həmyerlimiz İsmayıl Məlikovun çəkdiyi "UP" ("Yüksəkdən") adlı qısametrajlı film "Ən yaxşı eksperimental film və virtual reallıq" nominasiyası üzrə qalib elan olunub.



# Çəkdiyi filmlə ABŞ-da uğur qazanan azərbaycanlı tələbə

## *İsmayıl Məlikov:* "Ölkəmi layiqincə təmsil etməkdən fəxr duyuram"




Samirə KƏRİMOVA

### Məktəb illərindən rəsmə, vizual effektlərə və rəqəmsal incəsənətə xüsusi həvəs göstərib

İsmayılı yaxından tanıdıqca, əslində onun gələcəyinin parlaq olacağını sezmək o qədər də çətin deyil. 132-134 nömrəli Təhsil Kompleksinin məzunudur. Orta məktəbdə təhsil aldığı müddətdə bilikli, hərtərəfli dünyagörüşünə malik bir yeniyetmə kimi tanınıb. Oxuduğu təhsil müəssisəsində hər zaman fərqlənən, keçirilən tədbirlərdə, ictimai işlərdə fəallığı ilə seçilən şagirdlərdən sayılıb.Orta təhsilini "əla" qiymətlərlə başa vurub. Ən sevdiyi fənlər coğrafiya, riyaziyyat, rus və ingilis dilləri olub. Atası ixtisasca İT mütəxəssisi olduğundan lap kiçik yaşlarından onda kömpüterə böyük maraq yaranıb. Məktəb illərindən rəsmə, vizual effektlərə və rəqəmsal incəsənətə xüsusi həvəs göstərib.Təsadüfi deyil ki, hələ şagird ikən bəzi əsərləri xarici və yerli sərgilərdə yer almış, həmçinin ailəsi və dostları üçün musiqili kliplər və qısa filmlər də çəkmişdir.

İsmayıl məktəb illərini özünün ən gözəl və xoş xatirələrlə zəngin bir dövrü adlandırır: "Bu illərdə peşəkar müəllimlərimdən çox şey öyrəndim, maraq göstərdiyim sahələrdə bilik və bacarıqlarımı inkişaf etdirdim və gözəl dostlar qazandım".

Hazırda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının tələbəsi olan gənc məhz ali məktəbdəki təhsilin səviyyəsinin, buradakı təhsil mühitinin onu qane etdiyini söyləyir.

### "UP" filminin planetemizin müxtəlif yerlərindən tamaşaçı rəğbətini qazanması məni qürurlandırır

İqtisadiyyat üzrə təhsil alsa da İsmayılı kinematoqrafiya hər zaman özünə cəlb edib. Xüsusilə rəqəmsal texnologiyanın ən son imkanlarından istifadə etməklə müasir dünya kinosunun tələblərinə cavab verə biləcək filmlərin hazırlanması onu daha çox maraqlandırır. Məhz bu baxımdan özünü film çəkmək sahəsində sınamaq qərarına gəlir.

İsmayılı altı dəqiqə yarımlıq "UP" ("Yüksəkdən") filmin yaradılmasına isə ABŞ Milli Aeronavtika və Kosmos İdarəsi - NASA-nın kitabxanasında toplanılıb və Yer kürəsinin real peyk görüntülərini əks etdirən materiallar həvəsləndirib: "Düşündüm ki, 3D proqramlarından və bu sahədə əvvəllər tətbiq olunmamış üsullardan istifadə etsəm, orijinal bir film alına bilər. Qeyd edim ki, əvvəllər belə layihə heç yerdə olmayıb. Özümü sınamaq istədim.Təbiət görünüşü, mənzərələri üzərində eksperimentlərə başladım, rəqəmsal texnologiyaların daha mürəkkəb səviyyədə inteqrasiyasını təmin etməyi qarşıma məqsəd qoydum. Adi görünən yerlərə qeyri-adi bir baxışla nəzər salmaq istədim".

Gənc azərbaycanlı rejissor qeyd etdiyi kimi, müasir rəqəmsal texnologiyalardan və yeni metodlardan istifadə etməklə landşaft çəkilişləri üzərində eksperimentlər apararaq planetimizin kosmosdan bənzərsiz və cəzbedici mənzərələrini daha maraqlı, özünəməxsus tərzdə nümayiş etdirməyə nail olub. Belə bir tərzdə film çəkməkdə əsas məqsədlərindən biri də məhz insanları yaradıcı fəaliyyətə ruhlandırmaq, filmlərin çəkilişində qeyri-standart forma və modellərin axtarışına sövq etmək, eksperimental kino sənayesinin inkişafına dəstək verməkdir.

Film üzərində işlərini başa çatdırdıqdan sonra onu internet-platformaya yerləşdirib. Dostlarının məsləhəti ilə, həmçinin xaricdən daxil olan rəylərlə tanış olduqdan sonra filmi bəzi festivallara göndərib.

Onu da bildirək ki, İsmayıl Məlikov filmin rejissoru olmaqla yanaşı, həm prodüseri, eyni zamanda, xüsusi effektlər üzrə rəssamıdır. Ekran əsərində Litvadan olan bəstəkar Martinas Launun razılığı ilə onun "Eterniy" ("Sonsuzluq") kompozisiyasından istifadə edilib.

İsmayılın sözlərinə görə, bu səpgidə film hazırlamaqla həm də virtual reallıq sənayesinə bir yenilik gətiriməyi düşünüb. Film üzərində işləyərkən yeni bacarıqlara yiyələnməklə bərabər, böyük təcrübə əldə edib.

Festivala təqdim olunan filmlər tanınmış mütəxəssislər tərəfindən baxılaraq hərtərəfli təhlil olunub. Nəticədə münsiflər heyətinin qərarı ilə İsmayıl Məlikovun çəkdiyi "UP" qısametrajlı filmi qalib elan olunub.

On yeddi yaşlı İsmayılın "UP" filmi bütövlükdə onun üçün düşərli olub: "Doğrusu, filmi müsabiqələrə təqdim edəndə onun təşkilatçılar tərəfindən festival iştirakçısı kimi seçiminə əsla əmin deyildim.Təcrübəsizliyimi, festivallarda peşəkarların, illərlə bu işlə məşğul olanların qatılacağını anlayırdım. Amma özümü sınamaq istəyim üstün gəldi. Bu, mənim çəkdiyim ilk film olsa da artıq bir sıra uğurlar qazanıb. Belə ki, adıçəkilən film bu il İngiltərədə təşkil edilən "Lift-Off FTF Sessions" və "Flickfair" onlayn-müsabiqələrinin də finalçıları sırasında yer alıb, həmçinin Ukraynada keçirilən Xarkov Beynəlxalq İncəsənət və Səyahətlər Festivalının "şort-listinə" daxil edilib".

Və sonuncu qalibiyyəti isə ona sözlərlə ifadə edə bilməyəcək qədər gözəl anlar yaşadıb: "Çəkdiyim filmin Amerika festivalının yarımfinalına seçilməsi barədə məlumatı eşidəndə nə qədər həyəcan və sevinc hissi keçirdiyimi sözlə ifadə edə bilmirəm. Bunu qələbəm kimi dəyərləndirdim. Sonra filmin finalçı seçilməsi, daha sonra isə onun "Ən yaxşı eksperimental film və virtual reallıq" nominasiyası üzrə qalib çıxması, mənə həyatımın ən gözəl duyğularını yaşatdı. "UP" filminin planetemizin müxtəlif yerlərindən tamaşaçı rəğbətini qazanması məni qürurlandırır.

Bir Azərbaycan gənci olaraq ölkəmi layiqincə təmsil etməkdən fəxr duyuram".

İnsanların fiziki və ruhi sağlamlığı həmişə müdrik insanları - humanistləri, islahatçıları, maarifçiləri, maarifpərvərləri və məktəbdarları düşündürmüşdür. F.Bekon sağlam bədəni mehmanxana, xəstə bədəni xəstəxana, A.Bullard isə sağlam adamı özünün də xəbəri olmayan xəzinə sahibi hesab edirdi. A.Şopenhauer sağlam dilənçi olmağı xəstə varlı olmaqdan üstün tutaraq deyirdi: nə pul, nə şöhrət sağlamlığın yerini verə bilməz. Sağlamlığı ən böyük nemət hesab edən müdrik atalarımızın da fikirləri ibrətamizdir:"Sağlamlığın qədrini xəstələr bilər".




# Günümüzün qəhrəmanları

## Fiziki sağlamlığımız həkimlərdən, ruhi-mənəvi sağlamlığımız müəllimlərdən asılıdır



**Fərrux RÜSTƏMOV,**
*ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi*

Koronovirus pandemiyası ilə üz-üzə qaldığımız təhlükəli bir zamanda bu hissləri hər kəs həyati olaraq yaşayır, sağlam həyat uğrunda mübarizə aparır. Evdə qalmaqla, sağlam qalmağa çalışır. Pandemiya dünyanı qəflətən yaxaladı, dünya dövlətlərini və millətlərini çətin imtahan qarşısında qoydu, hər şey filmlərdəki kimi, birdən-birə baş verdi: işıqlar söndü, həyat al-əlvanlığını itirdi, gediş-gəliş kəsildi, qoruq və qadağalar başladı. Çində yayılan koronovirus pandemiyası bəşəriyyəti olum-ölüm dilemması qarşısında qoydu.

### Pandemiya ilə mübarizə: situasiyanın gərginliyi, çevik qərarların qəbulu

Tarixi insanlığın tarixi qədər qədim olan epidemiyaların, pandemiyaların ayrı-ayrı dövrlərdə milyonlarla insanın həyatına son qoyduğunu yaxşı bilirik. Məhz bütün bunlar nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəni bu bəlanın girdabından qurtarmaq üçün zəruru qabaqlayıcı tədbirlər həyata keçirildi. Hər zaman vətəndaşların yanında olan cənab Prezident əhalinin sağlamlığını qorumaq, iqtisadiyyatı ayaq üstə saxlamaq, xaricdəki soydaşlarımızı Vətənə gətirmək, əhalinin işsiz və həssas qrupuna maddi yardım etmək məqsədilə mühüm qərarlar qəbul etdi. Ali Baş Komandanın rəhbərliyi ilə ölkə vətəndaşları müsəlləh əsgərə çevrildi. Bakının və regionların ən müasir otelləri, istirahət zonaları karantində saxlanılanların sərəncamına verildi, bir sıra strukturlar gücləndirilmiş iş rejiminə keçirildi. Koronavirus təhlükəsi ilə əlaqədar insanlara "Evdə qal, həyatları xilas et!" çağırışı ilə müraciət edildi. Milyonların sağlamlığı naminə insanlar arxa cəbhəyə çəkildilər, evdə qalmalı oldular.

### Pandemiya ilə üz-üzə: həkimlərimizin şücaəti

Koronovirusa qarşı mübarizə isə davam edirdi. Bu amansız pandemiya ilə üz-üzə, göz-gözə dayananlar, 24 saat istirahət etmədən onunla mübarizə aparan, evini, ailəsini, hətta körpə uşaqlarını belə unudan ağ xalatlı həkimlər idi. Millətin taleyi ön cəbhənin "əsgərləri"nə - həkimlərə həvalə edilmişdi. Son günlərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın koronovirus xəstələri ilə bağlı verdiyi məlumat onu təsdiqləyir ki, həkimlərimiz sərhəddəki əsgərlərimiz kimi "döyüşdülər", qəhrəmanlıq nümayiş etdirdilər, hünər göstərdilər. Heç bir təşviş, təlaş keçirmədən soyuqqanlıqla xəstələrin yanında oldular, xoşxasiyyət və insanpərvərlik nümayiş etdirdilər, onların ağrılı həyatını birgə yaşadılar, hər bir xəstə ilə ölüb-dirildilər, ümidlərini itirmədilər. Həkimlərimizin əxlaqi mədəniyyəti, təcrübəsi onlara ruhi sakitliklərini saxlamağa kömək etdi. Hippokratın tövsiyələrinə əməl edərək xəstələr üçün ata, sağalmaqda olanlar üçün mühafizəçi, sağalanlar ilə dost oldular. Xəstələrin sağalmağa olan ümidlərini itməyə qoymadılar, onlara tibbi və mənəvi dəstək oldular, fədakarlıqları ilə Vətən qarşısında müqəddəs borclarını yerinə yetirdilər. Həyata qaytardıqları insanların ömür kitablarına adlarını yazdılar. Əziz oxucu, bu, həkim xoşbəxtliyi deyil, bəs nədir, qəhrəmanlıq deyil, bəs nədir? Xüsusi geyimlərin, eynəklərin və maskaların həkimlərin sifətlərində və alınlarında açdığı şırımlar onların şücaətinin nişanəsi, bugünkü həyatlarının bəzəyi deyil, bəs nədir? Həkimlərin fədakarlıqlarını minnətdarlıq hissi ilə dilə gətirən cənab Prezident İlham Əliyev demişdir: "Onlar doğrudan da böyük qəhrəmanlıq göstərirlər, öz həyatlarını, sağlamlıqlarını risk altına atırlar, ancaq öz vəzifə borcunu şərəflə yerinə yetirirlər."

### Ruhumuzun qoruyucu mələyi: Azərbaycan müəllimi

Həkimlər bədənimizin, müəllimlər ruhumuzun qoruyucu mələkləri olduğundan onların hər ikisinin də işi eyni dərəcədə əhəmiyyətli, dəyərli, məsuliyyətli və şərəflidir. İlahi bir missiyanın daşıyıcıları olan müəllimlər zaman-zaman öz üzərlərinə düşən məsuliyyəti ləyaqət və şərəflə yerinə yetirmişlər. İlk dünyəvi məktəb, ilk dərslik, ilk teatr, ilk mətbuat, ilk xeyriyyə cəmiyyətlərinin yaradılması, mətbuatda milli azadlıq və istiqlaliyyət toxumlarının səpilməsi, milli ideologiyanın formalaşdırılması, ilk milli dövlətin qurulması onların fədakar əməyinin məhsulu deyilmi? Millətin ruhunun həkimləri onlar deyilmi? Böyük Azərbaycan maarifçisi A.Səhhətdən soruşanda ki, Mirzə, siz həkimsiniz, bəs niyə uzun illərdir ki, müəllimlik edirsiniz? Abbas Səhhət isə cavabında deyir: "Mən müəllimlik etməklə, öz xalqımın ən böyük xəstəliyini, savadsızlığını müalicə edirəm".

Azərbaycan müəllimləri XX əsrin 20-60-cı illərində ölkədə savadsızlığın ləğvində, ümumi icbari ibtidai, yeddiillik, səkkizillik və orta təhsilin həyata keçirilməsində qəhrəmanlıq nümunəsi göstərdilər. Milləti milli-azadlıq mücadiləsinə hazırlaya bildilər. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində, imperiya təzyiqlərinə qarşı "Azadlıq" - deyərək meydanlara axışan, yalın əllə rus tanklarının qarşısını kəsən, sinəsini düşmən gülləsinə sipər edən gəncliyi Azərbaycan məktəbi, Azərbaycan müəllimi hazırlamamışdımı? Azərbaycanın elmi və siyasi elitası onların "sinfinin" şagirdləri olmayıblarmı? Müəllimin əməyi, fəaliyyəti Allahın xəlq etmə dühasının davamı olduğuna görə onun peşəsi müqəddəs hesab olunur. Cünki o, hava və qidadan sonra vücudumuzun ən çox ehtiyac duyduğu üçüncü şeyi- təhsil-tərbiyəni insanlara bəxş etməklə, onların əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafını təmin edir. Müəllimlər hər bir şagirdin yaşına, gücünə, fərdi və psixoloji xüsusiyyətlərinə, fiziki sağlamlığına, qabiliyyətinə uyğun olaraq onların şüuruna, hisslərinə və davranışına təsir göstərir. Məktəbli də bu tərbiyəvi təsir vasitəsi ilə dəyişir, kamilləşir, onda əqli, əxlaqi, etik, estetik, fiziki mədəniyyət formalaşır. Müəllim təhsil-tərbiyəsi ilə məşğul olduğu şagirdlərə gizlədilməsi mümkün olmayan gözəllik aşılayır, onların qəlbinə elə bir işıq salır ki, həmin nurla o, haqqı nahaqdan, yaxşını pisdən ayıra bilir. Müəllim şagirdinə həyat üçün zəruri olan elə bacarıq aşılayır ki, onlar istənilən situasiyada düzgün qərar qəbul edə bilsinlər. Görkəmli Azərbaycan maarifçisi S.M.Qənizadə isə müəllimliyi dünyanın ən şərəfli peşələrindən biri və birincisi hesab edərək yazırdı: "Bağ bağbansız keçinə bilmədiyi kimi, bəşəriyyət də müəllimsiz yaşaya bilməz".

### Azərbaycan müəllimləri imtahan verir

Elə bu səbəbdən də koronovirus pandemiyası ilə əlaqədar olaraq təhsil sistemində yaranan fors-major situasiyası Təhsil Nazirliyi tərəfindən ilk gündən düzgün dəyərləndirildi, təhsilin fasiləsizliyini təmin etmək məqsədilə tədrisin təşkilinin alternativ formalarından istifadəyə qərar verildi. Tədrisin onlayn rejimdə təşkili ilə bağlı verilən qərarlara müəllimlər adekvat cavab verdilər. Dərslərini "Zoom", "Microsoft Teams", "Skype" proqramından, e-poçt xidmətindən, "YouTube" kanalından istifadə etməklə təşkil etməyə başladılar. Müəllimlərin böyük əksəriyyəti qısa bir zaman kəsiyində öz fəaliyyətlərini onlayn rejimdə təşkil etməyə nail oldular. "Tele dərs" və "Virtul məktəb", "Dərsdən sonra" layihələri tədrisin təşkilinə yenilik kimi daxil olundu. Qısa bir zamanda peşəkar və səriştəli müəllimlərin köməyi ilə zəngin tədris resursları yaradıldı. Digər ali təhsil müəssisələrində olduğu kimi, ADPU-nun bütün struktur bölmələrində, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Kollecində, Şəki, Quba, Şamaxı, Ağcabədi və Cəlilabad filiallarında təhsil alan tələbələrin əksəriyyətinin onlayn dərslərə qoşulmasına nail olundu, tələbələrin hamısı elektron tədris materialları ilə təmin edildi.

### Formal, yoxsa məsafədən təhsil?

Təbii ki, məsafədən təhsil formal təhsili əvəz edə bilməz. Məktəblərin yaranması cəmiyyətin sosial tələbatından doğduğundan o cəmiyyətin iqtisadi, mədəni, sosial və siyasi tələblərinə cavab verən kadrlar hazırlamalı, humanist və insanpərvər təhsil mühiti formalaşdırmalıdır. Hələ vaxtı ilə akademik A.F.Bilibin yazırdı ki, maşın tez, dəqiq işləyə bilər, lakin maşından müdriklik gözləmək olmaz, bu keyfiyyətlər yalnız insana məxsusdur.

### Günümüzün qəhrəmanı: Azərbaycan müəllimi

Məqsədimiz formal təhsilin üstünlükləri ni və ya məsafədən təhsilin təşkilindəki çatışmazlıqları sadalamaq deyil, ekstriminal şəraitdə, onlayn rejimdə tədrisi normal səviyyədə təşkil etməyə nail olan günün qəhrəmanları - Azərbaycan müəllimləri ilə bağlı duyğularımızı dilə gətirmək, fəaliyyətlərini təqdir etməkdir. Ruhumuzun tərbiyəçisi olan müəllimlər də həkimlərimiz kimi fədakarlıqla çalışır, dərs nümunələri hazırlayır, slaydlar düzəldir, ailə-məişət qayğılarını unudaraq yorulmadan və həvəslə şagirdlərinə (tələbələrinə) tədris materialını çatdırmağa, əks-əlaqə qurmağa çalışırlar. Müəllimlər minlərlə şagirdlərə (tələbələrə) fənn proqramına uyğun olaraq dərs keçməklə yanaşı, həm də onlara mənəvi dəstək olur, təlaş və stres keçirməmələri üçün əllərindən gələni əsirgəmirlər. Bu gün onların hər birinin evi sinif otağını xatırladır, telefonları susmur: dəcəl uşaqlarının öhdəsindən gələ bilməyən valideynlər də, şagirdlər də, qonşular da onlardan məsləhət alır. Hələ öz uşaqlarını, ailə-məişət problemlərini demirəm. Cəsarətlə demək olar ki, belə bir çətin vəziyyətdə Azərbaycan müəllimi məktəbi evinə daşıya bildi.

Müəllimlər həm də imkanları daxilində ehtiyacı olan insanlara, aztəminatlı ailələrə qayğı göstərir, onlara dayaq olmağa çalışır, humanist layihələrin icrasında həvəslə iştirak edirlər. Şəhərlərdə olduğu kimi, kəndlərdə də müəllimlərin təşəbbüsü ilə geniş vüsət alan bu insanpərvər və humanist hərəkat onların fədakarlığının diqqətəlayiq ifadəsidir. Deməli, müəllimlər zaman-zaman insanlığı aydınlığa çıxaran işıq kimi bərq vurur, hər bir insanın həyatına mayaq olur, fədakarlıq nümayiş etdirir; müəllim, həkim, mühəndis, memar, alim, diplomat, əmək və müharibə qəhrəmanları yetişdirir, gələcəyin şairlərinə, yazıçılarına, incəsənət adamlarına qələm tutmağı öyrədir.

### Müəllim cəmiyyətin sütunudur

Amma biz cəmiyyət olaraq müəllimlərin həqiqi dəyərini verə bilirikmi? Təbii ki, yox! İstəsək də verə bilmərik, çünki dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla dəyər verilə bilməz (Sokrat). Bəs biz nə edirik? Müəllimləri sosial şəbəkələrdə qınaq obyektinə çeviririk, qarışqa boyda səhvlərini fil edirik, təhqir etməkdən çəkinmirik, nöqsanlarını ictimailəşdiririk. Mən demirəm ki, müəllimlərin hamısı idealdır və daşıdığı məsuliyyəti dərindən başa düşür. Müqəddəs peşə sahibləri arasında da öz işinin öhdəsindən gələ bilməyənlər, şagirdlərin gülünc hədəfinə çevrilənlər var. Biz belələrinin yarıtmaz fəaliyyətini ictimailəşdirməklə yalnız onları deyil, uşaqlarımızın təsəvvüründə formalaşan Azərbaycan müəllimi obrazını aşağılayırıq.

Müəllimliyi hər şeydən uca tutan ulu öndər Heydər Əliyev deyirdi ki, hər birimiz elmi dərəcəmizdən, biliyimizdən, təhsil səviyyəmizdən asılı olmayaraq, bütün nailiyyətlərimizə görə məktəbə, müəllimə borcluyuq.

### Allah sevənləri sevər

Əziz oxucular, insanın təhsili ibtidai və ya orta ola bilər, təhsillilik səviyyəsi onun cəmiyyətin dəyərli bir üzvünə çevrilməsinə mane ola bilməz. Amma insanın tərbiyəsi hökmən ali olmalıdır ki, xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl sahibi olsun, düzgün düşünsün. Düzgün düşünmək isə insanın fiziki və ruhi-mənəvi sağlamlığı ilə bağlıdır. Fiziki sağlamlığımız həkimlərdən, ruhi-mənəvi sağlamlığımız müəllimlərdən asılıdır. Sağlamlığınızı qoruduğunuz kimi onları da qoruyun, sağlamlığınızı sevdiyiniz kimi onları da sevin, ehtiram və etimad göstərin.

Allah sevənləri sevər.

- Böyük Azərbaycan maarifçisi A.Səhhətdən soruşanda ki, Mirzə, siz həkimsiniz, bəs niyə uzun illərdir ki, müəllimlik edirsiniz? Abbas Səhhət isə cavabında deyir: "Mən müəllimlik etməklə, öz xalqımın ən böyük xəstəliyini, savadsızlığını müalicə edirəm".
- Koronovirus pandemiyası ilə əlaqədar olaraq təhsil sistemində yaranan fors-major situasiyası Təhsil Nazirliyi tərəfindən ilk gündən düzgün dəyərləndirildi, təhsilin fasiləsizliyini təmin etmək məqsədilə tədrisin təşkilinin alternativ formalarından istifadəyə qərar verildi. Tədrisin onlayn rejimdə təşkili ilə bağlı verilən qərarlara müəllimlər adekvat cavab verdilər. Dərslərini "Zoom", "Microsoft Teams", "Skype" proqramından, e-poçt xidmətindən, "YouTube" kanalından istifadə etməklə təşkil etməyə başladılar.
- Digər ali təhsil müəssisələrində olduğu kimi, ADPU-nun bütün struktur bölmələrində, o cümlədən Azərbaycan Dövlət Pedaqoji Kollecində, Şəki, Quba, Şamaxı, Ağcabədi və Cəlilabad filiallarında təhsil alan tələbələrin əksəriyyətinin onlayn dərslərə qoşulmasına nail olundu, tələbələrin hamısı elektron tədris materialları ilə təmin edildi.
- Ruhumuzun tərbiyəçisi olan müəllimlər də həkimlərimiz kimi fədakarlıqla çalışır, dərs nümunələri hazırlayır, slaydlar düzəldir, ailə-məişət qayğılarını unudaraq yorulmadan və həvəslə şagirdlərinə (tələbələrinə) tədris materialını çatdırmağa, əks-əlaqə qurmağa çalışırlar. Müəllimlər minlərlə şagirdlərə (tələbələrə) fənn proqramına uyğun olaraq dərs keçməklə yanaşı, həm də onlara mənəvi dəstək olur, təlaş və stres keçirməmələri üçün əllərindən gələni əsirgəmirlər. Bu gün onların hər birinin evi sinif otağını xatırladır, telefonları susmur: dəcəl uşaqlarının öhdəsindən gələ bilməyən valideynlər də, şagirdlər də, qonşular da onlardan məsləhət alır. Hələ öz uşaqlarını, ailə-məişət problemlərini demirəm. Cəsarətlə demək olar ki, belə bir çətin vəziyyətdə Azərbaycan müəllimi məktəbi evinə daşıya bildi.
- Müəllimlər həm də imkanları daxilində ehtiyacı olan insanlara, aztəminatlı ailələrə qayğı göstərir, onlara dayaq olmağa çalışır, humanist layihələrin icrasında həvəslə iştirak edirlər. Şəhərlərdə olduğu kimi, kəndlərdə də müəllimlərin təşəbbüsü ilə geniş vüsət alan bu insanpərvər və humanist hərəkat onların fədakarlığının diqqətəlayiq ifadəsidir.

# Heydər Əliyev dastanı



**Mahirə NAĞIQIZI,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor*

Min illəri keçib gələn millətin,
Kitablarda adı pəsdən oxunur.
O yaşayan məşəqqətin, zillətin,
Tarixi tərs, altdan-üstdən oxunur.

Tale küskün, düşmən zalım, umud yox,
Ər gərəkdi: ürək isti, baş soyuq.
Ha deyək ki, filan-filan oğluyuq,
Əhval olan halı qəsdən oxunur.

Haqq işini görmək üçün qayıtdın,
Haqqa güman vermək üçün qayıtdın.
Xalqa inam vermək üçün qayıtdın,
Bu tarixdir, bir nəfəsdən oxunur.

Sən qaytardın perik düşən gümanı,
Sən gətirdin içimizə inamı.
Bu tarixdir, hamı bilir olanı,
Yazılanlar uca səsdən oxunur.

Qurban olum torpağa da, daşa da,
Sən verdiyin ümid ilə yaşada.
Görəydik ki, Sarı bülbül Şuşada,
Avazlanır, çıxıb yasdan oxunur.

Qarabağda havalanar dost ünü,
İlham bizə gətirəcək o günü.
Görəcəyik xalq qurubdu düyünü,
Heydər baba - deyib dastan oxunur.

# Al bayrağım



Xalqımızın gəldiyi yolun sinə dəftərin,
Göyərən arzuları, al bayrağım, dalğalan!
Yüksəlişin-əlacı sağalmamış dərdlərin,
O dərdləri yadına sal, bayrağım, dalğalan!

Min illərdir içimiz rənglərini göyərdir,
Yaşamaq haqqımızın əbədi rəmzisən bir.
Ruhumuz-qəlbimizdə asılan dirəyindir,
O dirəkdə uca dur, qal, bayrağım, dalğalan!

Qəlbimizdə oxunan türkülərlə yarandın,
Altaylardan salınan körpülərlə yarandın.
Sabahlara aparan ümidlərlə yarandın,
Al bizləri qoynuna, al, bayrağım, dalğalan!

Qılıncında Babəkin, Nizaminin şeirində,
Yaşadın susmayacaq vətən nəğmələrində.
Qarşında baş əyən var dünyanın hər yerində,
Oğulun var, qızın var-var, bayrağım, dalğalan!

Hopub, bağrına hopub, hopub şəhid qanları,
Sənə bürünüb gəlib min-min yurd qurbanları.
Dədə əmanətisən-qızları, oğlanları
Bu vətənin səninçün yar-bayrağım, dalğalan!

Azərbaycan əsgəri qanım halaldır-dedi.
Ucada dayanmağın bir cəh-cəlaldır-dedi.
Gücünün qarşında düşmən olan əyildi,
O bilir ki, olacaq xar, bayrağım, dalğalan!

# Bir ömür himni

Elə bilmə yolu özüm seçmişəm,
Hardan adlamışam, izin apaydın.
Bu boyda yolları nə cür keçmişəm,
Keçə bilərdimmi sən olmasaydın...

Sənin nurunuydu qaranlıqların,
Götürdü xofunu, vahiməsinin.
Ötüb də sədlərin, hər sınaqların,
Gəldim havasına sənin səsinin.

Səninlə qurduğum dünyam rəngarəng,
Hər gələn sabahım ümidnən dolu.
Bir çıxdıq qəlb verib, ilqar kəsərək,
Beləcə başladı ömrümün yolu.

Allahdan aşağı, bəndədən uca,
Şəklini həkk etdin bağrıma mənim.

Atdığın addımın başlanğıcında,
Birinci sən gəldin ağlıma mənim.

Özümüz yaratdıq, başqa cür hər kəs,
Min baxa, yanından ötər bu dünya.
Udduğum havasan, çəkdiyim nəfəs,
Səndən o tərəfə bitər bu dünya.

Ay ömrüm, bu dünya sənlə böyükdür,
Həyatla ölümün sərhədisən sən.
Sənin gözlərinin qüssəsi yükdür,
Fərəhi dərmandır mənə bilirsən.

Elə bilmə yolu özüm seçmişəm,
Hardan adlamışam, izin apaydın.
Bu boyda yolları nə cür keçmişəm,
Keçə bilərdimmi sən olmasaydın...

# Anamla söhbət

Yenə açıq-aydın səsdə qulağın,
Yenə baxışların yollarda qalıb.
Ay ana, qocalan sən olmadın ki,
Ala bilmədiyin kamın qocalıb...

O həmən Əlidir, bu Vəli, bu mən,
Yoxla, həmənkidir, həmən kökləri.
Elə bil heç dünən sən deyil idin,
Birbəbir yoxlayan gündəlikləri.

Həmən gündəlikdir göz qabağında,
Yenə bax qiymətlər yazılıb necə.
Biz belə yaşadıq, gündəliklərə,
Dedik ki, baxacaq ağam indicə.

Denən, dəyişməyə gücümüzmü var,
Hökmümü Tanrının mənim, ya sənin.
Bilib də yolunnan getdi uşaqlar,
Ağamın, anamın, Həsən Mirzənin.

Məhəmməd şahındır sənin də, billəm,
Cəlil murazındır- bir ocaq andın.
Tahirə, Xalidə, Validə- deyib,
Alidə adınnan oda qalandın.

Tanrı qismətiydi yazılarımız,
Hərə bir naxışda düşdü ilməyə.
İllər elə keçdi nağıl diliynən,
Macal tapmadın ki alma bölməyə.

# Sən olaydın

Ah, olaydım eşq sultanı,
Yar, fərmanım sən olaydın.
Dərd alaydı şirin canı,
Tək dərmanım sən olaydın.

Dağdan-daşdan ataydılar,
Qul cərgəsinə qataydılar.
Kölə kimi sataydılar,
Hökmranım sən olaydın.

Açılmaz sabah gümansız,
Gümansıza baxt amansız.
Olaydım dinsiz- imansız,
Din-imanım sən olaydın.

Anam Dərələyəz qızı,
Xalxalda doğdu ulduzu.

Əriyəydi həsrət buzu,
Yar, olanım sən olaydın.

Dedilər dünya fanidi,
Hissim içimdə qarıdı.
Yolum göylərə sarıdı,
Asimanım sən olaydın.

Dünya mərdindən böyükdü,
İyid dərdinnən böyükdü.
Gümansız baxt ağır yükdü,
Son gümanım sən olaydın.

Nağıqızı, dörd qardaşım,
Bir oğulum qaşım-daşım.
Ana, sən mənim sirdaşım,
And- amanım sən olaydın.

# "Kərəmi"

Yüz illərdi ruhumuzla yol gəlir,
Nakam eşqə başdaşıdı "Kərəmi".
Qoşulubdu karvanına kədərin,
Yorulmadı, qəm daşıdı "Kərəmi"

Bu dünyanın hikmətini bilən az,
Bu dünyada ağlayan çox, gülən az.
Deyirlər ki, axar, axar, qurumaz,
Başdan- başa göz yaşıdı "Kərəmi".

O, vüsalsız məhəbbətin nərəsi,
Ancaq Tanrı mərhəməti çarəsi.

Qərarlaşan "Dilqəmi"də pərdəsi.
Bu dünyaynan savaşıdı "Kərəmi".

Onda itər, onda doğar gümanın,
Onda çatar haqq yanına üryanın.
Açılmayan tilsimidir dünyanın
Göy üzünün yer daşıdı "Kərəmi".

Mizrab sazın dərdlərini oynadar,
İçindəki ruhu, eşqi qaynadar.
İniltinin özündə bir ümid var,
Təsəllinin yoldaşıdı "Kərəmi".

# Dünya

Yol gələr, yol gedər mənzilə çatmaz,
Yollarda başlayar, bitər bu dünya.
Çapardı arifə, marığa yatmaz,
Kimiyə alovdur, kimə su dünya.

Gedənə deməzlər hər nə var gətir,
Fələkdən ummazlar: düz ilqar gətir.
Arandan tut gətir, dağdan qar gətir,
Ümidli xəstənin arzusu dünya.

Ümiddən düşməyən dilək yaratdı,
O, Allah yaratdı, mələk yaratdı.

Ev qurdu, bağ saldı- gerçək yaratdı,
Özünü gəzənin duyğusu- dünya.

Kimdi bağçasında kimə dərd əkən,
Kimdi qismətindən bezən, əl çəkən?
Mənzilə yollanan, yolda görükən,
İnsanın pusqusu, ovçusu dünya.

Nə salam verəndir, nə salam alan,
Ovqatı ötəri, vüsalı yalan.
Mahirə, söylə ki, bizlərə qalan,
Bir addı, onun da suçlusu dünya.

# Sevgi, inam və məsuliyyət mübarizə yolu kimi



Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının təşəbbüsü ilə keçirilən "Virusla döyüşən həyatımız" adlı onlayn esse müsabiqəsinin qalibi (birinci yer) "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" ixtisasının tələbəsi Jalə Məmmədovanın təqdim etdiyi esse.

Dünya təhlükədədir, başının üstündə qara buludlar var. Artıq bir neçə aydır ki o, amansız bir müharibədədir. Bəli, müharibə. Bu, elə bir müharibədir ki, burada dünya özünə qarşı yox, inadkar virusa qarşı mübarizə aparır. Bir neçə aydır ki, dünya xalqları bir-birini öldürməyə yox, yaşatmağa çalışır, bir neçə aydır ki, dünya xalqları birlik olub virusa qarşı birgə mübarizə aparır.

Koronavirus hər kəsi öz caynağına alır, hər kəsi öz zəhərinə tuş etmək istəyir. İlk dəfə Çinin Uhan şəhərindəki bazarda balıq məhsulları satan bir qadının yoluxduğu bu virus indi qadın, kişi, uşaq, cavan, yaşlı demədən hər kəsi caynağına almağa çalışır.

Onun zəhəri onun özüdür, onun silahı özüdür. Ey insan oğlu, qorxma! Bu, sənin mübarizəndir, bu, sənin sınağındır. Bəli, biz virusla döyüşürük, sən düşünürsən ki, sən əliboşsan, sənin silahın yoxdur, uduzacaqsan. Yox, bu, belə deyil. SİLAHSIZ MÜHARİBƏ OLMUR!!!

Sənin silahın sevgindir-ailənə, xalqına, dövlətinə, insanlığa, bəşəriyyətə, ən əsası özünə olan sevgindir.

Sənin silahın sənin inamındır-ailənə, xalqına, dövlətinə, ən əsası özünə qarşı olan inamındır.

Sənin silahın sənin məsuliyyətindir-ailənə, xalqına, dövlətinə, ən əsası özünə qarşı olan məsuliyyətindir.

O nə qədər amansızdırsa, sən də o qədər qərarlı ol! Bu 3 silahından möhkəm yapış: Sevgini, inamını, məsuliyyətini heç vaxt itirmə! Düzdür, sən məktəbə, universitetə, hətta bəlkə işə gedə bilmirsən, amma bir də yaxşı tərəfindən bax, sənin sevdiklərinə yetərincə vaxt ayırmağa zamanın var, öz qabiliyyətlərini inkişaf etdirmək üçün yetərincə zamanın var. Dərsə gedə bilməsən də distant təhsil almaq imkanın var. Bu, sənin əlinə düşən şansdır, onu yaxşı qiymətləndir, zamanını boşa xərcləmə.

Sən tək deyilsən. Sənin yeddi milyarddan çox silahdaşın var. Sənin Prezidentin - İlham Əliyev kimi Ali Baş Komandanın var. Elə isə onun göstərişlərinə əməl et və əmrlərinə tabe ol. Bunu unutma, bütün bəşəriyyətin taleyi sənin əlindədir, bəşəriyyətin xilası üçün EVDƏ QAL!

Sevginə sarıl, inamını artır və məsuliyyətini dərk et!

Qəhrəman olmaq istəyirsənsə, EVDƏ QAL!!!

Hələlik evdə qal! Hər şey mütləq yaxşılığa doğru dəyişəcək…

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## The British flag

By Jon Porter

The British flag is one of the most famous country flags in the world. It has a long and complicated history, and these days it seems to be more than just a national flag: it's part of international fashion.

The United Kingdom consists of England, Scotland, Wales and Northern Ireland. Each of these independent countries had (and still has) its own flag. The Scottish flag is a diagonal white cross on blue. The English flag is a red cross on white. The Northern Irish flag is a diagonal red cross on white. In 1603 King James VI of Scotland also became King of England and Ireland. This 'united', or brought together, the three countries, so he created a flag to show this union. The British flag – or 'Union Jack' – is red, white and blue and uses all the above crosses together, making the three countries one: the United Kingdom. Actually, it's *four* countries. The Welsh flag is a red dragon, which is not in the British flag, but Wales is also included in the *red* cross of England, and therefore the United Kingdom.

It's not just the history of the flag that's complicated. In the Olympic Games, the team is 'Great Britain and Northern Ireland', and the flag is the British flag. In the World Cup and other international football tournaments, however, England, Scotland, Wales and Northern Ireland play as individual teams, each using their own flag. In 2016, for example, England played Wales in the European football championships in France, with England supporters flying their English flags while Welsh supporters flew their 'Welsh dragon' flags. That same summer, however, Welsh and English athletes were competing together on the same British team at the Rio de Janeiro Olympic Games!

These days it seems more than just a national flag. You can see it around the world on 'everyday' clothes, like T-shirts. Do people wear it knowing that it is the British flag, or is it just something fashionable that looks good? I'm not sure – probably a bit of both. It does look nice!



### Activity 1

Match the country (1–5) with the flag (a–e).

1. England; 2. Northern Ireland; 3. Scotland; 4. the United Kingdom; 5. Wales

a. b. c. d. e.



### Activity 2

True, false or not given?

1. The British flag was created in the 16th century.
2. Wales is not part of the United Kingdom.
3. England are better than Wales at football.
4. England, Scotland, Wales and Northern Ireland compete against each other at football tournaments.
5. You usually only see the British flag at the Olympic Games and at football tournaments.

### Activity 3

Look at '**it**' in these two sentences from the text:

**a.** ***It's** not just the history of the flag that's complicated.*
**b.** ***It** does look nice.*

'**It**' is a pronoun. Pronouns replace nouns that have just been used. But there is another use of '**it**'. If there is no subject before the verb because the real subject comes later in the sentence, we need to use '**it**' as a 'dummy' or 'empty' subject. Which of the uses of '**it**' above, a or b, is:

1. a 'dummy' subject where the real subject comes later in the sentence?
2. to replace a noun (flag)?

### Activity 4

We also use the 'dummy' subject '**it**' to talk about the weather or the time. '*It's getting late*' (time). '*It's very cloudy today*' (weather). There are no true 'subjects' here. We're just talking about the time and the weather.

Match the sentences (1–6) with the sentences (a–f) to complete the idea.

1. I don't like that film.
2. It's a nice day.
3. It's going to be a great final.
4. It's terrible what happened.
5. The rich get richer and the poor get poorer.
6. We haven't even left the hotel yet.

**a.** He had his whole life in front of him.
**b.** It's just not fair.
**c.** It rains all the time here.
**d.** It's very scary and it gave me nightmares.
**e.** Shall we go to the beach?
**f.** These have been the best two countries in the tournament.

### Activity 5

What's your country flag like? Does it have a long history? Is that history shown in the flag?

**Answers**

**Activity 1**
1. a; 2. c; 3. b; 4. e; 5. d

**Activity 2**
1. False (F); 2. F; 3. Not given (NG); 4. True; 5. F

**Activity 3**
1. a; 2. b

**Activity 4**
1. d; 2. e; 3. f; 4. a; 5. b; 6. c

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017



Maykl Faradey

Orta məktəbdə fizikanın tədrisinə başlayarkən ona belə tərif verilir: "Fizika təbiət haqqında elmdir". Yaxşı nəzər yetirdikdə hər şeyin - materiyanın və hərəkətin fizikanın əhatəsində olduğunu dərk etmək elə də çətin deyil.

Təbiətin zənginliyi heç kəsdə şübhə doğurmur. Elə buna görə də orta məktəbdə fizikanın dərindən öyrənilməsi tamamlana bilməz. Burada fundament rolunu oynayan əsas anlayışlar, prinsiplər və qanunlar öyrədilir. Mühüm bir cəhəti nəzərə almaq lazımdır ki, bu elm sahəsində maraq orta məktəbdən başlayır. Bu məsələnin həllinin yaxşı və pis olması orta məktəbin, fizika müəlliminin hazırlıq səviyyəsindən, pedaqoji ustalığından asılıdır.



Xristian Ersted

# Maqnit və elektromaqnit induksiya hadisəsi necə kəşf olundu?

**Tacəddin VAHİDOV**
*ADPU-nun dosenti*

Burada bir haşiyə çıxacağam. Bəzən eşidirəm, "Yüksək elmlidir, dərsi yaxşı deyə bilmir". Mən isə 50 ildən çox orta məktəbdə, texnikumda, televiziyada dərs aparmış müəllim kimi bu fikri təkzib edirəm, heç cür ola bilməz ki, bir hadisəni mükəmməl biləsən, ancaq onu müsahibinə çatdıra bilməyəsən. Bir çox hallarda orta məktəb şagirdləri öz müəllimlərinə oxşamağa, gələcəkdə onun kimi olmağa çalışır, peşə ixtisasını da buna uyğun seçirlər.

Bax, bu cəhət fizikaya marağı artırar. Şagird biləndə ki, fizika təbiət haqqında elmdir, təbiətdən kənarda heç bir şeyi təsəvvür belə etmək olmur, onun bu elm sahəsinə marağı artar. Bu vəzifənin müvəffəqiyyəti üçün müəllimin elmi hazırlığı yüksək, psixoloji və pedaqoji ustalığı mükəmməl olmalıdır. Şagird tələbkarlıqda bir qayğı da duyursa, o verilən tapşırığı yerinə yetirməyə məsuliyyətlə yanaşır.

Fizikada elmi anlayışlar, kəşflər, prinsiplər, qanunlar o qədər çoxdur ki, onlar haqqında məlumatı nəinki bir məqaləyə, heç yüzlərlə qalın həcmli kitaba yazıb başa çatdırmaq olmaz. Ona görə də seçmə yolu ilə bir-iki kəşf barədə yığcam məlumatı oxucuya çatdırmağı faydalı hesab edirik.

## Fizika və dialektika

Dialektikada inkişaf əksliklərin vəhdəti və mübarizəsinə nəzər yetirək.

Fizika baxımından "Atomun quruluşu" mövzusunu maraqlı bildik. Atom nüvəsində müsbət yüklü proton, ətrafında isə müəyyən radiuslu orbitdə hərəkət edən mənfi yüklü elektrondan ibarət olan dayanıqlı sistemdir.

Hesablamalarla müəyyən edilmişdir ki, atom sistemində Kulon qüvvəsi qravitasiya qüvvəsindən 1039 dəfə böyükdür. Bəs, necə olur ki, həm kütləcə elektrondan minlərlə dəfə çox olan nüvə Kulon qüvvəsi ilə elektronu öz üzərinə salmır?

Bu paradoksa səbəb nədir? Bax, bu sual alimləri belə qənaətə gəlməyə vadar etdi: Deməli, nüvə daxilində elə qüvvə mövcuddur ki, o yuxarıda qeyd etdiyimiz hadisəyə imkan vermir. Bax, nüvə qüvvəsi məsələsi belə aktual oldu. Buradaca qısa şəkildə simmetriyaya nəzər yetirək və onun elmi kəşf üçün nə dərəcədə əhəmiyyətli olduğunu ekskurs edək. Demokrit atom haqqında ilk fikri söyləyəndən sonra atom haqqında X əsrdə Ə.Bəhməniyar özünün "At-təhsil" əsərinin üçüncü hissəsi - Mövcud olan şeylər ilə məlumat verir. Ancaq elmdə bu məsələ ingilis alimi Ernest Rezerfordun adı ilə bağlıdır. O, 1911-ci ildə atomun planetar modelini vermişdir. Sonradan Bor və başqaları bir sıra əlavələr etsələr də hazırda atomun planetar modeli Rezerfordun adına yazılmışdır.

## Fizika, dialektika və simmetriya haqqında

## Bəs, elektronun cütü haradadır?

A.Eynşteyn Tanrının hər şeyi cüt yaratdığı qənaətində idi. Bəs, elektronun cütü haradadır? Proton onun cütü ola bilməz, çünki onun kütləsi elektronun kütləsindən çox-çox böyükdür. Bu problemin həllinə Çedvikin 1932-ci ildə neytronu kəşf etməsi kömək etdi.

Fəlsəfi qanuna görə, materiya hərəkətsiz mövcud ola bilməz. Ona görə də nüvədəki proton və neytron arasındakı əlaqə hər hansı zərrəcik tərəfindən onların hərəkətliliyini yaradır. Bu zərrəciyin axtarılmasına başlandı. 1934-cü ildə Dirak və İvanenko bu zərrəciyin nüvədə kütləsi elektronun kütləsinə, yükü isə müsbət olmaqla elektronun yükünə bərabər olan pozitronu kəşf etdilər.

Belə cütlüyü 1821-ci ildə Tomas Zeebekin istiliyin birbaşa elektrik yaratması - termoelektrik effektini və 1834-cü ildə Jan Peltyenin elektrikin birbaşa istilik və soyuqluq yaratması - "Peltye effekti"ni kəşf etməsi ilə görmək olar.

## Danimarkalı fizikin kəşfi

Bir mühüm kəşfin barəsində də bu aspektdə oxucuya məlumat verməyi lazım bildim. Bu kəşfə qədər elektrikdən qalvanik elementlərdən istifadə edilirdi. 1820-ci ildə Danimarka fiziki Xristian Ersted cərəyan keçən naqilin ətrafında maqnit sahəsi yarandığını kəşf etdi.

Bu kəşf alimlər qarşısında belə bir sual qoydu: "əgər elektrik maqnit yarada bilirsə, maqnit də elektrik yarada bilərmi?".

Bu problem üzərində bir çox alimlər çalışmağa səy göstərdilər. Fransız fiziki Amper, alman alimi Kollodon, rus alimi Lens və ingilis alimi M.Faradey bu cərgədə idilər.

Bu kəşfin sahibi ingilis alimi Maykl Faradey oldu. Elm tarixində yazılanlara görə, Faradey bu məqsədlə cibində 11 il maqnit parçası gəzdirib. Həm də yazılır ki, o, çox inadkar alim olub. Tədqiqatda onunla köməkçi kimi işləyənlərdən biri soruşur: - "Ser, 100-cü təcrübə baş tutmasa nə edəcəyik?". Faradey isə "101-cini qoyacağıq"- deyir. Nəhayət, 1831-ci il avqust ayının 27-də onun bu tədqiqatı müvəffəqiyyətlə başa çatır, Faradey elektromaqnit induksiya hadisəsini kəşf edir.

## "Mənim ən böyük kəşfim Faradeydir"

Maykl Faradey elə bir ciddi təhsil görməmişdi. O, gəmilərin birində ocaqçı işlədiyi vaxtlarda Hemfri Devi kimya ilə maraqlananlara sistemli mühazirələr oxuyurdu. Mühazirələrin birində o, Faradeylə maraqlanır, məlum olur ki, Faradey adi ocaqçıdır. Bu vaxt Devi Faradeyi laboratoriyaya pereperator götürür. Faradey Devi olmayan vaxtlarda onun təcrübələrini təkrar edib öyrənir. Bir qədər sonra o elektroliz hadisəsini Deviyə nümayiş etdirir (1834). Bundan sonra o, Devinin laboratoriyasında elmi əməkdaş kimi çalışır.

Sonradan elmi ictimaiyyətdə Deviyə belə bir sual verilir: "Sənin ən böyük kəşfin hansıdır?". Devi isə: "Mənim ən böyük kəşfim Faradeydir" deyə cavab verir.

Bu yazıda çox qısa bildirmək istəyirik ki, təbiətdə heç şey yenidən yaranmır, materiya, hərəkət yalnız bir şəkildən başqa şəklə çevrilir, təbiətdə kəşf edilməmiş çoxlu problemlər var. Alimin, tədqiqatçının fəaliyyəti həmin gizlində qalan materiyanın, hərəkətin üzə çıxarılması ilə bağlıdır.

Alimlər, tədqiqatçılar çətin, daşlı-kəsəkli yolları qət etməklə bizə elmi nəticələr bəxş edirlər.

Elə bu alimlərin fəaliyyətinin nəticəsidir ki, bəşəriyyət bu gün elmin məhsuldar qüvvəyə çevrildiyini görür.

Nağıllarda sehrli çubuq, sehrli güzgü, sehrli xalça bu gün həqiqətdə radioya, televiziyaya, kompüterlərə, təyyarələrə, kosmik gəmilərə çevrilmişdir.

Şübhə yoxdur ki, elm gələcəkdə insanlara daha çox şey bəxş edəcəkdir.

Bunu gənc nəsil bilməli və elmə yiyələnməyə daha ciddi səy göstərməlidir. Məktəblərin vəzifəsi gəncləri bu istiqamətə yönəltməkdən ibarət olmalıdır.

Yazının sonunu dahi Nizaminin
*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heçə kəsə üstünlük eyləyə bilməz*
beyti ilə bitiririk.

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6204, **Sifariş** 1581

**Məsul növbətçi:** O.Mustafayev

# Pandemiya uşaq əməyindən istifadə hallarının artmasına səbəb ola bilər

unicef

**Oruc MUSTAFAYEV**

BMT-nin Uşaq Fondu (UNICEF) və Beynəlxalq Əmək Təşkilatı (BƏT) yeni araşdırmanın nəticələrini dərc edib. Tədqiqata əsasən, son 20 ildə işləyən uşaq və yeniyetmələrin sayı COVID -19 pandemiyası nəticəsində ilk dəfə olaraq kəskin şəkildə arta bilər. Söhbət həm də milyonlarla yetkinlik yaşına çatmamış uşaqlardan gedir.

"2000-ci ildən işləyən uşaq və yeniyetmələrin sayı 94 milyon azalıb, lakin pandemiya bu nailiyyətlərə zərbə vura bilər. Hazırkı böhran yoxsulluğun artması ilə nəticələnir və bir çox ailələr uşaqları maddi qazanca məcbur edirlər", - deyə BMT-nin məlumatında bildirilir.

UNICEF -in icraçı direktoru Henrietta Forun sözlərinə görə, böhran zamanı ailələr yaşamaq üçün istənilən yol axtarmağa məcburdurlar və uşaq əməyi onlardan biridir. Karantinə görə 130 ölkədə bir milyard uşaq təhsildən məhrum edilib. UNICEF məktəb dərslərinin bərpa olunacağı təqdirdə belə, valideynlərin öz uşaqlarını məktəbə qaytara bilməyəcəyindən narahatdır.

Bununla yanaşı, pandemiyadan əvvəl də işləməyə məcbur olan uşaqlar daha ağır şəraitdə, o cümlədən onların sağlamlığı və təhlükəsizliyi üçün qorxu yaradan şəraitdə işləməli ola bilərlər. Xüsusilə kənd təsərrüfatında və ev işlərində qızların istismarı ehtimalı böyükdür.

Bu gün dünyada 152 milyon işləyən uşaq və yeniyetmə var — bunlar 5 yaşdan 17 yaşa qədər olan hər onuncu uşaqdır.

UNICEF ölkələri pandemiyanın nəticələrindən doğan mümkün bədbəxtliklərin öhdəsindən gəlməyə imkan verəcək tədbirlər görməyə çağırır. Bildirilir ki, burada keyfiyyətli təhsilin, sosial müdafiənin və iqtisadi imkanların təmin edilməsi əsas rol oynamalıdır.

BƏT xatırladır ki, uşaq əməyinin ən pis formalarının ləğv edilməsi üzrə konvensiya 18 yaşdan kiçik uşaqların sağlamlığına, mənəvi və ya psixoloji vəziyyətinə zərər vuran işlərə cəlb olunmasını qadağan edir. Bu cür işlərə son dərəcə yüksək və ya aşağı temperaturlarda işləmək və təhlükəli kimyəvi maddələrdən istifadə olunan əmək şəraiti aiddir. Hazırda bütün 5 yaşdan 17 yaşadək uşaqların 99,9 faizi bu müqavilənin iştirakçısı olan ölkələrdə yaşayır.

## Etibarsız sayılır

**Bakı şəhər** 144 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həsənli Şahmar Barat oğluna verilmiş A-296700 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 308 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Babayev Orxan Vaqif oğluna verilmiş E-202060 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Seyidova İlahə Sabir qızına verilmiş AN-026855 nömrəli bakalavr fərqlənmə diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Əliyeva Nərgiz Çingiz qızına verilmiş AN-203154 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.C.Pişəvəri adına Respublika Humanitar fənlər gimnaziyanı** 2001-ci ildə bitirmiş Kərimov Səbuhi Sabir oğluna verilmiş A-396189 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2016-cı ildə Amanova Zeynəb Azadxan qızına verilmiş A-104085 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 2000-ci ildə Məmmədov Əli Həmzə oğluna verilmiş A-033338 nömrəli bakalavr diplomu və diploma əlavə qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2014-cü ildə Ağayev Emil Mirələm oğluna verilmiş B-269981 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1996-cı ildə Dadaşov Orxan Yaşar oğluna verilmiş AB-I-003216 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Cavad kənd 1 nömrəli tam orta məktəbi 1982-ci ildə bitirmiş Əliyeva Qənirə Mirzağa qızına verilmiş A-062443 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2014-cü ildə Xaliq-zadə Fatimə Fərhad qızına verilmiş A-037650 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Kolleci** tərəfindən 2019-cu ildə Quliyeva Jalə Xəzəl qızına verilmiş AA-130554 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 18 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş İbrəhimli Fərid Əzizağa oğluna verilmiş B-695571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Şüşün kənd tam orta məktəbini 2002-ci ildə bitirmiş Şükürov Fuad Abil oğluna verilmiş B-548055 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 116 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Həsənova Lamiyə Qasım qızına verilmiş A-304109 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 2 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əlizadə Aqil Zahid oğluna verilmiş B-716896 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əlizadə Azər Zahid oğluna verilmiş A-367539 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Hacıyev Cəmil Hikmət oğluna verilmiş A-007257 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Kərimbəyli kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Həziyev Novruz Ağalar oğluna verilmiş B-711139 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Rəfili Şahin Akif oğluna verilmiş B-682548 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Artupa kənd tam orta məktəbini 2010-cu ildə bitirmiş Həmidov Azər Barat oğluna verilmiş A-704603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Mehdiabad qəsəbə 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynov Rəşad Kərim oğluna verilmiş AN-322131 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Mirzəli Əli İlqar oğluna verilmiş A-299764 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Bağman kənd tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Abbasova (Hasilova) Kamilə Calal qızına verilmiş 712399 nömrəli ümumu orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Aşağı Noxudlu kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Nəcəfov Zabil Qabil oğluna verilmiş A-063935 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2013-cü ildə Nəsirov Əlif Fazil oğluna verilmiş A-017359 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 163 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Salahova Reyhan Ənvər qızına verilmiş AN-307040 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 2 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Bağırova (İsmayılova) Aysel Ədalət qızına verilmiş BN-159641 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 2 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Bağırova Sevil Vaqif qızına verilmiş 04 nömrəli şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Balakən Rayon Təhsil Şöbəsinin kollektivi şöbənin müdiri

**ƏLİYEV VAHİD ŞAHHƏSƏN OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"İdrak" liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ingilis dili müəllimi Xatirə Şıxıyevaya həyat yoldaşı

**RASİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.





# Asiyanın ən yaxşı universitetləri

## Böyük Britaniyanın təhsil xidmətləri sahəsində nüfuzlu şirkəti növbəti reytinqi açıqlayıb

| Rey-tinq | Ali məktəbin adı | Ölkə | Tələbələrin ümumi sayı | Tələbə-müəllim nisbəti | Beynəlxalq tələbələr | Qadın: kişi nisbəti |
|---|---|---|---|---|---|---|
| 1 | Tsinghua University | Çin | 38783 | 12.0 | 11% | 34 : 66 |
| 2 | Peking University | Çin | 39575 | 11.5 | 15% | 46 : 54 |
| 3 | National University Singapore | Sinqapur | 30869 | 17.9 | 28% | 51 : 49 |
| 4 | University of Hong Kong | Honkonq | 18260 | 18.2 | 44% | 54 : 46 |
| 5 | The Hong Kong University of Science and Technology | Honkonq | 10125 | 22.3 | 31% | n/a |
| 6 | Nanyang Technological University, Singapore | Sinqapur | 25088 | 15.9 | 27% | 48 : 52 |
| 7 | The University of Tokyo | Yaponiya | 25913 | 10.6 | 12% | n/a |
| 8 | Chinese University of Hong Kong | Honkonq | 18340 | 18.6 | 32% | n/a |
| 9 | Seoul National University | Cənubi Koreya | 26182 | 12.4 | 12% | n/a |
| =10 | University of Science and Technology of China | Çin | 16245 | 7.7 | 4% | n/a |
| =10 | Sungkyunkwan University | Cənubi Koreya | 23342 | 19.5 | 15% | 43 : 57 |
| 12 | Kyoto University | Yaponiya | 22566 | 9.0 | 9% | 24 : 76 |
| =13 | Korea Advanced Institute of Science and Technology | Cənubi Koreya | 9481 | 10.2 | 8% | 20 : 80 |
| =13 | Zhejiang University | Çin | 33427 | 10.7 | 22% | 23 : 77 |
| 15 | Pohang University of Science and Technology | Cənubi Koreya | 3215 | 10.3 | 3% | 23 : 77 |
| 16 | City University of Hong Kong | Honkonq | 9587 | 11.0 | 45% | 59 : 41 |
| 17 | Fudan University | Çin | 32537 | 11.2 | 12% | 53 : 47 |
| 18 | Nanjing University | Çin | 34569 | 15.5 | 10% | 44 : 56 |
| 19 | Shanghai Jiao Tong University | Çin | 38853 | 11.1 | 13% | 44 : 56 |
| 20 | Korea University | Cənubi Koreya | 22965 | 16.0 | 22% | n/a |
| 21 | National Taiwan University | Tayvan | 27254 | 11.1 | 11% | 40 : 60 |
| 22 | Yonsei University (Seoul campus) | Cənubi Koreya | 17744 | 14.6 | 22% | 47 : 53 |
| 23 | Ulsan National Institute of Science and Technology | Cənubi Koreya | 4127 | 13.9 | 8% | 26 : 74 |
| 24 | Hong Kong Polytechnic University | Honkonq | 20388 | 23.1 | 25% | 52 : 48 |
| 25 | Tel Aviv University | İsrail | 22414 | 22.3 | 7% | 55 : 45 |
| 26 | King Abdulaziz University | Səudiyyə Ərəbistanı | 32853 | 7.9 | 21% | 54 : 46 |
| 27 | Hebrew University of Jerusalem | İsrail | 16137 | 12.0 | 5% | 56 : 44 |
| 28 | Alfaisal University | Səudiyyə Ərəbistanı | 2566 | 10.4 | 34% | 60 : 40 |
| 29 | Kyung Hee University | Cənubi Koreya | 22102 | 17.3 | 22% | 51 : 49 |
| 30 | Tohoku University | Yaponiya | 17735 | 8.2 | 12% | 27 : 73 |
| 31 | Khalifa University | Birləşmiş Ərəb Əmirlikləri | 3651 | 9.5 | 26% | 55 : 45 |
| 32 | Macau University of Science and Technology | Makao | 9924 | 24.4 | 79% | 56 : 44 |
| 33 | Southern University of Science and Technology | Çin | 3198 | 9.5 | 0% | 27 : 73 |
| 34 | Huazhong University of Science and Technology | Çin | 56379 | 16.5 | 5% | 36 : 64 |
| 35 | Taipei Medical University | Tayvan | 5973 | 10.2 | 10% | 57 : 43 |
| 36 | Indian Institute of Science | Hindistan | 4128 | 9.6 | 1% | 23 : 77 |
| 37 | University of Macau | Makao | 9340 | 14.4 | 37% | 57 : 43 |
| =38 | Hanyang University | Cənubi Koreya | 20087 | 15.7 | 21% | n/a |
| =38 | Sun Yat-sen University | Çin | 53603 | 16.6 | 9% | 51 : 49 |
| =38 | United Arab Emirates University | Birləşmiş Ərəb Əmirlikləri | 7523 | 9.2 | 21% | 83 : 17 |
| 41 | Nagoya University | Yaponiya | 1676 | 9.2 | 11% | 30 : 70 |
| 42 | Tokyo Institute of Technology | Yaponiya | 9752 | 7.7 | 13% | 15 : 85 |
| 43 | University of Malaya | Malayziya | 15140 | 8.0 | 20% | 63 : 37 |
| 44 | Wuhan University | Çin | 52502 | 14.6 | 7% | n/a |
| 45 | Beijing Normal University | Çin | 23524 | 15.4 | 11% | n/a |
| 46 | National Tsing Hua University | Tayvan | 14853 | 18.0 | 10% | 42 : 58 |
| 47 | Indian Institute of Technology Ropar | Hindistan | 1119 | 7.6 | 0% | 13 : 87 |
| =48 | Babol Noshirvani University of Technology | İran | 5744 | 29.6 | 0% | 32 : 68 |
| =48 | Sabancı University | Türkiyə | 3605 | 21.5 | 9% | 37 : 63 |
| 50 | Tongji University | Çin | 35690 | 13.1 | 13% | 45 : 55 |
| 51 | Harbin Institute of Technology | Çin | 29603 | 9.9 | 12% | 32 : 68 |
| =52 | Nankai University | Çin | 28061 | 13.3 | 7% | n/a |
| =52 | Qatar University | Qətər | 15585 | 17.3 | 38% | 76 : 24 |
| 54 | Central South University | Çin | 51546 | 18.4 | 2% | n/a |
| =55 | Indian Institute of Technology | Hindistan | 1128 | 9.7 | 0% | 17 : 83 |
| =55 | Osaka University | Yaponiya | 22892 | 7.4 | 11% | 32 : 68 |
| 57 | University of Occupational and Environmental Health | Yaponiya | 1142 | 2.6 | 1% | 54 : 46 |
| 58 | Jordan University of Science and Technology | İordaniya | 21512 | 13.4 | 17% | 58 : 42 |
| 59 | Indian Institute of Technology Kharagpur | Hindistan | 9167 | 12.3 | 0% | 18 : 82 |
| =60 | American University of Beirut | Livan | 8401 | 8.5 | 21% | 51 : 49 |
| =60 | Universiti Brunei Darussalam | Bruney | 3830 | 10.9 | 15% | 67 : 33 |
| 62 | Tokyo Medical and Dental University | Yaponiya | 2999 | 3.3 | 9% | 49 : 51 |
| 63 | Gwangju Institute of Science and Technology | Cənubi Koreya | 2098 | 12.1 | 6% | 25 : 75 |
| 64 | South China University of Technology | Çin | 41139 | 13.9 | 5% | 38 : 62 |
| =65 | Cankaya University | Türkiyə | 9164 | 28.4 | 2% | 45 : 55 |
| =65 | University of the Philippines | Filippin | 39877 | 8.4 | 1% | 58 : 42 |
| 67 | Indian Institute of Technology | Hindistan | 7284 | 14.8 | 1% | 20 : 80 |
| 68 | King Saud University | Səudiyyə Ərəbistanı | 38971 | 10.4 | 10% | 59 : 41 |
| =69 | Indian Institute of Technology | Hindistan | 10,67 | 16.1 | 1% | 19 : 81 |
| =69 | University of Peradeniya | Sri- Lanka | 17482 | 10.8 | 1% | 61 : 39 |
| 71 | Kyushu University | Yaponiya | 18643 | 8.8 | 13% | 28 : 72 |
| 72 | Technion Israel Institute of Technology | İsrail | 14703 | 21.8 | 5% | 36 : 64 |
| 73 | Hunan University | Çin | 40715 | 20.4 | 2% | 46 : 54 |
| 74 | Koç University | Türkiyə | 5381 | 15.6 | 6% | 51 : 49 |
| =75 | Hong Kong Baptist University | Honkonq | 8759 | 11.6 | 45% | 65 : 35 |
| =75 | Quaid-i-Azam University | Pakistan | 14694 | 24.8 | 1% | 57 : 43 |
| =75 | Sharif University of Technolog | İran | 9260 | 19.8 | 2% | 26 : 74 |
| 78 | Sejong University | Cənubi Koreya | 12119 | 17.0 | 10% | 47 : 53 |
| 79 | Tianjin University | Çin | 34780 | 14.0 | 6% | n/a |
| 80 | National Taiwan University of Science and Technology | Tayvan | 8340 | 19.5 | 15% | 30 : 70 |
| 81 | Bar-Ilan University | İsrail | 16723 | 17.5 | 5% | 60 : 40 |
| 82 | Fujita Health University | Yaponiya | 2942 | 3.2 | 0% | 55 : 45 |
| =83 | Amirkabir University of Technology | İran | 11580 | 21.6 | 2% | 35 : 65 |
| =83 | Indian Institute of Technology Roorkee | Hindistan | 7561 | 16.4 | 2% | 16 : 84 |
| 85 | Southeast University | Çin | 32951 | 11.6 | 5% | 40 : 60 |
| 86 | Beihang University | Çin | 29952 | 13.7 | 6% | n/a |
| 87 | Iran University of Science and Technology | İran | 13273 | 31.7 | 1% | 31 : 69 |
| 88 | Shenzhen University | Çin | 35171 | 15.5 | 1% | 48 : 52 |
| =89 | China Medical University | Tayvan | 7603 | 16.5 | 8% | 54 : 46 |
| =89 | National Chiao Tung University | Tayvan | 12017 | 16.7 | 12% | 30 : 70 |
| =89 | Yasouj University | İran | 6332 | 27.5 | 0% | 46 : 54 |
| 92 | Institute of Chemical Technology | Hindistan | 2146 | 18.2 | 0% | 34 : 66 |
| =93 | Teikyo University | Yaponiya | 22873 | 16.7 | 2% | 34 : 66 |
| =93 | University of Tsukuba | Yaponiya | 16844 | 13.6 | 21% | 39 : 61 |
| 95 | Yokohama City University | Yaponiya | 4910 | 4.5 | 2% | 56 : 44 |
| 96 | Hokkaido University | Yaponiya | 18225 | 8.1 | 11% | 31 : 69 |
| 97 | Chung-Ang University | Cənubi Koreya | 16681 | 22.1 | 18% | n/a |
| =98 | East China Normal University | Çin | 25747 | 11.5 | 17% | 65 : 35 |
| =98 | University of Haifa | İsrail | 16164 | 21.0 | 2% | 66 : 34 |
| =100 | Bilkent University | Türkiyə | 10374 | 14.5 | 9% | 46 : 54 |

**Oruc MUSTAFAYEV**

Qlobal dünyanın ali təhsil sistemləri qarşısında qoyduğu mühüm şərtlərdən biri universitetlərin çevik təşəbbüslərlə çıxış etməsi, beynəlxalq əməkdaşlıq və elmi tədqiqatlar sahəsində nəticələrə hesablanmış fəaliyyətlərdir.

Bütün bunlar Böyük Britaniyanın təhsil xidmətləri sahəsində nüfuzlu şirkəti olan "The Times Higher Education" (THE) dərgisinin növbəti tədqiqatının mövzusu olub. İyunun əvvəllərində THE 2020-ci il üzrə Asiyanın ən yaxşı ali məktəblərinin reytinq cədvəlini (The Times Higher Education Asia University Rankings 2020) təqdim edib. Bu il reytinq sıralamasına Çinin Tsinxua Universiteti başçılıq edir. Universitet müəllimlərinin elmi məqalələrindən sitatgətirmənin sayının artması, təhsil mühiti, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində fəallığı Tsinxua Universitetinin Asiyada lider mövqeyini təmin edib.

Çinin digər ən nüfuzlu ali təhsil müəssisələrindən Pekin Universiteti əvvəlki reytinqlə müqayisədə 3 pillə irəliləyərək 2-ci yerdə qərarlaşıb.

Bununla yanaşı, Yaponiya reytinqdə daha çox universitetlə (110) təmsil olunur. Ötən il gündoğar ölkə bu reytinqdə 103 universitetlə yer alıb. Reytinqdə Çini 63 universitet təmsil edib. Hindistan 56 ali təhsil müəssisəsi ilə sıralamada ən çox yer almış 3-cü ölkədir.

İlk 100-lükdə Türkiyənin Sabançı (49-cu yer), Çankaya (65-ci yer), Koç (74-cü yer), Bilkənt (100-cü yer) kimi universitetləri yer alıb. Reytinqdə bəzi universitetlərin ciddi fəallığını görmək olar. Məsələn, Makao Elm və Texnologiya Universiteti 32-ci yerdə debüt edərək yeni rekorda imza atıb. 2020-ci ilin reytinqinə 30 ölkədən 500-ə qədər universitet daxil olub.

Dünya universitetlərinin qlobal sıralamasında olduğu kimi, bu tədqiqat da ali təhsil müəssisələrini eyni 13 performans göstəricilərindən istifadə etməklə qiymətləndirib. Universitetlərin tam və balanslı müqayisəsini təmin etmək üçün onlar bütün əsas missiyaları - tədris, elmi-tədqiqat, biliklərin transferi və beynəlxalq perspektiv üzrə qiymətləndirilib. Reytinq tərtib olunarkən təhsilin keyfiyyəti, tədqiqat işlərinin səviyyəsi, elmi tədqiqatlardan əldə olunan gəlirlərin həcmi üzrə göstəricilərdən və beynəlxalq fəaliyyətdən istifadə edilib. Bundan əlavə, ali məktəbin akademik və tələbə mühitində, universitet rəhbərləri arasında, eləcə də hökumət səviyyəsində və real sektorda nüfuzu nəzərə alınıb.

Asiya universitetlərinin reytinqinin tərtib edilməsi üçün istifadə olunan 13 göstəriciyə tədris reputasiyası (10%), müəllim/tələbə nisbəti (4,5%), doktorantura/bakalavr nisbəti (2,25%), verilən doktorluq dərəcələrinin/professor-müəllim heyətinə nisbəti (6%), institusional gəlirlər (2,25%) və reputasiya tədqiqatları (15%), elmi tədqiqat gəlirləri (7,5%), elmi tədqiqatların məhsuldarlığı (7,5%) və sitatgətirmə (30%), beynəlxalq tələbələrin payı (2,5%), beynəlxalq əməkdaşlıq (2,5%%), həmçinin sənaye gəlirləri (7,5%) daxildir.

Daha ətraflı *www.timeshighereducation.com/student/best-universities/best-universities-asia* səhifəsindən tanış olmaq olar.



